RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 108 (9563) 24 may 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Səmimiyyət, dostluq və qardaşlıq



## Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycana dövlət səfəri edib

Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub. Prezidentlərin geniş tərkibdə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 23-də başa çatıb.

2-4



# 21 İLİN 100 GÜNÜ

*İlham Əliyevin gərgin, çoxcəhətli, səmərəli, milli maraqları yüksək səviyyədə təmin edən və ölkə vətəndaşlarının sosial rifahını yüksəldən fəaliyyətindən məmnun qalan seçicilərin 93 faizdən çoxu 7 fevral 2024-cü ildə keçirilən növbədənkənar prezident seçkilərində yenidən ona səs verməklə növbəti dövrdə də ölkə rəhbəri seçdilər!*

**Cənab İlham Əliyev beşinci prezidentliyinə qalib dövlət başçısı, Müzəffər Ali Baş Komandan, ikiəsrlik Qarabağ münaqişəsini zəfərlə həll edərək xalqının ümummilli ideyasını gerçəkləşdirən rəhbər kimi qədəm qoydu!**

*Son 20 ilin ən mühüm və vacib məsələsi işğal altındakı torpaqları düşməndən təmizləmək, ölkənin ərazi bütövlüyünü və dövlət suverenliyini təmin etmək idi.*

**Cənab İlham Əliyev bunu böyük məharətlə, incə və uzaqgörən siyasət yürütməklə, "dəmir yumruğ"u ilə həll etdi!**

*Artıq yüz gününü başa çatdırdığımız yeni dövrdə qarşıda duran ən mühüm vəzifə isə otuzillik işğalın ağır nəticələrini aradan qaldırmaq, müasir tipli yeni yaşayış məntəqələri yaradaraq doğma torpaqlarından uzun müddət aralı düşmüş insanları tezliklə geriyə qaytarmaqdır!*

Yeni dünya nizamının formalaşması ilə bağlı gedən ağrılı proseslər, Cənubi Qafqaza məkrli oyunların və xəbis niyyətlərin yol tapması xarici siyasətə də mühüm diqqət yetirilməsini zəruri edir.

*Prezidentin fəaliyyətə başlamasının ilk yüz günündə hər iki istiqamətdə gərgin və səmərəli fəaliyyətin, uğurlu nəticələrin şahidi oluruq!*

❖ ❖ ❖

Cənab İlham Əliyev Azərbaycana beşinci rəhbərliyinə, eyni zamanda prezidentliyinin ilk yüz gününə andiçmə mərasimi ilə başladı.

**14 fevral 2024-cü ildə Milli Məclisdə keçirilən təntənəli inaqurasiya mərasimində söylədiyi proqram xarakterli çıxışında ötən iyirmi ildə görülən işlərə yekun vurmaqla yanaşı, yeni dövrün başlıca xüsusiyyətləri, qarşıdakı əsas hədəflər və yerinə yetiriləcək vəzifələr, habelə onlara çatmaq yolları barədə xalqa ətraflı məlumat verdi.**

Şübhəsiz, ötən dövrün başlıca yekunu və qarşıdakı zaman kəsiyində yerinə yetirilləsi vəzifələrin mahiyyəti yeni reallıqların yaranmasından - Azərbaycan xalqının milli ideyasının həyata keçirilərək ərazi bütövlüyünün və suverenliyinin bərpasından qaynaqlanır.

Cənab İlham Əliyev ilk növbədə prezidentliyinin iyirmi ili ərzində qazanılan uğur və nailiyyətlərin başlıca səbəbini qeyd etdi:

*"2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır".*

Dövlət başçısı daha sonra xalqın milli ideyasının gerçəkləşdirilməsinə toxundu:

*"Verdiyim vədlər arasında təbii ki, ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpası idi... Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".*

**Mövcud reallıqlar, yeni dövrün çağırışlarını və müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələri xatırladan cənab İlham Əliyev prezidentliyinin yeni dövründə görüləcək işlər, aparılacaq islahatlar və nəzərdə tutulan yeniliklər barədə də dolğun məlumat verdi:**

*"İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm".*

6-7

## Azərbaycan-Tacikistan münasibətlərində yeni mərhələ başlayır

### Prezident Emoməli Rəhmonun ölkəmizə səfəri mövcud əlaqələrə müsbət impuls verəcək

Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə münasibətlər isə xüsusi yer tutur. Belə ölkələrdən biri də Tacikistandır.

Son illərdə dünyada yaşanan proseslər ölkələrdən daha sıx əməkdaşlıq etməyi və ümumi səylər göstərməyi tələb edir. Bu xətt Azərbaycanın xarici siyasətində də açıq şəkildə hiss olunur.

Prezident İlham Əliyevin son 2-3 il ərzində Mərkəzi Asiyaya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Bu səfərlər zamanı imzalanan müqavilələr, sazişlər



ölkələrimiz arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini müəyyənləşdirir.

4

## Birinci vitse-prezident Mehriban Əliyeva cüdoçu Zelim Kotsoyevi dünya çempionu adını qazanması münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva cüdoçu Zelim Kotsoyevi Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında qızıl medal qazanması münasibətilə təbrik edib.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident bununla bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "İdmançımız Zelim Kotsoyev Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatında Azərbaycana növbəti - 2-ci qızıl medalı qazandırdı! Dünya çempionunu səmimi-qəlbdən təbrik



edir, ona güc, enerji, yeni-yeni nailiyyətlər və qələbələr arzulayıram!"

## Makron Yeni Kaledoniyada ciddi etirazla qarşılandı

### Yerli siyasətçilər onun videobağlantı vasitəsilə danışmaq təklifini qəti şəkildə rədd etdilər

Mayın 23-də Yeni Kaledoniyanın paytaxtı Numea şəhərindəki hava limanında mətbuata açıqlama verən Makron deyib ki, buraya sakitliyin bərpa olunması üçün gəlib: "Hər şeyi etmək əzmində gəldim - hörmətlə, təvazökarlıqla və qurbanları xatırlayaraq. Məqsədim nazirlər və bütün hökumətlə birlikdə xalqı dəstəkləmək və Yeni Kaledoniyanın gələcəyini bütün qruplarla müzakirə etməkdir".

Makronun dediyinə görə, lazımi qərarlar qəbul ediləcək və elanlar veriləcək. Amma Prezidentin ətrafındakılar Makronun dəqiq planının olmadığını və böyük siyasi qərarların gözlənilmədiyini bildirirlər.



Prezidenti Fransanın daxili işlər və müdafiə nazirləri Jerald Darmanen və Sebastyen Lekornü və digər rəsmi şəxslər müşayiət ediblər.

20

◆ Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

# Səmimiyyət, dostluq və qardaşlıq

## Rəsmi qarşılanma mərasimi







**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Tacikistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Tacikistan Prezidenti Emoməli Rəhmonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Tacikistan Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Emoməli Rəhmon fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Tacikistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Tacikistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Tacikistan Prezidentinə, Tacikistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistan Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub



Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.

## Azərbaycan və Tacikistan prezidentlərinin geniş tərkibdə görüşü keçirilib



**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Hörmətli Emoməli Şaripoviç.

Hörmətli qonaqlar.

Sizi Azərbaycan torpağında salamlamağıma şadam. Çox şadam ki, Siz mənim dəvətimi qəbul etdiniz və Azərbaycana dövlət səfərinə gəldiniz. Görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz Tacikistanda, Azərbaycanda tez-tez görüşürük. Mən ötən il bir neçə dəfə ölkənizə səfər etmişəm, həmçinin Sizin dəvətinizlə Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə toplantısında iştirak etmişəm. Siz həmçinin ötən il Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın Zirvə toplantısı çərçivəsində ölkəmizdə səfərdə oldunuz. Beləliklə, yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır və bu gün biz Sizinlə həm ikitərəfli gündəliklə, həm də beynəlxalq, regional problemlərlə bağlı bir çox mühüm məsələlər üzrə məsləhətləşmələri və müzakirələri davam etdirdik. Aydındır ki, dövlət səfərinin xüsusi statusu var və bu, münasibətlərimizin bugünkü yüksək səviyyəsinin təzahürüdür. Həmçinin münasibətlərin inkişafında mühüm mərhələlərdən biri bu gün imzalayacağımız, bununla da münasibətlərimizin səviyyəsini rəsmi şəkildə yüksəldəcəyimiz Strateji Tərəfdaşlıq Bəyannaməsidir. Hərçənd qarşılıqlı münasibətlərin tarixinə və xarakterinə nəzər salsaq, onların çoxdan strateji tərəfdaşlıq xarakteri daşıdığını görərik.

Bizim hədəfimiz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyətdir. Bildiyiniz kimi, Sizin səfərinizdən əvvəl biznes-forum olub. Tacikistanın Azərbaycanda Mədəniyyət Günləri keçirilir.

*Ardı 3-cü səh.*

◆ Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

# Səmimiyyət, dostluq və qardaşlıq

## Azərbaycan və Tacikistan prezidentlərinin geniş tərkibdə görüşü keçirilib

*Əvvəli 2-ci səh.*

Bütün bunlar münasibətlərimizi konkret məzmunla zənginləşdirir. İqtisadi xarakterli bir neçə sənəd imzalanıb. Bu gün nümayəndə heyətlərinin üzvləri ilə müzakirələr çərçivəsində əlaqələrimizə daha çox məzmun əlavə etmək üçün bu gündəliyi ətraflı nəzərdən keçirəcəyik. Çünki ticarət dövriyyəsinin statistik rəqəmləri ilə tanış olduqdan sonra, əlbəttə ki, onların hələlik bizi qane edə biləcəyini deyə bilmərik. Düşünürəm ki, bizim bu gün Sizinlə, sonra nümayəndə heyətlərinin üzvləri ilə artıq razılığa gəldiyimiz və müzakirə edəcəyimiz məsələlər ticarət dövriyyəsinin artmasına kömək edəcək. Təbii ki, bizim müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır. Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Trans-Xəzər Nəqliyyat Dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır.





Gündəliyimiz kifayət qədər genişdir. Təkcə nümayəndə heyətlərinin tərkibi bizim hansı istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyət göstərdiyimizdən xəbər verir. Əminəm ki, nəticələr də çox yaxşı olacaq və səfər faydalı, həmçinin xoş keçəcək.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Prezident Emoməli Rəhmon** dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

İlk növbədə, hörmətli İlham Heydər oğlu, yüksək diqqətinizə və səmimi qonaqpərvərliyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm. Şadam ki, biz qarşılıqlı səfərlər ənənəsini yüksək səviyyədə davam etdiririk. Əminəm ki, bugünkü görüşlərin nəticələri ölkələrimizin əməkdaşlığını yeni inkişaf səviyyəsinə yüksəldəcək. Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Bizim aktual regional və beynəlxalq məsələlərdə mövqelərimiz eynidir. Ölkələrimizin xalqlarının daha da yaxınlaşmasına yönələn humanitar əlaqələr fəal inkişaf edir.

Bu gün biz dövlətlərarası münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən tarixi qərar qəbul edəcəyik. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun əsrlərdən bəri davam edən ənənələrinin ruhuna uyğundur. Bu qərarlar müstəqilliyimizin bütün dövründə qarşılıqlı fəaliyyətimizin irəliləməsində əldə olunan uğurları daha da möhkəmləndirir. Bu baxımdan qeyd etmək istərdim ki, bu prosesin başlanğıcını Azərbaycan xalqının Ümummilli Lideri, çox hörmətli Heydər Əlirza oğlu Əliyev qoyub. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar qardaş xalqlarımızın dərin maraqlarına cavab verəcək və Tacikistan-Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevriləcək. Sizə təşəkkür edirəm.

## Azərbaycan-Tacikistan sənədləri imzalanıb





**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni imzaladılar.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Kabir Şerali "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Tacikistan Respublikasının Sənaye və Yeni Texnologiyalar Nazirliyi arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov və Tacikistan Respublikası Hökuməti yanında İcra Xidmətinin rəisi Barno Saidvalizoda "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında İcra Xidməti arasında məhkəmə aktlarının və digər orqanların aktlarının icrası sahəsində əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin sədri Baxodur Şeralizoda "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Tacikistanın daxili işlər naziri Ramazon Raximzoda "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş"i imzaladılar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Tacikistanın xarici işlər naziri Muxriddin Sirodjiddin "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i imzaladılar.

## Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



**Mayın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Emoməli Şaripoviç.

Əziz dostlar.

Əziz qonağımız, Azərbaycanın böyük dostu, qardaş Tacikistanın Prezidenti Emoməli Şaripoviç Rəhmonu qəbul etmək bizim üçün böyük şərəfdir.

Bu gün nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə, həmçinin təkbətək görüş əsnasında qarşılıqlı fəaliyyətimizlə bağlı məsələlərin geniş spektrini müzakirə etdik, sənaye kooperasiyası, humanitar sahədə əməkdaşlıq üzrə iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumətimizin üzvlərinə konkret tapşırıqlar verdik.

İlin sonunda Emoməli Şaripoviç yenidən ölkəmizə səfər edəcək, biz bir daha bütün məsələləri nəzərdən keçirəcək və verilən tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik. Mən Tacikistan Prezidentini noyabrda keçiriləcək iqlim konfransında iştiraka dəvət etdim. Bu dəvət qəbul olundu. Biz bu beynəlxalq tədbirin keçirilməsinə fəal hazırlaşırıq və Tacikistanın aktiv iştirakını gözləyirik. Əminəm ki, tacik dostlarımız bu konfransın uğurla keçirilməsinə və yaxşı nəticələr əldə edilməsinə böyük töhfə verəcəklər.

Qarşılıqlı fəaliyyətimizin əsasında çoxəsrlik tarixboyu əməkdaşlıq etmiş, dost olmuş, birlikdə qurub-yaratmış xalqlarımızın iradəsi dayanır. Bu gün dövlətlərarası münasibətlərimiz ən yüksək səviyyəyə çatıb.

Biz indicə münasibətlərimizin xarakterini, ruhunu, həmçinin xalqlarımızın iradəsini əks etdirən Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq. Bəyannamə qarşılıqlı fəaliyyətin, demək olar, bütün sahələrini əhatə edir. Bu sənəddə qarşılıqlı dəstək və konkret nəticələrə diqqət ifadə olunub.

Bu gün iqtisadi əməkdaşlıq məsələlərini ətraflı müzakirə etdik. Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə yanaşı, daha 13 sənəd, ümumilikdə 14 sənəd imzalanıb ki, onlardan bəziləri burada, bəziləri isə əvvəllər imzalanıb. Bu, münasibətlərimizin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Tacikistan Prezidentinin səfəri ərəfəsində biznes-forum keçirildi, bu forumda da sənədlər və qarşılıqlı anlaşma memorandumları imzalandı və bu barədə bu gün bizə məlumat verildi. Hesab edirəm ki, bu, bizə qarşılıqlı ticarətin həcmini xeyli artırmağa imkan verəcək.

Bu günlərdə keçirilən və bir neçə gün, təxminən bir həftə davam edəcək Azərbaycanda Tacikistanın Mədəniyyət Günləri də ikitərəfli münasibətlərdə mühüm hadisədir. Düşünürəm və əminəm ki, o, tacik xalqının zəngin mədəniyyəti ilə tanış olmaq imkanı əldə edən Azərbaycan tamaşaçılarına sevinc bəxş edir.

Bu gün biz sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı müzakirə etdik və əminəm ki, haqqında danışdığımız məsələlər, hökumət üzvlərinə verilən tapşırıqlar ən qısa zamanda icra olunacaq. Nəqliyyat sektoru da diqqət mərkəzimizdə olub. Biz Orta dəhlizi və onun bir hissəsi olan Trans-Xəzər Nəqliyyat Dəhlizini Tacikistandan yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələləri ətraflı nəzərdən keçirdik. Mən həmkarıma məlumat verdim ki, Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə - Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır.

Bu gün həmçinin geosiyasi dəyişikliklər, dünyadakı vəziyyət, regionlarımızdakı şərait ilə bağlı məsələləri müzakirə etdik. Biz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və bu sahədə əməkdaşlığın inkişafı, təhsil, mədəniyyət və kənd təsərrüfatı ilə bağlı məsələləri ətraflı nəzərdən keçirdik. Başqa sözlə, hətta ölkələrimizin nümayəndə heyətlərinin tərkibi də geniş gündəmdən xəbər verir. Amma, əlbəttə, əsas olan münasibətlərimizdəki səmimiyyət, Tacikistanla Azərbaycan arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteri, təbii ki, dövlət başçılarının şəxsi təmaslarıdır. Keçən il mən Tacikistanda iki dəfə - həm dövlət səfərində oldum, həm də Emoməli Şaripoviç məni Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə fəxri qonaq qismində dəvət etdi. Həmçinin ötən il biz BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının - SPECA-nın Sammitini keçirdik və Emoməli Şaripoviç ölkəmizə səfər etdi. Yəni bizim Tacikistan və Azərbaycanda müntəzəm təmaslarımız, - hələ beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşləri demirəm, - əlbəttə ki, qarşılıqlı fəaliyyətimizin ən mühüm amilidir, münasibətlərin konkret olaraq zənginləşməsi üçün bütün sahələrə güclü təkan verir.

Hörmətli Emoməli Şaripoviç, bir daha Sizi səmimiyyətlə salamlayıram. Dəvətimi qəbul etdiyinizə və dövlət səfərinə gəldiyinizə görə təşəkkür edirəm. Qardaş Tacikistanın xalqına Sizin rəhbərliyinizlə yeni qələbələr arzulayıram. Təxminən 20 il ərzində Tacikistana səfər edən bir şəxs kimi hər dəfə irimiqyaslı dəyişikliklərin, iqtisadi, sosial inkişafın, şəhərsalma sahəsində uğurların şahidi oluram.

*Ardı 4-cü səh.*

Tacikistan Prezidenti Emoməli Rəhmonun Azərbaycana dövlət səfəri

# Səmimiyyət, dostluq və qardaşlıq

## Azərbaycan və Tacikistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 3-cü səh.*

Hər dəfə Düşənbədə olarkən şəhərin necə gözəlləşdiyini, onun sakinlər və qonaqlar üçün rahat olduğunu görürəm. Buna görə də bir daha bütün nailiyyətlər münasibətilə təbrik edirəm. Sizə və qardaş tacik xalqına yeni uğurlar arzulayıram.

❖ ❖ ❖

Sonra Tacikistan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Emoməli Rəhmonun bəyanatı

- Sağ olun, hörmətli İlham Heydər oğlu.

Hörmətli media nümayəndələri.

Xanımlar və cənablar.

İlk növbədə ənənəvi qonaqpərvərliyə, yüksək diqqətə və səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti, əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına ürəkdən təşəkkür etmək istəyirəm.

Bu gün regionun ən böyük sənaye, iqtisadi və elmi-texniki mərkəzlərindən biri olan qədim tarixə malik gözəl Bakı şəhərini növbəti dəfə ziyarət etdiyimə görə çox şadam. Azərbaycan paytaxtının təkrarolunmaz siması ölkənin dinamik sosial-iqtisadi inkişafının və Azərbaycan xalqının rifahının davamlı olaraq yüksəlməsinin təcəssümüdür.

Bugünkü görüşlərimiz Tacikistan-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərinə xas konstruktiv və etimad mühitində keçdi. Danışıqlar zamanı iki ölkə arasındakı münasibətlərin bütün kompleksini ətraflı müzakirə etdik. Bu münasibətlərin uzunmüddətli inkişafının təməlini əhəmiyyətli dərəcədə gücləndirən bir sıra vacib razılaşmalar əldə etdik.

Hörmətli İlham Heydər oğlu qeyd etdiyi kimi, bu gün biz dövlətlərarası münasibətlərimizin səviyyəsini strateji tərəfdaşlığa yüksəldən tarixi qərar qəbul etmişik. Bu qərar şübhəsiz ki, əməkdaşlığımızın tarixində yeni səhifə açır. Öz növbəmdə müntəzəm siyasi dialoqun bütün səviyyələrdə aparılmasının vacibliyini vurğulamaq istərdim.

Tacikistanda Azərbaycan Prezidenti İlham Əliyevin ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafına şəxsi töhfəsi yüksək qiymətləndirilir. Danışıqlar zamanı Azərbaycan Prezidentinin Tacikistana ötənilki dövlət səfəri zamanı əldə edilmiş razılaşmaların əməli surətdə həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirildi. İqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafı diqqət mərkəzində saxlanıldı. Ölkələrimizin hökumətlərinə 2025-ci ilədək hökumətlərimiz arasında iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planının tam icrasına ciddi nəzarət etmək tapşırıldı. İqtisadi-ticari əməkdaşlıq məsələləri üzrə Birgə hökumətlərarası komissiyanın daha səmərəli işləməsi məqsədilə biz onu həmsədrlər səviyyəsindən Baş nazirlərin müavinləri səviyyəsinə qaldırmağı təklif etdik.

Həmçinin parlamentlərarası dialoqun inkişafına dair fikir mübadiləsi aparıldı.

Danışıqlar zamanı bir daha Azərbaycan şirkətlərinin və maliyyə qurumlarının Tacikistanda layihə və proqramların həyata keçirilməsində iştirak imkanlarını prioritet qaydada nəzərdən keçirməyə hazır olduğumuzu bildirdik. Bakıda səfərimiz çərçivəsində keçirilən biznes-forum tərəflərin iqtisadi-ticari əlaqələrini inkişaf etdirmək üçün geniş imkanlara malik olduqlarını göstərdi. Ümidvaram ki, onun nəticələri bu gün imzalanmış ikitərəfli sənədlərlə yanaşı, bu istiqamətdəki əməkdaşlığımıza da təkan verəcək. Qeyd etmək lazımdır ki, forum çərçivəsində imzalanmış kommersiya müqavilələrinin və sazişlərin ümumi məbləği bütövlükdə 700 milyon ABŞ dollarından çox olub. Müvafiq nazirliklərə və idarələrə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə qarşılıqlı tədarük olunan malların nomenklaturasının genişləndirilməsinə yeni yanaşmaların hazırlanması üçün konkret tapşırıqlar verildi.

Danışıqlar zamanı biz aqrar sahəyə də xüsusi diqqət yetirdik. Biz turizm sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsinin imzalanmasını alqışladıq. Bununla bağlı müvafiq qurumlara paytaxtlarımız arasında birbaşa aviareyslərin bərpası üçün tədbirlərin görülməsi tapşırıldı.

Nəqliyyat və kommunikasiya sahələrinə xüsusi diqqət yetirildi. Tacikistanın dövlət və kommersiya strukturlarının Azərbaycan ərazisindən yük daşımalarının həcminin artması tendensiyasını məmnunluqla qeyd etdik. Tacikistanın yük daşıyıcılarına məqbul tranzit tarifləri təqdim etdiyinə görə Azərbaycan tərəfinə minnətdarlığımızı bildirdik.

Danışıqlarımızda mədəni-humanitar əməkdaşlıq məsələsi də mühüm yer tutdu. Bu baxımdan, təhsil sahəsində əməkdaşlığın inkişafına diqqət yetirildi. İki ölkənin universitetlərində təhsil almaq üçün qarşılıqlı olaraq ayrılan kvotaların sayını artırmaq barədə razılığa gəldik. Səfər çərçivəsində keçirilən mədəni tədbirlər ölkələrimizin vətəndaşlarının bir-birimizin mədəni nailiyyətləri ilə tanış olmaq marağını və istəyini bir daha sübuta yetirdi. Biz dostlarımıza təklif etdik ki, gələn il Tacikistanda Azərbaycan Mədəniyyət Günlərini keçirək və bu tədbir çərçivəsində Tacikistan və Azərbaycan xalqları arasında Dostluq festivalı təşkil edək.

Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk. Bu baxımdan, terrorizmə və ekstremizmə, radikalizmin təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibercinayətkarlığa və narkotik qaçaqmalçılığına qarşı mübarizəyə mühüm yer ayırırıq. Bu xətt üzrə xüsusi xidmət orqanlarının və ixtisaslaşdırılmış digər idarələrin fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsini zəruri hesab edirik.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində ölkələrimizin təşəbbüslərinin qarşılıqlı şəkildə dəstəklənməsi təcrübəsinin davam etdirilməsinin tərəfdarı olduğumuzu bildirdik. Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyasını (COP29) keçirməsi ilə bağlı qərarını alqışlayırıq.

Vurğulamaq istərdim ki, biz Tacikistan-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərinə nikbin baxırıq.

Sonda hörmətli İlham Heydər oğlu, səmimi qəbula və qardaşcasına qonaqpərvərliyə görə Sizə və qardaş Azərbaycan xalqına bir daha səmimi-qəlbdən təşəkkürümü bildirmək istəyirəm.

Onu da demək istərdim ki, mən konstruktiv dialoqumuzu davam etdirmək məqsədilə əziz dostum və qardaşım İlham Heydər oğlu Əliyevi böyük məmnuniyyətlə Tacikistana səfərə dəvət etmişəm.

Çox sağ olun. Diqqətinizə görə təşəkkür edirəm.



## Dövlət səfəri başa çatıb



**Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycan Respublikasına dövlət səfəri mayın 23-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan-Tacikistan münasibətlərində yeni mərhələ başlayır

## Prezident Emoməli Rəhmonun ölkəmizə səfəri mövcud əlaqələrə müsbət impuls verəcək

**Dünyanın siyasi arenasında yerini və çəkisini möhkəmləndirən Azərbaycan əksər dövlətlərlə münasibətlərini inkişaf etdirməkdədir. Tam müstəqil xarici siyasət həyata keçirən Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan əksər dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşı hesab olunur. Azərbaycanın bir çox dövlətlərlə strateji tərəfdaşlıq, səmimi dostluq-qardaşlıq münasibətləri mövcuddur.**

Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə münasibətlər isə xüsusi yer tutur. Belə ölkələrdən biri də Tacikistandır.

Son illərdə dünyada yaşanan proseslər ölkələrdən daha sıx əməkdaşlıq etməyi və ümumi səylər göstərməyi tələb edir. Bu xətt Azərbaycanın xarici siyasətində də açıq şəkildə hiss olunur.

Prezident İlham Əliyevin son 2-3 il ərzində Mərkəzi Asiyaya, o cümlədən regionun türkdilli ölkələrinə ardıcıl səfərləri və həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri əlaqələrimizin genişlənməsini, dərinləşməsini və strateji xarakter almasını şərtləndirir. Bu səfərlər zamanı imzalanan müqavilələr, sazişlər ölkələrimiz arasında münasibətlərin qarşıdakı dövr üçün əsas istiqamətlərini müəyyənləşdirir.

Tacikistan Prezidenti Emoməli Rəhmonun ölkəmizə səfəri də yeni yüksəliş mərhələsində olan münasibətlərimizə müsbət impuls verəcək. Tarixə nəzər yetirsək görərik ki, iki ölkə arasında diplomatik münasibətlər 1992-ci il mayın 29-da qurulub. 2007-ci ildə Azərbaycanın Tacikistanda, bir il sonra isə Tacikistanın Azərbaycanda səfirliyi fəaliyyətə başlayıb. İki ölkə arasında ümumilikdə 70-dən çox sənəd, o cümlədən 2007-ci il martın 15-də "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" imzalanıb. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidentinin ötən il Tacikistana dövlət səfəri çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair 14 sənəd imzalanıb.

Etiraf edək ki, iki dost ölkə arasında siyasi münasibətlər yüksək səviyyədə olsa da, iqtisadi sahədə əlaqələr ölkələrimizin potensialını tam əks etdirmir. İki ölkə arasında illik ticarət dövriyyəsinin həcmi 6 milyon dollardır ki, bu da çox azdır. Cari ilin ilk dörd ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 78 faiz artıb. Tacikistan hazırda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizindən (Orta dəhliz) fəal istifadə edir.

Ölkələrimiz arasında əlaqələrin inkişafında Prezident İlham Əliyevin və tacikistanlı həmkarı Emoməli Rəhmonun şəxsi dostluq münasibətləri mühüm rol oynayır. Səmimi dostluq münasibətləri dövlət başçılarının qarşılıqlı səfərlərinin intensivliyində və məhsuldarlığında da özünü göstərir. Belə ki, Prezident İlham Əliyev Tacikistana indiyədək altı dəfə səfər edib. Ötən il dövlətlərimiz arasında ali səfərlər baxımından olduqca məhsuldar olub. Azərbaycan Prezidenti 2023-cü ildə dost ölkəyə iki dəfə səfərə gedib. Dövlətimizin başçısı 2023-cü il aprelin 5-6-da Tacikistana dövlət səfəri edib. Prezident İlham Əliyev ötən il sentyabrın 14-də Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının Düşənbədə keçirilən iclasında Prezident Emoməli Rəhmonun dəvəti ilə yeganə fəxri qonaq qismində iştirak edib. Tacikistan Prezidenti Emoməli Rəhmon isə ötən il noyabrın 24-də BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olub.

Onu da xatırladaq ki, 2008-ci il fevralın 7-də Azərbaycanla Tacikistan arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya yaradılıb. İndiyədək komissiyanın altı iclası keçirilib. Beşinci iclas 2022-ci il fevralın 22-23-də Düşənbədə, sonuncu iclas isə ötən il iyulun 7-də Bakıda baş tutub. 2023-cü ilin mayından "Azərbaycan Hava Yolları" QSC tərəfindən Bakı-Düşənbə-Bakı marşrutu üzrə həftədə üç dəfə olmaqla beynəlxalq uçuşlar həyata keçirilir.

Bu il mayın 20-də Bakıda Azərbaycan-Tacikistan İnvestisiya Forumu keçirilib. Forumda Azərbaycanın və Tacikistanın investisiya potensialı, icra olunan layihələr haqqında təqdimatlar nümayiş etdirilib, müxtəlif iqtisadi subyektlər arasında yeni əməkdaşlıq məsələləri müzakirə olunub. Biznes-forum çərçivəsində şirkətlər arasında ticarət, dağ-mədən və kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair 8 sənəd imzalanıb.

İki ölkə arasında elm və təhsil sahəsində də münasibətlər mühüm yer tutur. 2014-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomu təqdim olunub. 2018-ci il avqustun 11-də Azərbaycanda rəsmi səfərdə olan Tacikistan Prezidenti Emoməli Rəhmona ADA Universitetinin Fəxri Doktoru diplomu təqdim edilib. Hazırda Azərbaycanda 40-dək tacikistanlı tələbə təhsil alır.

Azərbaycan-Tacikistan mədəni əlaqələri məhsuldarlığı ilə seçilir. Ölkələrimiz arasında qarşılıqlı mədəniyyət günləri və kino həftəsi keçirilir. 2007-ci il dekabrın 18-22-də Azərbaycanda Tacikistan Mədəniyyət Günləri, bir il sonra noyabrın 9-12-də isə Tacikistanda Azərbaycan Mədəniyyət Günləri təşkil olunub. 2015-ci il martın 9-12-də Bakıda Tacikistan kinosu günləri baş tutub. Mayın 20-də isə Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Tacikistan Mədəniyyət Günlərinin açılışı olub. Paytaxtla yanaşı, Gəncədə də keçirilən mədəniyyət günləri çərçivəsində Bakıda Tacik Kino Günləri də təşkil olunub. Düşənbədə azərbaycanlı heykəltaraşlar Fuad Əbdürrəhmanovun (Rudəkinin heykəli, 1964-cü il) və Ömər Eldarovun (Sədrəddin Ayinin heykəli, 1978-ci il və İbn Sinanın heykəli, 1980-ci il) əsərləri mövcuddur. 2022-ci ildən əvvəl Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandum imzalanıb, sonra isə Xocənd və Gəncə qardaşlaşmış şəhərlər elan ediliblər.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan-Tacikistan əlaqələri qardaş dövlətlərin və xalqların maraqları çərçivəsində dinamik inkişaf edir. Tacikistan Prezidentinin bu səfərindən sonra isə bütün sahələrdə əməkdaşlığımız nəzərəçarpacaq dərəcədə artacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Prezident İlham ƏLİYEV: "Hər bir ölkə maliyyə imkanlarından və gündəmindən asılı olaraq üzərinə düşən vəzifəni yerinə yetirməlidir"

## Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı "Euronews" telekanalına müsahibə verib. AZƏRTAC həmin müsahibəni təqdim edir.**

***Müxbir:*** *Prezident Əliyev, Sizinlə söhbət etmək həmişə olduğu kimi, çox xoşdur. Biz Berlində, Petersberq İqlim Dialoqu tədbirindəyik. Bu, həqiqətən də, COP29-a aparan yolun başlanğıcıdır. Yəqin ki, komandanız çox həyəcanlıdır. Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?*

**Prezident İlham Əliyev:** Biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz, həqiqətən də, böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi, üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi, ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Çünki siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz.

***Müxbir:*** *Qazıntı yanacağı ideyası ötən il BƏƏ-də keçirilən COP28-də üstünlük təşkil edirdi. Bilmək istərdim ki, Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?*

**Prezident İlham Əliyev:** Biz məhz buna nail olmağa çalışırıq. Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir.



***Müxbir:*** *COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?*

**Prezident İlham Əliyev:** Əgər "yaşıl dünya"ya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Eyni zamanda bildiyiniz kimi, COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik.

***Müxbir:*** *Cənab Prezident, Sizinlə söhbət etmək xoş idi. Bu gün bizə vaxt ayırdığınıza görə çox sağ olun.*

**Prezident İlham Əliyev:** Çox sağ olun.

---

## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 13-cü və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 18) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nin 4-cü maddəsinin birinci hissəsinin ikinci abzasına "etməyin" sözündən sonra ",həmçinin silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsinin" sözləri əlavə edilsin.

**Maddə 2.** "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365 (Cild I) 18-ci maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Silahlı münaqişə zamanı daşınar mədəni sərvətlərin təhlükəsiz yerlərə köçürülməsində "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" Konvensiyaya uyğun olaraq fərqləndirici emblemlə işarələnmiş nəqliyyat vasitələrindən istifadə oluna bilər.".

**Maddə 3.** "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 386 (Cild I) 3-cü maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin "b" yarımbəndinə "147-ci maddəsində" sözlərindən sonra ", 1954-cü il tarixli "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasına dair İkinci Protokolun 15-ci maddəsinin 1-ci hissəsinin a - c bəndlərində" sözləri əlavə edilsin.

**Maddə 4.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunu) 53-cü maddəsində "və ya beynəlxalq" sözləri ", xüsusi mühafizə və ya" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

---

## T.P.Əliyevanın 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə Telli Pənah qızı Əliyeva 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2024-cü il*

---

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 262** QƏRAR **Bakı şəhəri, 16 may 2024-cü il**

### "Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatının texniki istismar Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

---

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 272** QƏRAR **Bakı şəhəri, 22 may 2024-cü il**

### Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında

"Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci və Naxçıvan Hərbi Kolleci yaradılsın.

2. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki aşağıdakı xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələri təsdiq edilsin:

2.1. "Bakı Hərbi Kollecinin Nizamnaməsi" *(1 nömrəli əlavə);*
2.2. "Gəncə Hərbi Kollecinin Nizamnaməsi" *(2 nömrəli əlavə);*
2.3. "Naxçıvan Hərbi Kollecinin Nizamnaməsi" *(3 nömrəli əlavə).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

---

# Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi yolları müzakirə edilib

**Mayın 23-də Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun sədrliyi ilə aidiyyəti nazirlik, komitə və digər təşkilatlar tərəfindən görülmüş işlərin müzakirəsinə dair komissiyanın növbəti iclası keçirilib.**

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan AZƏRTAC-a verilən məlumata görə, iclasda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinə dair görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov iclasda bildirib ki, Prezidentinin 2019-cu il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri gücləndirilib, antinarkotik təbliğin müasir dövrün tələblərinə uyğunlaşdırılması sahəsində müvafiq işlər görülüb, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar məqsədyönlü tədbirlər həyata keçirilib.

O, ölkə ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı aşkarlanan cinayət faktları və həmin faktlar üzrə qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr barədə şəhər və rayonlar üzrə məlumatları müqayisəli təhlil edərək iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, hüquq-mühafizə orqanları bu ilin dörd ayında 3796 fakt üzrə 2 ton 262 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddəni qanunsuz dövriyyədən çıxarıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə narkotiklərlə bağlı cinayət faktlarında 196, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisində 849 kiloqram azdır. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin sayında 407 nəfər, həmçinin narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayının azaldığı bildirilib.

Dövlət Komissiyanın iclasında Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov, Dövlət Sərhəd Xidməti rəisinin müavini Abbas Xəlilov, səhiyyə nazirinin müavini Nadir Zeynalov, Salyan Rayon İcra Hakimiyyətinin başçısının müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə rayon komissiyasının sədri Rəşad Cəbrayılov, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısının müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə şəhər komissiyasının sədri Orxan İbrahimov təmsil etdikləri qurumlar tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə tədbirlərinin və narkotik asılılığı olan şəxslərin sayının azaldılması üçün görülən işlərin vəziyyəti, bu sahədə qarşıda duran vəzifələr barədə məlumat veriblər.

İclasda Dövlət Komissiyasının sədri Əli Əhmədov son dövrlərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz olaraq ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilməsi faktlarının, narkotik vasitələrdən istifadə ilə bağlı göstəricilərin artmasından narahatlıq ifadə edib və həmin halların qarşısının alınması üçün müvafiq dövlət qurumlarının və ictimaiyyətin səylərinin artırılması, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin səmərəliliyinin artırılması, antinarkotik təbliğatın və maarifləndirmə işinin aidiyyəti orqanlar tərəfindən kompleks şəkildə təşkil edilməklə daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb.

İclasın yekununda qarşıda duran vəzifələrin icrası, narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısının alınması sahəsində, o cümlədən gömrük-sərhəd buraxılış məntəqələrində və sərhədyanı ərazilərdə fəaliyyətin gücləndirilməsi və tranzit yükdaşımalarına nəzarətin artırılması, reabilitasiya mərkəzinin yaradılması, narkoloji tibbi müəssisələrin maddi-texniki bazasının təkmilləşdirilməsi, narkoloji xidmətin keyfiyyətinin və kadr potensialının yaxşılaşdırılması, narkomanlığın xüsusilə geniş yayıldığı şəhər və rayonlarda narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi və digər zəruri tədbirlərin icra edilməsi sahəsində səmərəliliyin daha da artırılması ilə əlaqədar aidiyyəti qurumlar qarşısında konkret vəzifələr qoyulub.

# 21 İLİN 100 GÜNÜ


















Yeni seçilmiş prezidentin fəaliyyətinin ilk yüz gününün qeyd edilməsi dünyada qəbul olunmuş ənənədir.

Müasir və demokratik dövlət olan Azərbaycan da bu qaydaya daim əməl edir.

**Bu gün - mayın 24-də cənab İlham Əliyevin beşinci dəfə Azərbaycan Prezidenti kimi and içib səlahiyyətlərinin icrasına başlamasının ilk yüz günü tamam olur.**

*Beşinci prezidentliyin yüz günü əvvəlkilərdən nə ilə fərqlənmiş və hansı vacib addımlarla yadda qalmışdır?*

Ötən dövrdə görülən işlərə birlikdə nəzər salaq.

❖ ❖ ❖

**Vəfasız ömür Ulu Öndər Heydər Əliyevə müstəqil Azərbaycanın inkişafı və qarşıda duran problemlərin uğurlu həlli ilə bağlı nəzərdə tutduğu bütün planları sonadək yerinə yetirməyə imkan vermədi.**

Ulu Öndər Azərbaycan xalqına son müraciətini edərək əbədiyyətə qovuşdu.

Azərbaycan vətəndaşları Ümummilli Liderinin müqəddəs vəsiyyətinə böyük hörmət və ehtiramla yanaşdı.

Siyasi varisi cənab İlham Əliyevə etimad və etibarını göstərən Ulu Öndər Heydər Əliyev öz müraciətində deyirdi: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

**Ümummilli Liderimiz İlham Əliyevin istedad, qabiliyyət və bacarığını da bir cümləsində yığcam şəkildə əks etdirmişdi:**

*"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".*

**Azərbaycan xalqı ilk dəfə 2003-cü il prezident seçkilərində cənab İlham Əliyevə etimad göstərərək onu dövlət başçısı seçdi.**

**Yanılmadığının, əksinə, çox doğru seçim etdiyinin fərqində oldu!**

*Cavan dövlət başçısının ölkəyə uğurlu, müdrik və uzaqgörən rəhbərliyindən məmnun qalaraq sonradan daha dörd dəfə yüksək etimad göstərdi.*

**Ötən dövrdə Prezident İlham Əliyev möcüzə və xariqələr yaradaraq Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi, xalqın rifahını əsaslı şəkildə yüksəltməklə arzularını gerçəkləşdirdi, dövlətin qarşısında duran birnömrəli problemi uğurla həll etdi.**

❖ ❖ ❖

*İlham Əliyev ilk prezidentliyinə başlayanda ölkədə həllini gözləyən problemlər mövcud idi.*

**Doğrudur, Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi məhvolmadan, iki dəfə dövlət çevrilişinə cəhddən, xaos və anarxiya bataqlığından qurtarmış, ölkənin gələcək inkişafını təmin edəcək "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuş, möhkəm və dönməz sabitlik yaratmışdı.**

*Lakin hələ neftdən gələn gəlirlər büdcəyə daxil olmadığından bir sıra çətinliklər də yaşanırdı:*

* Məcburi köçkünlərin əksəriyyəti hələ də çadır şəhərciklərində yaşayırdı;

* Ölkə ərazisində qazlaşdırma aşağı səviyyədə idi, elektrik enerjisi regionlara fasilələrlə verilir, bu səbəbdən məişətdə və kənd təsərrüfatı məhsulları istehsalında çətinliklər yaşanırdı;

* Sahibkarlığın inkişafı hələ yeni başladığından regionlarda dolanışıq problemləri qalırdı, insanlar doğma kəndlərini tərk edərək paytaxta axışırdılar;

* Ölkə üzrə işsizlik və yoxsulluq mövcud idi;

* Respublika və yerli əhəmiyyətli yollar dağılmış, infrastruktur köhnəlmişdi;

* Transmilli layihələri reallaşdırmaq üçün beynəlxalq qurumlar qəbuledilməz şərtlərlə kredit ayırmaq yolunu tutduqlarından müəyyən çətinliklər yaşanırdı;

* Ən əsası, Ermənistanın qeyri-konstruktiv mövqeyi və ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi, münaqişənin sonsuzadək uzadılması cəhdləri orduya böyük məbləğdə vəsait ayrılmasını zəruri edirdi;

* Ölkə daxilində də, beynəlxalq sahədə də təxirəsalınmaz həllini gözləyən problemlər vardı!

Ulu Öndər Heydər Əliyev bütün bu problemlərin həlli üçün münbit zəmin, etibarlı bünövrə formalaşdırdı.

**Yeni seçilmiş Prezident cənab İlham Əliyev isə Ulu Öndərin əsasını qoyduğu yolla bütün bu istiqamətlərdə fəaliyyət göstərməyi, özü də ən qısa müddətdə, ən yüksək nəticələr qazanmağı bacardı!**

**Sözün həqiqi mənasında ölkəyə rəhbərliyi dövründə görünməmiş möcüzələr yaratdı!**

❖ ❖ ❖

* Ən əvvəl Azərbaycanı yenidən tikib-quraraq tarixinin ən qüdrətli dövlətinə, Cənubi Qafqazda söz sahibinə, dünyada özünəməxsus yeri və sözü olan yüksək siyasi nüfuzlu məmləkətə çevirdi;

* Daim müstəqil, dövləti və milli maraqlara əsaslanan siyasət yürütdü;

* Ölkənin sürətli və davamlı yüksəlişini təmin etdi, Azərbaycanın yeni inkişaf modelini yaratdı;

* Daxili imkanlar hesabına transmilli layihələrin gerçəkləşdirilməsinə nail oldu;

* "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə saldı, dünya okeanına birbaşa çıxışı olmayan Azərbaycanı beynəlxalq logistika mərkəzinə, Avropa ilə Asiya qitələri arasında səmərəli tranzit körpüsünə çevirdi;

* Ölkənin yol infrastrukturunu yenilədi, elektrik enerjisi ilə təminatını qaydaya saldı, qazlaşdırmanı 95 faizdən yuxarı qaldırdı, Azərbaycanı Avropanın təbii qazla təchizatında iştirak edən etibarlı tərəfdaşa çevirdi;

* Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edərək uğurla həyata keçirilməsinə, nəticədə işsizliyin və yoxsulluğun beş faizədək endirilməsinə nail oldu;

* Hücum diplomatiyasından hücum taktikasına keçməklə beynəlxalq qurum və təşkilatlarda fəaliyyət gücləndirildi, dövlətlərarası ikitərəfli əməkdaşlığa diqqət yüksəldilərək Azərbaycana dost olan dövlətlərin sayı artırıldı, ölkəmiz beynəlxalq tədbirlərin fəal iştirakçısına, hətta təşkilatçılarından birinə çevrildi;

* Ən böyük diqqət, vəsait və imkan ordu quruculuğuna, yeni metodla tərbiyələndirilmiş gənclər hesabına xüsusi təyinatlılar və Komando qüvvələrinin hazırlanmasına, ən yeni silahlarla təchiz edilmiş qüdrətli ordu yaradılmasına səfərbər olundu və möhtəşəm nəticə qazanıldı!

**Bütün bu uğur və nailiyyətlərin əsasında həm də cənab İlham Əliyevin Heydər Əliyev siyasi kursuna sədaqəti, Azərbaycan xalqını və dövlətini daim bu yolla qələbədən-qələbəyə aparması, xalqın möhkəm milli birliyini yaratması dururdu!**

❖ ❖ ❖

*İlham Əliyevin gərgin, çoxcəhətli, səmərəli, milli maraqları yüksək səviyyədə təmin edən və ölkə vətəndaşlarının sosial rifahını yüksəldən fəaliyyətindən məmnun qalan seçicilərin 93 faizdən çoxu 7 fevral 2024-cü ildə keçirilən növbədənkənar prezident seçkilərində yenidən ona səs verməklə növbəti dövrdə də ölkə rəhbəri seçdilər!*

**Cənab İlham Əliyev beşinci prezidentliyinə qalib dövlət başçısı, Müzəffər Ali Baş Komandan, ikiəsrlik Qarabağ münaqişəsini zəfərlə həll edərək xalqının ümummilli ideyasını gerçəkləşdirən rəhbər kimi qədəm qoydu!**

*Son 20 ilin ən mühüm və vacib məsələsi işğal altındakı torpaqları düşməndən təmizləmək, ölkənin ərazi bütövlüyünü və dövlət suverenliyini təmin etmək idi.*

**Cənab İlham Əliyev bunu böyük məharətlə, incə və uzaqgörən siyasət yürütməklə, "dəmir yumruğ"u ilə həll etdi!**

*Artıq yüz gününü başa çatdırdığınız yeni dövrdə qarşıda duran ən mühüm vəzifə isə otuzillik işğalın ağır nəticələrini aradan qaldırmaq, müasir tipli yeni yaşayış məntəqələri yaradaraq doğma torpaqlarından uzun müddət aralı düşmüş insanları tezliklə geriyə qaytarmaqdır!*

Yeni dünya nizamının formalaşması ilə bağlı gedən ağrılı proseslər, Cənubi Qafqaza məkrli oyunların və xəbis niyyətlərin yol tapması xarici siyasətə də mühüm diqqət yetirilməsini zəruri edir.

*Prezidentin fəaliyyətə başlamasının ilk yüz günündə hər iki istiqamətdə gərgin və səmərəli fəaliyyətin, uğurlu nəticələrin şahidi oluruq!*

❖ ❖ ❖

Cənab İlham Əliyev Azərbaycana beşinci rəhbərliyinə, eyni zamanda prezidentliyinin ilk yüz gününə andiçmə mərasimi ilə başladı.

**14 fevral 2024-cü ildə Milli Məclisdə keçirilən təntənəli inaqurasiya mərasimində söylədiyi proqram xarakterli çıxışında ötən iyirmi ildə görülən işlərə yekun vurmaqla yanaşı, yeni dövrün başlıca xüsusiyyətləri, qarşıdakı əsas hədəflər və yerinə yetiriləcək vəzifələr, habelə onlara çatmaq yolları barədə xalqa ətraflı məlumat verdi.**

Şübhəsiz, ötən dövrün başlıca yekunu və qarşıdakı zaman kəsiyində yerinə yetiriləsi vəzifələrin mahiyyəti yeni reallıqların yaranmasından - Azərbaycan xalqının milli ideyasının həyata keçirilərək ərazi bütövlüyünün və suverenliyinin bərpasından qaynaqlanır.

Cənab İlham Əliyev ilk növbədə prezidentliyinin iyirmi ili ərzində qazanılan uğur və nailiyyətlərin başlıca səbəbini qeyd etdi:

*"2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır".*

Dövlət başçısı daha sonra xalqın milli ideyasının gerçəkləşdirilməsinə toxundu:

*"Verdiyim vədlər arasında təbii ki, ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpası idi... Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".*

**Mövcud reallıqlar, yeni dövrün çağırışlarını və müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələri xatırladan cənab İlham Əliyev prezidentliyinin yeni dövründə görüləcək işlər, aparılacaq islahatlar və nəzərdə tutulan yeniliklər barədə də dolğun məlumat verdi:**

*"İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm".*

**Prezident İlham Əliyevin hazırkı dövr üçün müəyyən etdiyi yeni hədəfləri qısa şəkildə bir daha xatırladırıq:**

* Güclü Azərbaycan həmişə hədəfdə olub və bundan sonra da ölkənin iqtisadi qüdrətinin artırılmasına, siyasi nüfuzunun yüksəldilməsinə, dostlarının və müttəfiqlərinin sayının çoxalmasına xüsusi diqqət yetiriləcəkdir.

* Növbəti dövrdə də Silahlı Qüvvələr daim gücləndiriləcək, ən müasir silahlarla təmin ediləcək, müntəzəm şəkildə təlimlər keçiriləcək, bu məqsədlə büdcədən kifayət qədər vəsait ayrılacaqdır.

*Ardı 7-ci səh.*

# 21 İLİN 100 GÜNÜ





*Əvvəli 6-cı səh.*

* İşğaldan azad edilmiş torpaqlara keçmiş məcburi köçkünlərin tezliklə qaytarılması üçün Böyük Qayıdışa dair I Dövlət Proqramı qəbul olunaraq sürətlə reallaşdırılır. Odur ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilərək cənnətə çevrilməsi prosesi prioritet vəzifələr sırasında mühüm yer tutur.

* Milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq, möhkəm əqidəli və heç bir zərərli təsirlərə uymayan gənc nəslin yetişdirilməsi yenə diqqət mərkəzində dayanacaqdır. Bununla əlaqədar sağlam Azərbaycan ailəsinin qorunması da yeni hədəflər sırasındadır.

* Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellekt dövrün əsas çağırışlarındandır. Bu sahədə kadr hazırlığı aktual məsələlərdəndir.

* Qeyri-neft sektorunun inkişafı, "yaşıl enerji" istehsalı və ixracı aktual olaraq qalır.

* İdeoloji işin gücləndirilməsi, vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsinin müntəzəm aparılması diqqət mərkəzində olacaqdır.

* Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçiliyin təməl prinsiplərindən biri kimi müəyyənləşdirdiyi və gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilmiş azərbaycançılıq məfkurəsi də dövlətin böyük əhəmiyyət verdiyi vəzifələr sırasındadır.

* Yeni dövrdə Azərbaycanın xarici siyasəti yenə də aydın, açıq və fəal olmaqda davam edəcəkdir.

* Prezidentimizin müəyyənləşdirdiyi ən mühüm hədəflərdən biri Azərbaycanın yerinin türk dövlətləri ailəsində olmasıdır: "Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir".

**Cənab İlham Əliyevin yüzgünlük fəaliyyətində artıq bütün bu istiqamətlər üzrə səmərəli işlər görüldüyünün şahidiyik.**

❖ ❖ ❖

Əvvəlcə ötən 100 gün ərzində baş verən çoxsaylı hadisələrdən üçünü xüsusi vurğulamaq istərdik.

*Azərbaycan çox mühüm beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını keçirməyə hazırlaşır.*

Belə bir mühüm tədbirin ölkəmizdə keçirilməsi hər şeydən əvvəl Azərbaycanın yüksək beynəlxalq nüfuzunun, dünyadakı mövqeyinin və hörmətinin, habelə ekoloji təmizliyə və təbiətin zərərli tullantılardan qorunmasına verdiyi dəyərli töhfələrin nəticəsidir.

Dünya dövlətlərinin əksəriyyəti tədbirdə iştirak edəcəyini bildirir, ölkəmizə kömək və dəstəyini ifadə edir.

**COP29-a geniş və səmərəli hazırlıq işləri görülür, bu sahədəki təcrübə öyrənilir və tədbirin gedişində Azərbaycanın dünyaya təqdimi istiqamətində mühüm yeniliklərin olacağı, iştirakçıların sayında yeni rekorda imza atılacağı proqnozlaşdırılır.**

*İkinci mühüm hadisə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində baş verən irəliləyişdir.*

Artıq Azərbaycan vasitəçilərsiz, birbaşa danışıqlarla istəyinə nail olmuş, Almatı görüşündən sonra Ermənistan dörd kəndimizi qaytaracağını bildirərək hazırlıq işlərinə başlamış, sərhəddə delimitasiya və demarkasiya prosesinə start verilmişdir.

**Dövlət başçısı cənab İlham Əliyev Cənubi Qafqaza burun soxmağa, burada ikinci Ukrayna yaratmağa can atanlara sonuncu və qəti xəbərdarlığını etmişdir:**

**"Hamı bizimlə hesablaşmalıdır!"**

*Ən nəhayət, bütün bədbin proqnozlara rəğmən Rusiya sülhməramlı kontingenti də sülh və əmin-amanlıq şəraitində Qarabağı tərk etmişdir. Bu, iki dövlət başçısının yüksəksəviyyəli razılığı əsasında baş tutmuşdur!*

**Cənab İlham Əliyevin digər dediklərinin də həyata keçiriləcəyinə kimsədə şübhə yoxdur!**

**Nə dostlarda, nə də dost olmayanlarda!**

İndi isə Qarabağın, Şərqi Zəngəzurun cənnətə çevrilməsi və "yaşıl enerji" istehsalının nizama salınmasında məqsədyönlü, mütəşəkkil və sürətli işlər davam edir!

❖ ❖ ❖

*Azərbaycan Prezidenti cənab İlham Əliyev ənənəvi iş üslubuna sadiq qalaraq yenə də gərgin, sıx qrafiklə fəaliyyət göstərir, çoxsaylı qəbullar və görüşlər keçirir, səfərlərə çıxır, ölkə daxilində və beynəlxalq miqyasda baş tutan qlobal məsələlərə həsr olunmuş konfranslarda iştirak və çıxışlar edir.*

İlk yüz gündə görülən işlərin sayı o qədər çox və həcmi o qədər böyükdür ki, hər biri haqqında geniş danışmaq sadəcə mümkün deyil.

Odur ki, ən mühüm görüş, səfər, hadisələr və uğurlar barədə qısa faktları sadalamaqla kifayətlənəcəyik.

❖ ❖ ❖

Prezident İlham Əliyev ötən 100 gün müddətində dörd xarici səfər edib və bir sıra vacib görüşlər keçirib.

***16-17-fevral, Almaniyaya işgüzar səfər:**

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Münxendə İlham Əliyev və Nikol Paşinyan arasında görüş olub.

Münxendə Prezident İlham Əliyev qarşı tərəfin müraciətinə əsasən, ABŞ-nin Dövlət katibi Entoni Blinken, Ukrayna Prezidenti Volodimir Zelenski, İsrailin Prezidenti İsxak Hersoq ilə də görüşüb.

***18-19 fevral, Türkiyəyə rəsmi səfər:**

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb, iki ölkə arasında yeni mühüm sənədlər imzalanıb.

*** 25-26 fevral, Almaniyaya işgüzar səfər:**

Səfər zamanı İlham Əliyev Almaniyanın Kansleri Olaf Şolts ilə təkbətək görüş keçirib.

Prezident İlham Əliyev Berlində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib.

*** Aprelin 22-də Rusiyaya işgüzar səfər:**

Səfər zamanı İlham Əliyev Vladimir Putinlə görüşüb.

❖ ❖ ❖

**Bir sıra dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri isə Azərbaycanın qonağı olublar:**

* Martın 1-də Prezident İlham Əliyev Albaniya Prezidenti Bayram Beqayı qəbul edib.

* Martın 11-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Bakıya gəlib.

* Martın 12-də prezidentlər Füzuli və Şuşaya səfər ediblər.

Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər.

* Martın 16-da Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycana səfər edib.

* Martın 17-də NATO-nun Baş katibi Yens Stoltenberq Bakıya səfərə gəlib.

* Aprelin 4-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso Azərbaycana səfərə gəlib.

* Aprelin 24-25-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov ölkəmizə səfərə gəlib, prezidentlər Füzulidə, Ağdamda olublar.

* Mayın 7-də Slovakiya Respublikasının Baş naziri Robert Fitso Azərbaycana səfər edib.

* Mayın 8-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev Azərbaycana səfər edib.

* Mayın 16-da Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana səfər edib. Prezidentlər yeni sənədlər imzalayıb, həmçinin Füzulidə və Şuşada olublar.

* Mayın 19-da Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində görüşüb.

Sonra Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimi keçirilib.

"Xudafərin" və "Qız Qalası" hidroqovşaqları işə salınıb.

* Mayın 23-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ölkəmizə dövlət səfəri edib.

Prezidentlər arasında təkbətək və geniş tərkibdə görüş keçirilib, onlar mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlət başçıları "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə" və daha 6 mühüm sənəd imzalayıblar.

❖ ❖ ❖

**Bakıda bir sıra mühüm beynəlxalq konfranslar keçirilib, dövlət başçısı həmin tədbirlərdə iştirak və çıxış edib:**

* Martın 1-də Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası keçirilib.

Toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak ediblər. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir və bu il tədbirin 10 ili tamam olur.

* Martın 14-dən 16-dək Bakıda Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumu keçirilib.

XI Qlobal Bakı Forumuna bir çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 70-dən artıq ölkədən 350-dən çox qonaq iştirak edib.

*Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum keçirilib.

30 ölkədən 64 iştirakçının qatıldığı forumda Prezident İlham Əliyev diplomatların çoxsaylı suallarını cavablandırıb.

* Mayın 1-3-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Bakıdakı tədbirlər Ağdamda xüsusi sessiya ilə yekunlaşıb.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə təşkil olunub.

❖ ❖ ❖

*Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla icra olunmaqdadır.*

*Uzun illər boyu yurd həsrəti çəkənlər dövlət tərəfindən tikilib təmir olunmuş evlərə köçərək fərəh və sevinc dolu günlərini yaşamağa başlayırlar.*

**Dövlət başçısı İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə vaxtaşırı Qarabağa və Şərqi Zəngəzura səfərlər edir, bərpa və quruculuq işlərini şəxsi nəzarətində saxlayır, yeni yaşayış məntəqələrinin yeni sakinləri ilə görüşərək həmsöhbət olurlar.**

İNDİYƏDƏK:

**Laçın şəhərinə** - 62 ailə, 211 nəfər;

**Laçın rayonunun Zabux kəndinə** - 10 ailə, 26 nəfər;

**Füzuli şəhərinə** - 295 ailə, 1163 nəfər;

**Şuşa şəhərinə** - 58 ailə, 224 nəfər;

**Laçın rayonunun Sus kəndinə** - 20 ailə, 75 nəfər qayıtmışdır.

**Ötən yüz gündə ümumilikdə 17 köç baş tutmuş, 445 ailə (1699 nəfər) ata-baba torpaqlarına qayıtmışdır!**

**Diqqəti cəlb edən ən mühüm məqamlardan biri də odur ki, cənab İlham Əliyev budəfəki prezidentliyinə həm də regional və qlobal miqyasda baş verən proseslərə daha sərt və kəskin münasibətini açıq şəkildə nümayiş etdirməklə başlayıb.**

Xüsusən də Cənubi Qafqaza burun soxmaq istəyənlərə, bizə ağıl öyrətməyə can atanlara və ölkəmizə qarşı düşmən mövqe sərgiləyənlərə qarşı:

*"Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik"*, - deyə cənab İlham Əliyev Şuşadan məlum ünvanlara açıq mesajını verib!

Həm də özünəgüvəni açıq şəkildə ortaya qoymaqla:

*"Burada söz sahibi bizik. Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar, peşman olacaqlar".*

**Azərbaycanda dövlət səfərində olan Belarus Prezidenti Aleksandr Lukaşenko isə ölkəmizin və onun rəhbəri cənab İlham Əliyevin Qafqazdakı mövqeyi və missiyasının əsl mahiyyətini açıq mətnlə bəyan etdi:**

*"Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil. Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu, sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız".*

❖ ❖ ❖

Adətən təyyarə əvvəl yerdə sürət yığıb, sonra göyə qalxır.

**Müstəqil Azərbaycanımız da müasir, güclü, iti sürətli təyyarəyə bənzəyir.**

*O, nəzərdə tutduğu hədəfə müəyyən etdiyi saatda və dəqiqədə çatmaq, hətta bu zamanı qabaqlamaq imkanındadır.*

İyirmi il əvvəl qarşıya qoyduğu məqsədə uyğun yol xəritəsini dəqiqləşdirərək uzaq bir səfərə çıxmışdır.

Sürətini artıraraq qanadlarını geniş açmış, nəzərdə tutduğu bir çox hava limanına uğurlu "enişlər" etmişdir.

**Bu gün "Azərbaycan" adlı nəhəng təyyarə yenidən göyün ənginliklərinə yüksəlir.**

*Artıq onu yeni vəzifələr, yeni hədəflər, yeni "limanlar" gözləyir!*

**"Təyyarə"nin sükanı arxasında isə yenə də xalqın sevib seçdiyi, etimad və etibarını daim doğrultduğu müdrik, uzaqgörən və vədinə sadiq kapitan - əvəzolunmaz dövlət başçısı cənab İlham Əliyevdir!**

Sükan etibarlı əllərdədir!

*İnanırıq ki, bu "təyyarə" ötən 20 ildə və təhlilini verdiyimiz son yüz gündə olduğu kimi, qarşıdakı yeddi ildə də Azərbaycan xalqını arzularına, bəxtəvər günlərinə çatdıracaqdır!*

Yolun açıq və uğurlu, arzu və istəklərin çin olsun, doğma, qalib Azərbaycanımız!

**Bəxtiyar SADIQOV**

# 100 günün inkişaf və zəfər salnaməsi



# Tarixiləşən 100 gün

**Xalq tarixinə, dilinə, dininə, birliyinə, insan isə milli-mənəvi dəyərlərinə, ağlına, idrakına arxalananda güclü və qüvvətli olur. Son əsrimizin tarixi - Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər və cənab İlham Əliyevin Prezident olduğu dövr bunu bir daha təsdiqlədi.**

**Ümummilli Lider Heydər Əliyev respublikaya rəhbərliyə gəldiyi 1969-82-ci illərdə Azərbaycanı iqtisadi-mənəvi böhrandan xilas etdi, xalqa milli kimliyini dərk etdirdi. 1993-cü ildə ikinci dəfə xalqın tələbi və təkidi ilə hakimiyyətə gələrkən isə bir xilaskar kimi ölkəni parçalanmadan, vətəndaş müharibəsindən, ağır bəlalardan, daha genişmiqyaslı işğaldan, erməni təcavüzündən xilas etdi.**

O, əsrin müqaviləsini imzalamaqla, atəşkəsə zəmin yaratmaqla, torpaq islahatlarını, mühüm layihələri həyata keçirməklə iqtisadiyyatı dirçəltdi, insanların inamını özünə qaytardı, beynəlxalq əməkdaşlığı öz axarına saldı, siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə, mənəvi aləmdə nizam yaratdı, bugünkü inkişafımız üçün bir zəmin hazırladı.

Cənab İlham Əliyev isə Ulu Öndərimizin ideyalarına, vəsiyyətlərinə yeni bir məna verdi, uğurlu, düşünülmüş siyasi gedişləri ilə xalqımızın tarixinə heç vaxt unudulmayan, yaddan çıxmayan şanlı səhifələr yazdı və yazmaqda davam edir.

44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri Azərbaycanı dünyaya qalib, yenilməz, mübariz bir dövlət kimi təqdim etməklə dövlətimizə böyük inam qazandırdı, qələbəmizə yeni yollar açdı. Bu, düşünülmüş siyasətin, haqqın, ədalətin qələbəsi idi və cənab İlham Əliyev öz dövlətini ucaltmağı bacardı.

Hər iki halda - Ulu Öndərimizin hakimiyyətdə olduğu illərdə, istərsə də cənab İlham Əliyevin prezidentliyi dövründə qazanılan uğurlar bilavasitə xalqın birliyinin, həmrəyliyinin və bu böyük şəxsiyyətlərin xalqımızın tarixinə, dilinə, dininə, özlərinə olan inamın nəticəsi idi. Bütün hadisələrdə, gedişlərdə, uğurlarda xalq birliyi, vətəndaş həmrəyliyi və rəhbər müdrikliyi, təşkilatçılığı, iradəsi ön xətdə olub və qələbəmizi təmin edib.

Prezident İlham Əliyev andiçmə mərasimində bu baxımdan xalqın birliyinə çox yüksək qiymət verərək demişdir: "Biz 20 ildə çətin günlər yaşasaq da birliyimiz sayəsində uğurlara nail olmuşuq. Sözsüz ki, bu uğurlar önündə iqtisadi inkişaf, sosial rifah, ordumuzun möhkəmləndirilməsi durur".

Xalqın öz rəhbərinə, taleyinə, gələcəyinə inamı ən böyük güc və güvəndir. Cənab İlham Əliyev prezident olduğu 20 ildə xalqına, vətəninə, torpağına olan məhəbbəti və sədaqəti, düşmənə qarşı kəskin mübarizəsi və qazandığı uğurlar ilə bu inamı yarada bilib, xalqın ehtiramını və hörmətini qazanıb. Dövlətimizin rəhbəri bunu dəfələrlə bəyan edib və andiçmə mərasimində bir daha bildirib: "Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz heç kimin köməyi olmadan həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".

Bu, inkarolunmaz bir həqiqətdir, çünki Azərbaycan torpaqları 30 ildən çox erməni təcavüzünə məruz qalıb, şəhərlərimiz, kəndlərimiz talan edilib, insanlarımız qətlə yetirilib, təcavüzkarlar tərəfindən xalqımıza qarşı soyqırımlar həyata keçirilib, Vətən müharibəsinə qədər BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal etdikləri torpaqlardan qeyd-şərtsiz çıxması haqqında dörd qətnaməsinə, bir çox qərarlara, göstərişlərə əməl edilməyib, Ermənistan heç kimə, heç nəyə məhəl qoymayıb. Böyük dövlətlər, beynəlxalq təşkilatlar susdular, münaqişəyə ikili standartlardan yanaşdılar, Azərbaycanı deyil, əslində, təcavüzkar Ermənistanı müdafiə etdilər. Azərbaycanın taleyinə, xalqımın ağır vəziyyətinə acıyanlar az oldu, səsimizə çox ölkədən səs verilmədi.

"Taleyimizi özümüz həll etdik" bəyanatını səsləndirməklə dövlətimizin rəhbəri demokratiyadan, insan haqlarından, ədalətdən, ölkələrin suverenliyinə hörmətdən, təcavüzə, zülmə nifrətdən söz açan ölkələrin, beynəlxalq təşkilatların iç üzünü, riyakarlığını bir daha açıb göstərdi, dövlətimizin suverenliyinə qəsd etmək istəyənləri eyhamla xatırlatdı.

Prezidentlik dövründə Qarabağ torpaqlarının işğaldan azad edilməsi, separatçıların ərazilərimizdən birdəfəlik çıxarılması, viran qoyulan şəhər və kəndlərimizin bərpası, köçkünlərin yurd-yuvalarına qayıtması Prezidentimizin ali vəzifəsi olmuş və bu vəzifə bu gün də aktuallığını qoruyub saxlayır. Düşmən üzərində tarixi qələbədən sonra ölkəmizin rəhbəri birinci xanım Mehriban Əliyeva ilə işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər edir, abadlıq işlərinin gedişi ilə maraqlanır, lazımi tapşırıqlarını verir. Son illər ərazilərin bərpasına 7 milyard, o cümlədən bu il üçün 5 milyard manat dövlət vəsaitinin ayrılması görülən işlərin, quruculuq tədbirlərin əhatəsinin nə qədər geniş olduğunu aydın göstərir. Artıq Füzulidə, Zəngilanda, Şuşada, Laçında həyat canlanır, insanlar doğma yurdlarına köç edib məskunlaşırlar. İnsanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədbirlər gücləndirilir. İşğaldan azad olunmuş ərazilər, o cümlədən yaşayış məntəqələri mina və partlamamış hərbi sursatlardan təmizlənir. Azərbaycanın dünyada mövqelərini daha da möhkəmləndirmək, ölkəmizi Cənubi Qafqazda güc mərkəzinə çevirmək və regionda sülhün, əmin-amanlığın, əməkdaşlığın təminatçısı kimi şöhrətləndirmək, qarşıya qoyulan milli strateji hədəflərin reallaşmasını təmin etmək, işğaldan azad edilmiş ərazilərdə nümunəvi həyat şəraiti və iqtisadi mühit yaratmaq cənab İlham Əliyevin fəaliyyətinin ana xəttidir. Ölkə rəhbəri andiçmə mərasimində qarşıda duran vəzifələrin aliliyinə, möhtəşəmliyinə diqqəti cəlb edərək demişdi: "İndi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm".

Dövlət başçımız bu böyük nailiyyətlərin qazanılmasında yenə də xalqın birliyinə arxalanır, öz gücümüzə inamı diqqətə çatdırır və birlik, həmrəylik sayəsində bütün çətinliklərin aradan qaldırılacağına ümidvar olduğunu bildirir.

Cənab İlham Əliyevin 14 fevral tarixində andiçmə mərasimindən sonra prezident kimi səlahiyyətlərinin icrasına başladığı zamandan keçən 100 gün ərzində əldə olunan sevindirici nəticələr bu reallığı təsdiq edir. Bu günlər Azərbaycan Prezidenti üçün çox vacib və əhəmiyyətli, təxirəsalınmaz məsələlərin həlli baxımından yaddaqalandır. Cənab İlham Əliyev prezident seçildikdən sonra ənənəvi olaraq ilk səfərini qardaş Türkiyə Respublikasına etdi. Torpaqlarımız düşmən işğalı altında olan bütün illərdə bizimlə bir olan türk xalqını, Türkiyə dövlətinin rəhbərlərini salamladı, sevincini onlarla bölüşdü, gələcək planlar barədə fikir mübadilələri aparıldı, görüşlər keçirildi, O, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısına qatıldı.

Dövlətimizin başçısı andiçmə mərasimində səsləndirdiyi "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli faktora və güc mərkəzinə çevrilsin" fikirlərini zirvə toplantısında müxtəlif formalarda təkrarladı və bu təşkilatın gələcəyinə ümidlə baxdığını bildirdi.

Son yüz gün ərzində Azərbaycan Prezidentinin bir sıra ölkələrə səfərləri olub, həmçinin bir çox dövlətlərin siyasi xadimləri, nümayəndə heyətləri, ölkə rəhbərləri ilə görüşləri keçirilib. Keçirilən mötəbər görüşlərin, mühüm tədbirlərin, görülən uğurlu işlərin təşkilatçısı və istiqamətvericisi, əlbəttə ki, cənab İlham Əliyevdir. Bütün səfərlərin, tədbirlərin əsasında isə xalqımızın milli maraqları, iqtisadi inkişafımızın təmin edilməsi, dövlətimizin nüfuzu və dünyada tanıdılması durur. Ermənistanla sülh müqaviləsinin imzalanmasına nail olunması, sərhədlərimizin dəqiq müəyyənləşdirilməsi, dünyada əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsi, ölkələrin suverenliyinə hörmətlə yanaşılması cənab İlham Əliyevin fəaliyyətinin əsas istiqamətidir və bu xətt uğurla davam etdirilir.

Prezidentimiz beynəlxalq normalara əsaslanmaqla, reallıqları qiymətləndirməklə, dünyada baş verən hadisələri yaxından izləməklə vaxtında lazımi nəticələrə gəldiyi üçün dövlətimiz uğurlarını artırır və bu gün regionda əsas söz sahibidir. Dünyanın sülhsevər ictimaiyyəti Prezidentimizin sülh çağırışlarını rəğbətlə qarşılayır, regionda yaşayan insanlar onu dəstəkləyirlər.

Dövlətimizin rəhbəri Cənubi Qafqazda sülhün təminatçısı kimi çıxış edərək Fransanın, Avropa ittifaqının regiona yönəlmiş çirkin niyyətlərini cəsarətlə rədd edir, məkrli siyasətə qarşı yorulmadan mübarizə aparır və qətiyyətlə bildirir: "Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm". Həqiqətən də cənab İlham Əliyev sözünə, vədinə əməl edən rəhbərdir. O, "torpaqlarımızı azad edəcəyik, erməni faşistlərinin ayağını Qarabağdan kəsəcəyik, haqq-ədalət bərpa olunacaq, iqtisadiyyatımızı, xalqın rifahını yüksəldəcəyik, Qarabağı yenidən quracağıq, suverenliyimizə tam nail olacağıq, heç kimə baş əyməyəcəyik, Avropanın enerji təhlükəsizliyinə dəstək verəcəyik, ölkələrlə əməkdaşlığı möhkəmləndirəcəyik" mesajlarını verdi və sözünü imzası ilə təsdiq etdi.

Prezidentin seçkidən sonrakı 100 günlük fəaliyyəti çoxşaxəli, səmərəli və uğurludur. Türkiyəyə, Almaniyaya, Rusiyaya səfərləri zamanı dövlətimizin rəhbəri dünyanı və Azərbaycanı narahat edən bir çox qlobal problemi gündəmə gətirib və milli maraqlarımıza uyğun məsələlərin həllində sağlam münasibətlərin qurulmasına, əməkdaşlığın möhkəmləndirilməsinə, dövlətlərin suverenliyinə hörmət edilməsinə nail olub. Prezidentimiz 100 gün ərzində 100-dən çox mötəbər qonaqla - dövlət rəhbəri, baş nazir, beynəlxalq təşkilatların nümayəndəsi, görkəmli ictimai siyasi xadimlə görüşüb, 60-dan çox xarici ölkənin nümayəndə heyətini qəbul edib, 25 təməlqoyma və açılış mərasimində iştirak edib, mətbuata çoxsaylı müsahibələr və bəyanatlar verib. Yalnız Münxenə səfəri zamanı iki gün ərzində 24 görüş keçirməsi ölkə rəhbərinin iş qrafikinin nə qədər sıx və gərgin olduğunu göstərir.

Cənab Prezidentin son 100 günlük fəaliyyəti bir daha göstərir ki, o Heydər Əliyevin bəşəri ideyalarına sadiqdir, daim xalqı ilə birdir. İnsanların rifah halının yaxşılaşdırılması, ölkənin müdafiə qüdrətinin yüksəldilməsi, ordunun gücləndirilməsi rəhbərimizin ali məqsədidir. Rəhbər daimi olaraq işğaldan azad olunmuş kəndlərimizdə, şəhərlərimizdə görülən işləri nəzarətdə saxlayır, yeni obyektlərin açılışını edir, bir çoxlarının təməlini qoyur, insanlarla görüşür, xarici qonaqların, səhmdarların diqqətini Qarabağa yönəldir və xalqımızın niyyətini dünyaya bəyan etməklə yeni uğurlara, perspektivlərə yollar açır. Bu yollar bəşəriyyətin azadlıq mübarizəsindən, dünyada haqqın-ədalətin bərpa edilməsindən, ciddi qlobal problem olan iqlim dəyişikliklərinin qarşısının alınması istiqamətində ardıcıl siyasətin aparılmasından, ətraf mühitin qorunmasına münasibətin genişləndirilməsindən, COP29 kimi əhəmiyyətli tədbirlərə daim dəstək verməsindən keçir.

Cənab İlham Əliyev ölkələri azad, xalqları xoşbəxt, insanları firavan görmək üçün səylərini əsirgəməyən, bəşəriyyətin qayğıları ilə yaşayan və dünyaya daim sülh çağırışları edən bir dövlət rəhbəri, siyasi liderdir. Prezidentimizin əlamətdar hadisələrlə, səfərlərlə, görüşlərlə, danışıqlarla tarixiləşən və xalqımızın xoşbəxt gələcəyinə xidmət edən, prezident seçildikdən sonra keçən 100 günlük fəaliyyəti buna parlaq nümunədir.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***



# Dövlət və millət həyatının yeni erası

**2024-cü il dünya miqyasında 78 ölkədən 83 milli seçkilərin keçirilməsi ilə indiyə qədərki dövrlərdən fərqləndiyini göstərdi. Azərbaycan da məhz bu qlobal tendensiyaları nəzərə alaraq dövlət və millət həyatını yeni erada gördü.**

**Əslində, Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən siyasət bir ölkə və millət çərçivəsinə sığmırdı. Biz bunu regionüstü xarakterdə qəbul etməliyik.**

Qarabağ məsələsi heç vaxt yalnız iki dövlət arasında konflikt xarakteri daşımayıb. İndiki halda Qafqazlardan başlayan prosesin dünya çapında necə yayıldığını gördük.

Vətən müharibəsi qeyri-rəsmi, elan olunmamış bir seçkilər prosesi idi. Əgər xalq birinci şəxsə, öz liderinə etibar etməsə, nə xalqın səfərbərliyi baş verər, nə də savaş qazanılar. Yalnız silahlı qüvvələr vasitəsilə hərbi meydanlarda uğur qazanmaq olmur. Digər tərəfdən nəzərə almalıyıq ki, ötən illər ərzində Azərbaycan Ordusunun gücü, hərbi arsenalı təkmilləşdirilib. Ona görə də son 4 ilə yaxın zaman arealına təqvimimizin bizə faciələri unutduran, əcdadlarımızdan miras qalan ağrıları ortadan qaldıran dövr kimi yanaşırıq. Necə ki, müsəlman aləminin özünəməxsus təqvimi var, bu da bizim üçün uğur, qələbə olmaqla yanaşı, fərqli siyasi eranın başlanğıcı idi. Yalnız 44 günlük savaş deyil, sorakı dövrdə Laçında nəzarət-buraxılış məntəqəsinin açılması, Laçın yolunda etirazçıların keçirdiyi dinc aksiya, sonda Xankəndi üzərində suverenliyimizin bərqərar olması ilə Azərbaycan ilk dəfə konstitusion milli iradəsini gerçəkləşdirə bildi.

Prezident seçkilərinin müəyyən qədər irəli çəkilməsi bir tərəfdən də bu bütövlüyümüzün diktəsi idi. 1991-ci ildə azadlığımıza qovuşanda faktiki olaraq coğrafi tamlığı yaşamırdıq. Bu, yalnız ərazi deyil, həm də mənəvi, siyasi məsələ idi. Ona görə də ölkə rəhbərinin bu çağırışı millətimiz tərəfindən alqışla, anlayışla qarşılandı. 7 fevral prosesi özlüyündə yalnız hansısa namizədlər arasında siyasi mübarizənin bir turu kimi görünmədi, həm də bütövlükdə bir millət paradına çevrildi. İnsanlar əvvəlki dövrlərdə bəlkə də müxtəlif səbəblərdən seçki məntəqələrinə getməmişdisə, bu seçkilərdə hər kəs öz iradəsini ifadə edəcəyini vurğulayırdı. Bunun seçkidən daha üst məna daşıdığı görünməkdə idi.

Ötən 100 gün ərzində Azərbaycan həyatı da kifayət qədər dinamik və mühüm hadisələrlə zəngin olub. Bir tərəfdən, Azərbaycan-Ermənistan müharibəsindən sonrakı qalibiyyətimizi delimitasiya və demarkasiyaya qədər daşımışıq. Eyni zamanda Qarabağ coğrafiyasından xeyli uzaqda yerləşən 4 kəndin geri qaytarılması 100 günün ən parlaq siyasi, mənəvi, hərbi, milli hadisəsidir. İkinci tərəfdən, ölkə rəhbərinin ilk rəsmi səfərinin Türkiyəyə olması, bu səfər çərçivəsində keçirilmiş qarşılıqlı görüşlər Azərbaycanın xarici siyasətində yenə qardaş ölkənin və onun liderinin müstəsna yerinin olduğunu göstərdi. Hər iki dövlət başçısının regional proseslərdə vahid mövqeyi artıq bizə qarşı müxtəlif planlarını, təzyiqlərini yönəltməyə çalışan dairələrin də maraqlarına zərbə vurdu. Üçüncüsü, ölkəmiz bu müddətdə mühüm tədbirlərə evsahibliyi edib. Bu zaman ərzində Rusiya sülhməramlılarının Qarabağı dinc formada tərk etməsi gerçəkləşib. Tarixdə bunun bənzəri yoxdur. Hesab edirəm ki, İlham Əliyevin siyasi sərkərdəliyi yalnız Azərbaycan xalqı üçün deyil, Qafqaz və subregion üçün də məna daşıyır.

Azərbaycanın Fransa və digər dövlətlərin timsalında təsirlərinə, təzyiqlərinə cavab verməsi də 100 günün - yeni dövrün xüsusi mərhələsi kimi xarakterizə oluna bilər. Bundan başqa, bu il COP29 kimi mühüm tədbirə evsahibliyi edəcəyik. Bu, indiyə qədərki heç bir tədbirlə müqayisə oluna bilməz. O mənada ki, iqtisadiyyatımız, ekologiya, alternativ enerji sektoru, biznes strukturlarının xaricə açılması baxımından misli görünməmiş hadisədir, fürsətdir. Əminəm ki, dövlətimiz, xalqımız bunu yüksək dəyərləndirəcək.

Bir sözlə, dövlət başçısının siyasi qərarları, addımları kifayət qədər dinamik və çevikdir. 10 may tarixində Prezidentin azad olunmuş torpaqlara növbəti sistemli səfəri artıq o məkanın həm də siyasi paytaxt olması kimi dəyərləndirilir. Bütün dövlət rəhbərlərinin ölkəmizə gəlişində dövlət başçımızla həmin ərazilərə səfəri İlham Əliyev protokoludur. Bu yalnız dövlət siyasəti, hansısa xarici ölkə rəhbərinə görə uyğunlaşdırılmış hadisə deyil, Azərbaycan dövlətinin və onun rəhbərinin iradəsidir. Müqəddəs məkan olan Şuşaya ilk köçənlərin qayıdışını qeyd etmək, onlara xeyir-dua vermək, tariximizi bir daha göz önünə gətirmək, gələcəklə bağlı çağırışlar etmək, ayrı-ayrı dövlətlərin hücumunun siyasi informativ baxımdan qarşısını almaq, o cümlədən yeni açılışlar, təməlqoyma mərasimləri Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir. "Xarıbülbül" festivalı, mədəni diplomatiyamızın ən ayrılmaz hissəsinə çevrilən addımların atılması bir daha göstərir ki, İlham Əliyevin liderliyi Azərbaycan xalqının qızıl dövrüdür. Ölkə rəhbərinin bütün hakimiyyət orqanları qarşısında qoyduğu əsas tələb vətəndaş maraqlarının təmin olunmasıdır. Yəni hərbi meydandakı zəfərimizi sosial, təhsil, səhiyyə və digər bütün sahələrə daşımaq lazımdır. Prezidentin baxışları, kursu, tələbləri, seçdiyi yol xəritəsi, strategiya bundan ibarətdir. Azərbaycan xalqı öz liderinin rəhbərliyi altında bundan sonra da böyük qələbələrə nail olacaq. Biz zəfər ölkəsi, zəfər xalqıyıq. Bu Zirvə hərəkatı daha da irəliyə gedəcək.

**Zahid ORUC,**
***Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri***

# 100 günün inkişaf və zəfər salnaməsi



# Qələbə strategiyası



**Azərbaycan tarixinə bir çox şərəfli və qürurverici səhifə yazan xalq lideri, Prezident İlham Əliyev həm də siyasi gedişləri ilə çoxqütblü dünyaya politoloji dərs keçir. Xankəndidə Azərbaycan bayrağının dalğalanmasından sonra növbədənkənar prezident seçkiləri elan etməklə həm də müstəqillik dövrümüzdə ilk dəfə bütöv Azərbaycan ərazisində ilk seçkinin də müəllifi oldu.**

Bu il fevralın 7-də Azərbaycan xalqı növbəti dəfə xoşbəxt gələcəyə, iqtisadi inkişafa, sabitliyə - qüdrətli Azərbaycan dövlətinə səs verdi. 7 fevral seçkilərinin nəticələri, yəni İlham Əliyevin mütləq şəkildə qələbəsi bu gün lidersizlik böhranında olan bir çox Qərb dövləti üçün də örnək sayılmalıdır.

Bu prezident seçkiləri bütöv Azərbaycan ərazisində keçirilən ilk seçki olmaqla yanaşı, həm də ölkəmizdən dünyaya lider-xalq birliyinin mesajı oldu. Seçicilərin yüksək fəallığı və onların əksəriyyətinin Prezident İlham Əliyevə səs verməsi dövlət başçımızın 2003-cü ildə respublikaya rəhbərlik etdiyi vaxtdan bəri apardığı siyasətə güclü dəstəyini nümayiş etdirdi. Bu həm də Azərbaycan xalqının onu doğru yoldan döndərmək cəhdlərini qəbul etmədiyinin sübutu oldu. Eyni zamanda ölkənin inkişaf prosesini uğurla davam etdirmək, eləcə də bütün müasir çağırışlara adekvat cavab vermək üçün qarşıdakı dövrdə cəmiyyətin bütün kateqoriyalarının ölkənin siyasi rəhbərliyi ətrafında sıx birləşmələrinin zəruriliyini göstərdi.

Əlbəttə, xalqının böyük əksəriyyətinin dəstəyini almış Prezident İlham Əliyevin 3 aydan artıq vaxtı əhatə edən fəaliyyətində görülən işlər Azərbaycanın davamlı inkişafının artmasına və qüdrətinin güclənməsinə imkan verib. Ötən müddət ərzində Azərbaycan dövlət başçısının rəhbərliyi ilə ardıcıl olaraq həm siyasi meydanda, həm diplomatik müstəvidə, həm də informasiya məkanında möhtəşəm uğurlara imza atıb. Azərbaycanın Birinci Qarabağ müharibəsindən bəri Ermənistanın işğalı altında olan Qazax rayonunun anklav olmayan dörd kəndinin ərazilərini öz yurisdiksiyasına qaytarması, özü də buna bir güllə atmadan nail olunması İlham Əliyev diplomatiyasının parlaq qələbəsidir.

Ümumiyyətlə, bu dörd kənddən danışarkən qeyd etmək lazımdır ki, dövlətimizin başçısı İlham Əliyev onların 2020-ci ildə geri qaytarılması məsələsini qaldırmışdı. Məhz buna görə də bu istiqamətdə davamlı intensiv iş aparılmışdı. Bu gün həmin kəndlərin Azərbaycanın nəzarətinə qayıtması bir daha sübut edir ki, Prezident İlham Əliyev qarşısına qoyduğu bütün vəzifələri yerinə yetirən, sözü ilə əməli üst-üstə düşən liderdir. Ötən müddətdə qazandığımız uğurların altında məhz Prezidentimizin imzası var.

Azərbaycan bu gün dünyanı narahat edən məsələlərin müzakirə olunduğu mərkəz kimi də tanınır. Buna görə də, təsadüfi deyil ki, ötən yüz gün ərzində ölkəmiz yenə də dünyanın diqqət mərkəzində oldu. Bəşəriyyəti narahat edən qlobal problemlərin paytaxtımızda keçirilən və sayca 11-ci olan Qlobal Bakı Forumunda müzakirə olunması qarışıq dünyada sabitlik adasına çevrilmiş Azərbaycanın artan nüfuzunu nümayiş etdirdi.

Prezident İlham Əliyevin şəxsi nüfuzu, onun müdrik siyasəti sayəsində Azərbaycan bu gün beynəlxalq prosesləri istiqamətləndirən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz mövqeyi ilə seçilən ölkəyə çevrilib. Regionda, eləcə də daha geniş coğrafiyada sabitləşdirici rol oynayan Azərbaycan bir çox ölkənin iqtisadi inkişafına, enerji təhlükəsizliyinə töhfə verməklə yanaşı, eyni zamanda qlobal miqyasda ədalətin carçısı, bəzi böyük dövlətlərin ədalətsiz davranışına və müstəmləkə siyasətinə qarşı çıxan xalqların azadlıq mübarizəsinə dəstək verən qüvvə kimi də tanınır və hörmət edilir.

Bir sözlə, ötən yüz gün Azərbaycan xalqının öz seçimində yanılmadığını bir daha sübut etdi. İstər daxili, istərsə xarici siyasətdə uğurları ard-arda sıralayan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan beynəlxalq münasibətlərin önəmli aktoru kimi qiymətləndirilir. İqtisadi və sosial inkişaf uğurla davam edir, xalqın rifahı yüksəlir, ölkəmiz dünya kapitalı üçün cəlbedici məkana çevrilir.

2003-cü il 15 oktyabrda Ümummilli Lider Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı kimi taleyini İlham Əliyevə etibar etməklə tarixinə şərəfli zəfər yazan xalqımız 7 fevral seçkilərində qlobal arenada qüdrəti və gücü ilə öz möhürünü vuran dövlət quruculuğuna davam dedi. Bu, Prezident İlham Əliyevlə qələbələrə və zəfərə aparan yoldur.

**Rəşad MAHMUDOV,**
***Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini***

# İlham Əliyev yolu

**Bu gün İlham Əliyevin yeni müddətə prezidentlik səlahiyyətlərinə başlamasının 100-cü günü tamam olur. 100 gün dövlət başçısının özünü təsdiq etməsi baxımından, əslində, çox qısa müddətdir. Lakin Prezident İlham Əliyevin fəaliyyətinin ötən 100 günü Azərbaycanın tarixində olduqca möhtəşəm hadisələrlə əlamətdardır.**

Xüsusən Vətən müharibəsindəki zəfərimiz və ərazi bütövlüyümüzün bərpa olunması ilə əlaqəli olan mühüm hadisələrin ötən 100 günə təsadüf etməsi cənab İlham Əliyevin prezident kimi yeni səlahiyyət dövrünün milli maraqlarımızın təmin olunması baxımından hər birimizdə fərəh doğuran hadisələrlə başlandığını göstərir. Bütün bunlar isə Prezident İlham Əliyevin fəaliyyətinin qiymətləndirilməsi baxımından vacib amillərdir.

Öncə onu qeyd edim ki, bu il fevral ayının 7-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri həm də buna qədər Azərbaycanda keçirilmiş bütün seçkilərdən xüsusi bir özünəməxsusluğu ilə fərqlənirdi. İlk növbədə ona görə ki, bu seçki respublikamızın müasir müstəqilliyi dövründə ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi bir şəraitdə keçirilən ümumxalq səsverməsi idi. Azərbaycanın müstəqilliyi dövründə ilk dəfə olaraq Xankəndidə, Şuşada keçirilən növbədənkənar prezident seçkiləri tarixə düşdü. Qarabağ və Şərqi Zəngəzurda yaradılmış seçki məntəqələrində isə seçicilərin 100 faizi bu ərazilərin azad olunmasının müəllifi olan İlham Əliyevə səs verdilər. Ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində səs verən cənab İlham Əliyevin seçki qutusuna atdığı bülleten isə, özünün dediyi kimi, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

Cənab İlham Əliyevin prezident seçkilərindəki qalibiyyətinin təməlində Azərbaycanın 2003-2023-cü illər ərzində bütün hədəflərinə çatması və strateji məqsədlərə tam nail olunması kimi ciddi amillər dayanır. Ölkə vətəndaşları bu seçkidə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən alternativsiz siyasi kursun ətrafında bir daha səfərbər olaraq, indiyədək əldə edilmiş nailiyyətlərin qədəm qoyduğumuz yeni inkişaf mərhələsində də davam etdirilməsinə səs verdilər. Ən əsası, İlham Əliyevi yenidən özünə prezident seçməklə xalqımız həm də növbəti uğurlarına etibarlı təminat aldı.

Fevral ayının 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev Azərbaycanın yeni dövr üzrə prioritetlərini bəyan etdi. Dövlət başçısı qarşıda dayanan əsas milli vəzifələrə nəzər yetirməklə, respublikamızın təhlükəsizliyinin və müdafiə imkanlarının daha da möhkəmləndirilməsi, işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, texnoloji yeniliklərə diqqət yetirilməsi, milli-mənəvi dəyərlərə sadiq gənc nəslin yetişdirilməsi, azərbaycançılıq məfkurəsinin gücləndirilməsi və digər ümdə vəzifələrdən danışdı, xarici siyasət istiqamətində yeni üfüqlərin açılması zərurətini vurğuladı. Bu vəzifələrin hamısının Azərbaycanın daha güclü dövlətə çevrilməsinə, xalqımızın sosial rifahının daha da gücləndirilməsinə hesablandığını söylədi.

Beləliklə, Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi, torpaqlarımızın işğaldan azad olunması və Qarabağda erməni separatizminə son qoyulması ilə xalqımızın ən böyük arzularının ifadəsi olan tarixi bir missiya layiqincə başa çatdırıldı. Növbədənkənar prezident seçkiləri isə Azərbaycanda yeni tarixi mərhələnin başlanğıcı oldu. Cənab İlham Əliyevin prezident kimi səlahiyyətlərinə başlamasından sonra ötən dövrün reallıqları göstərir ki, Azərbaycan yeni dövrə yeni qələbələrlə daxil olur.

Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı kimi milli vəzifələr İlham Əliyevin növbəti prezidentlik müddətinin əsas hədəfləridir. Təsadüfi deyil ki, məcburi köçkünlərin doğma yurd-yuvalarına, o cümlədən ilk dəfə olaraq Şuşaya və Laçının Sus kəndinə qayıdışı, yeni kəndlərin və infrastrukturların təməlinin qoyulması Prezident İlham Əliyevin fəaliyyətinin ötən 100 gününün əsas diqqətçəkən məqamlarından biridir. Bu da ondan xəbər verir ki, qarşıdakı dövrdə də Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq, Böyük qayıdış proqramı sürətlə davam etdiriləcək.

Cənab İlham Əliyevin növbəti prezidentlik müddətinin ilk 100 gününün əsas hadisələrindən biri də Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməsi oldu. Məlum olduğu kimi, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, bir vaxtlar separatçıların mövcud olduğu ərazilərimizdə Rusiyanın sülhməramlıları yerləşdirilmişdi. Lakin 2023-cü ilin sentyabr ayında Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Qarabağ iqtisadi rayonu ərazisində Azərbaycanın milli suverenliyi təmin olunduqdan sonra yeni reallıqlar yaranmışdı. İlham Əlliyevin müəllifi olduğu bu reallıqların nəticəsi olaraq Rusiya sülhməramlıları ölkəmizi tərk etdi. Prezident İlham Əliyevin nüfuzlu və qətiyyətli siyasi lider olması, ölkəmizin milli mənafelərini hər zaman qətiyyətlə təmin etməsi, Azərbaycanın isə tam müstəqil siyasət həyata keçirməsi Rusiya sülhməramlılarının ölkəmizi tərk etməsinin fonunda özünün növbəti təsdiqini tapan həqiqətlər oldu. Eyni zamanda bu həqiqətlər rus sülhməramlılarının Azərbaycanı tərk etməyəcəyini iddia edən bütün antiazərbaycançı ünsürlərin arzularını ürəklərində qoydu.

Prezident İlham Əliyevin andiçmədən sonra ötən 100 günlük fəaliyyətinin digər tarixi uğurları Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası prosesinin başlanması və Qazax rayonunun işğal altındakı Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin azad edilməsidir. Bu diplomatik uğurların hər biri Vətən müharibəsinin başa çatmasından və ərazilərimizdə erməni separatizminə son qoyulmasından sonra Azərbaycanın növbəti qələbəsinə və cənab İlham Əliyevin yeni müddətə prezidentlik səlahiyyətinin əsas hadisələrinə çevrildi. Bununla həm də Azərbaycanın guya Ermənistana hücum edəcəyi ilə bağlı Qərb siyasi dairələrinin neçə müddətdir ki, ölkəmizə qarşı apardığı qarayaxma kampaniyasını İlham Əliyev darmadağın etdi. Göründüyü kimi, Qərb siyasi mərkəzləri nə qədər uzaq olsalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq o qədər tez bərqərar olacaq.

Prezident İlham Əliyevin andiçməsindən ötən 100 günün reallıqları göstərir ki, xalqımızın və dövlətimizin həyatında yeni və parlaq dövr başlayıb. Bu dövrdə də Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx səfərbər olur, dövlətimizin maraqlarına əsaslanan və güclü ideoloji təməli olan siyasi kurs ardıcıl və qətiyyətli şəkildə davam etdirilir və bütün milli vəzifələr layiqincə yerinə yetirilir. İnamla deyə bilərik ki, ötən 20 ildə formalaşmış zəngin dövlətçilik təcrübəsinin, xüsusən ərazi bütövlüyümüzün bərpası və Qarabağda erməni separatizminə son qoyulması kimi tarixi nailiyyətlərimizin fonunda yeni mərhələdə qarşımızda dayanan hədəflərə çatmağımız üçün heç bir maneə yoxdur.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

# Prezident xalqımızın qəlbini bir daha fəth etdi

**Mayın 24-də İlham Əliyevin prezident kimi səlahiyyətlərinin icrasına başlamasının 100-cü günü tamam olur. Özünün qələbələrlə nəticələnən fəaliyyətini min illərin tarixinə yazmış İlham Əliyev Azərbaycanda sabitliyin və təhlükəsizliyin qarantı, inkişafın stimulyatorudur.**

Elə ötən 100 gün ərzində də bunu sübuta yetirən Prezident İlham Əliyev bu günlərin əksər hissəsində fəaliyyətini işğaldan azad olunmuş zonalarda davam etdirib. Orta Asiya ölkələrinin - Qazaxıstanın, Özbəkistanın və Qırğızıstanın ölkə rəhbərlərini, eləcə də Belarus Prezidentini də orada qarşılayıb.

Bu gün bütün dünya ölkəmizdə sürətlə davam etdirilən dinc quruculuq işlərindən, dövlət başçımızın Azərbaycanın inkişafının və dövlət müstəqilliyinin möhkəmləndirilməsi məsələsini diqqətdə saxladığından xəbərdardır. Ona görə də bəzən bizimlə hədələyici tonla danışmağa cəhd göstərmək istəyən bəzi böyük qüvvələr İlham Əliyevin nüfuzu qarşısında geri çəkilməli olurlar. Prezident İlham Əliyevin Azərbaycanda başlatdığı möhtəşəm işlər bu gün dünya üçün örnək rolunu oynayır.

100 günün ən böyük uğurlarından biri də, əlbəttə, Qazaxın dörd kəndinin Prezident İlham Əliyevin tələbi ilə qansız-qadasız geri qaytarılmasıdır. Bu özü elə 100 günə deyil, 100 ilə sığacaq böyük nailiyyətdir və tarixi uğurlarımızın davamıdır. Təsadüfi deyil ki, ard-arda qazandığımız bu zəfərlər sayəsində regionda Azərbaycanı Qafqazda əsas dövlətə çevirən İlham Əliyevlə hesablaşırlar. İndi hər bir dövlət anlayır ki, Cənubi Qafqazda Azərbaycanın razılığı olmadan heç bir işə başlamaq mümkün deyil.

Danılmaz faktdır ki, bu gün Azərbaycan İlham Əliyevin sayəsində beynəlxalq meydana çevrilib. Ölkəmizdə xeyli qlobal tədbirlər keçirilir, Bakı artıq hər il əhəmiyyətli beynəlxalq tədbirlərə evsahibliyi edir. Bu ilin noyabrında da Azərbaycanda COP29 kimi nəhəng qlobal tədbir təşkil olunacaq. Bu bir daha İlham Əliyevin ölkəmizdə sabitliyi və təhlükəsizliyi təmin etdiyini təsdiqləyir. Bütün bunları nəzərə alaraq, hər birimiz Azərbaycan dövlətinin mənafeyi naminə Prezident İlham Əliyevin ətrafında sıx birləşməli və həmrəyliyimizi daim qoruyub saxlamalıyıq.

Son olaraq qeyd etmək istəyirəm ki, Heydər Əliyev ideyalarının və irsinin əsas davamçısı olan Azərbaycan Prezidenti İlham Əliyev hər zaman olduğu kimi, son 100 gündə də yürütdüyü qətiyyətli və prinsipial siyasəti ilə bütün dünyaya örnək olmaqla yanaşı, yeni uğurlara imza atmaqla Azərbaycan xalqının qəlbini bir daha fəth etdi.

Dövlətimizin başçısına növbəti aylarda və illərdə də yeni zəfərlərə doğru xalqımızla birgə inamla addımlamağı arzu edirəm.

**Tahir KƏRİMLİ,**
***Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı***

# 100 günün inkişaf və zəfər salnaməsi



# Davamlı uğurlar mərhələsi

**Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 ildən çox müddət ərzində müstəqil Azərbaycan dövləti davamlı olaraq inkişaf edir, möhtəşəm nailiyyətlər qazanır, regionda güc mərkəzinə çevrilib. Əldə edilən uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradıb. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib.**



Əminliklə demək olar ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin yüksəlişlə müşayiət olunan ən qüdrətli dövrünü yaşayır. Prezident İlham Əliyevin fəaliyyətinin zirvəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyimizin tam bərpası dayanır. Bu tarixi nailiyyətə məhz xalqımızın birliyi və dövlət başçısına sonsuz inam sayəsində nail olunub. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə müasir tariximizdə yeni mərhələnin əsası qoyulub.

Bu il fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkiləri yeni dövrün başlanğıcının ifadəsi idi. Prezident seçkilərində xalqımız öz iradəsini ifadə edərək cənab İlham Əliyevə inam və etimadını bir daha təsdiqlədi. Tariximizə Zəfər seçkisi kimi düşən bu seçkilərin qalibi Müzəffər Ali Baş Komandan, xalqımıza Zəfər sevinci yaşadan qalib lider İlham Əliyev oldu. Prezident İlham Əliyev fevralın 14-də andiçmə mərasimində çıxışı zamanı qarşıda dayanan vəzifələr və hədəflərdən ətraflı bəhs etdi.

Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan hər bir sahədə böyük uğurlar əldə edib. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsinə çevrilib. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirib. Bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Azərbaycanın dinamik inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal mərkəzə çevirməkdədir.

İlk növbədə siyasi sahədə qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini respublikamıza yönəldə bilib. Bunun ən böyük təsdiqi 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi olub. Həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Eləcə də dünya birliyinin BMT-nin ən genişmiqyaslı tədbirlərindən sayılan COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməsi də beynəlxalq səviyyədə ölkəmizə inamın artmasının daha bir ifadəsidir. Azərbaycan mühüm ekoloji çağırışların, "yaşıl enerji" gündəliyinin müzakirə olunacağı bu tədbirə də yüksək səviyyədə evsahibliyi etmək əzmindədir. Bütün bunlar onu təsdiqləyir ki, Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir dövlətdir. Azərbaycan beynəlxalq birliyin müstəqil üzvü kimi öz mənafelərini qarşılıqlı hörmət prinsipi çərçivəsində həyata keçirir. Bu isə Azərbaycanın müstəqil inkişafını təmin etməklə yanaşı, öz gücünə inamını, eləcə də ölkəmizə olan etimadı artırır.

Cənab İlham Əliyevin son seçkilərdən sonra Prezident kimi səlahiyyətinin icrasına başlamasının 100 günü tamam olur. Bu müddət ərzində cənab Prezident milli maraqlarımıza əsaslanan siyasətini qətiyyətlə davam etdirib. Sözügedən dövr ərzində də əsas amil Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasıdır. Aprelin 19-da Qazax rayonu istiqamətində sərhədlərin müəyyənləşdirilməsi istiqamətində tərəflər arasında razılığın əldə olunması, Qazaxın erməni işğalı altında olan 4 kəndinin dinc yolla geri qaytarılması növbəti zəfərlərimiz sırasındadır. Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin ərazilərimizdən çıxarılması, işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin geniş vüsət alması, Şuşa şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışına başlanılması və digər önəmli hadisələr cənab Prezidentin 100 gününün möhtəşəm uğurlarıdır.

Yeni dövrdə xarici siyasətimizin əsas prioritetlərindən biri türk dünyasına inteqrasiyanın dərinləşdirilməsi olacaq. Bununla bağlı Prezident İlham Əliyev andiçmə mərasimində çıxışı zamanı deyib: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

Dövlətimizin başçısı bu dövrdə bir sıra xarici səfərlərdə olub, beynəlxalq tədbirlərdə iştirak edib ki, bu da ölkəmizin beynəlxalq əlaqələrinin daha da güclənməsində müstəsna əhəmiyyət kəsb edir. Beləliklə, xalqımız və dövlətimiz yeni dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə yeni-yeni zəfərlərə imza atacaq!

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

# Yeni tarixi mərhələnin başlanğıcı

**Bu il fevralın 7-də keçirilən prezident seçkilərində Azərbaycan xalqı yekdilliklə cənab İlham Əliyevi dəstəklədi. Bu, seçkilərdən daha çox xalqın öz liderinə minnətdarlığını ifadə etmə imkanı kimi qiymətləndirilə bilər.**

Azərbaycan xalqı torpaqlarımızın erməni işğalından azad olunacağı günü həsrətlə gözləyirdi. 2020-ci ilin sentyabr-noyabrında Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı 44 gün ərzində erməni işğalından azad etdi. Azərbaycan dövlətinin ərazi bütövlüyünü təmin etməsi istiqamətində çoxvektorlu addımları haqqında aydın təsəvvürlər mövcud idi. 2020-ci ilə qədər Prezident dünyanın ən mötəbər tribunalarından çağırış edirdi ki, Ermənistana təzyiqlər olunsun və o, Azərbaycan torpaqlarından geri çəkilsin. Lakin gözlədiyimiz nəticəni görmürdük. Belə olan halda hərbi yolla ərazilərimizi işğaldan azad etdik. Bununla İlham Əliyev həm də Azərbaycan dövlətini, xalqını qalib kimi dünyaya tanıtdı. Dünya gördü ki, Azərbaycan dövlətinin hərbi gücü ölkənin ərazi bütövlüyünü bərpa etməyə imkan verir. Buna baxmayaraq, biz uzun illər keçmiş münaqişənin dinc yolla aradan qaldırılmasına çalışırdıq. Çünki biz sülhsevər xalqıq, regionda təhlükəsizlik məsələsinə hər zaman həssas yanaşmışıq.

Azərbaycan dövləti olduqca güclü, eyni zamanda sülh tərəfdarı olan bir ölkədir. Bunu İlham Əliyev dünyaya bir daha göstərdi. Azərbaycan xalqı qısa zaman kəsiyində bütün tarixinin ən böyük uğurlarını qazandı və bu uğurları bizə Prezident İlham Əliyevin olduqca unikal strateji baxışları, dəqiqliklə ölçülmüş addımları yaşatdı.

Bu baxımdan prezident seçkiləri bizim yeni reallıqlarımızın sifarişi idi. Biz bir mərhələni, Prezidentin də qeyd etdiyi kimi, uğurla başa vurduq. Tarixi inkişafımızın yeni mərhələsinə başladıq və bu mərhələdə də qarşımıza yeni inkişaf hədəfləri qoyduq. Sözsüz ki, hədəfləri müəyyənləşdirmək mümkündür, amma bu hədəflərə çatmaq üçün resurslar tələb olunur. Odur ki, əvvəlki mərhələlərdə gələcək məqsədlərimizə çatdıracaq real resurslar potensialını formalaşdırmışdıq.

Prezident yeni mərhələ üçün bütün zəruri şərtləri artıq təmin edib. Ona görə də prezident seçkilərindən ötən zaman ərzində məqsədlərimizə doğru sürətlə irəliləyirik. Bu məqsədlərdən ən əsası işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması və həmin ərazilərdə keyfiyyətli məskunlaşmanın həyata keçirilməsidir. Həmin istiqamətdə olduqca sistemli, ardıcıl addımlar atılır, ərazilərimizin siması günbəgün dəyişir. Ölkə rəhbərinin vurğuladığı kimi, azad etdiyimiz ərazilərimizi sürətlə və keyfiyyətlə dünyanın ən cazibədar bölgələrindən birinə çevirməkdəyik. İstər nəqliyyat kommunikasiya infrastrukturu olsun, istərsə də ümumi təhlükəsizliyin etibarlı təmin edilməsi, istər əhalinin yerləşdirilməsi və məşğulluğun təmin olunması olsun, istərsə də regionun təbii potensialından istifadə - bütün istiqamətlərdə kompleks addımlar atılır, tədbirlər görülür.

Cənab İlham Əliyevin Prezident kimi səlahiyyətlərinin icrasına başlamasından ötən 100 gün ərzində gördüyü böyük və gələcəyimiz üçün əhəmiyyət kəsb edən işlər göz önündədir. Soydaşlarımızın işğaldan azad olunan ərazilərə sistemli şəkildə köçürülməsi davam edir. Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu daha da möhkəmlənir. Ötən 100 gün ərzində müxtəlif istiqamətlərdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün təsirli addımlar atılıb. Prezident müxtəlif xarici səfərlərdə olub. Hər zaman görmüşük ki, Azərbaycan Prezidentinə çox böyük ehtiram var, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlər çoxdur. Azərbaycana müxtəlif ölkə rəhbərlərinin səfərləri baş tutur və bir qayda olaraq işğaldan azad olunmuş ərazilərimizə yüksək rütbəli xarici qonaqlar səfər edirlər. Onlar həmin ərazilərdə bərpa-quruculuq işləri ilə tanış olur və öz heyranlıqlarını gizlətmirlər.

Ötən 100 gün ərzində hər bir Azərbaycan vətəndaşı növbəti dəfə əmin oldu ki, olduqca düzgün seçim edib. Tarixi inkişafımızın yeni mərhələsində daha böyük hədəflər bizi gözləyir. Prezidentin müxtəlif istiqamətlərdə atdığı addımlar isə gələcək böyük uğurlarımızdan soraq verir.

**Elşad MİRBƏŞİROĞLU,**
***Milli Məclisin deputatı***

## Müxalifət Prezidentin son 100 günlük fəaliyyətni yüksək qiymətləndirir:

# Azərbaycan naminə missiya

**Prezident İlham Əliyevin dövlət rəhbəri vəzifəsində fəaliyyətinin 100 günü tamam olur. Məlumdur ki, bir çox dünya ölkəsində prezidentin 100 günlük işinə ictimai-siyasi qiymət verilir. İlk olaraq onu deyə bilərəm ki, bu müddət ərzində Azərbaycan Prezidenti əvvəlki dönəmlərdə olduğu kimi, çoxtərəfli, aktiv fəaliyyət göstərib və çoxvektorlu siyasət sərgiləyib.**

Bir məsələni xüsusi olaraq vurğulamalıyıq ki, 7 fevral 2024-cü il prezident seçkiləri müstəqil Azərbaycanın bütün suveren ərazilərini əhatə etməklə keçirilən ilk seçkilər olub. Təbii ki, 30 ilə yaxın müddətdə işğal altında qalan ərazilərimizin azad edilməsi də bilavasitə Ali Baş Komandan İlham Əliyevin Vətən qarşısında müstəsna xidməti kimi dəyərləndirilir.

Qürurverici haldır ki, 44 günlük İkinci Qarabağ savaşında qazandığımız möhtəşəm qələbəmizdən sonrakı dövr ərzində Xankəndi daxil olmaqla, digər ərazilərimiz də Azərbaycanın nəzarətinə keçərək separatizmə son qoyuldu və torpaqlarımız terrorçulardan birdəfəlik təmizləndi. Bununla da dünyada separatizmə və terrorçuluğa son qoyulmasının Azərbaycan nümunəsi yaradıldı. Bu, ilk növbədə Azərbaycanın regionda əsas söz və güc sahibinə çevrilməsinin və müstəqil siyasət yürütməsinin bariz nümunələridir. Sirr deyil ki, istər regional, istərsə də qlobal güclərin bölgədə iqtisadi, siyasi və hərbi maraqları var və mövcud reallıqlara rəğmən ölkəmizin müstəqil siyasət yürütməklə hazırkı nailiyyətləri əldə etməsi bilavasitə Azərbaycan Prezidentinin yürütdüyü çoxvektorlu uğurlu xarici siyasət sayəsində mümkün olub.

İlham Əliyevin növbəti dəfə prezident seçilməsindən sonra rəsmi olaraq vəzifəsinin icrasına başladığı andiçmə mərasimindən keçən 100 gün ərzində görülən işlərə gəldikdə isə ilk növbədə Azərbaycana məxsus olan və 30 il ərzində işğal altında qalan Qazax rayonunun 4 kəndinin danışıqlar yolu ilə geri qaytarılmasının, həmçinin Rusiya hərbi kontingentinin vaxtından xeyli əvvəl ölkəmizi tərk etməsinin ən diqqətçəkən və əhəmiyyətli hadisələr olduğu qənaətindəyəm. O cümlədən əvvəlki üç il ərzində olduğu kimi, bu dövr ərzində də işğaldan azad olunmuş ərazilərdə abadlıq və yenidənqurma işləri tam gücü ilə aparılmaqdadır. Beynəlxalq standartlara uyğun avtomobil və dəmir yolu xətləri çəkilməkdədir. İşğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu, Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolu, eləcə də rayonlararası, şəhərlərarası müasir avtomobil yollarının çəkilməsi, yol qovşaqlarının, tunel və körpülərin tikintisi görülən işlərin miqyasını göstərir. Həmçinin azad edilən ərazilərdə su anbarları, dəmir yolları, məktəblər, xəstəxanalar, sosial və digər təyinatlı obyektlərin tikintisi davam edir, bəziləri artıq istifadəyə verilib. Şuşaya, Zəngilana, Laçına, Füzuliyə və digər azad və abad olmuş yaşayış məntəqələrinə Böyük qayıdışın başlanması və sürətlə davam etməsi ilə yanaşı, doğma yurdlarına qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı da müvafiq qurumlar ciddi işlər görürlər. Yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır və bu işlər gələcəkdə də davam etdiriləcək.

Yeni infrastruktur layihələrinin gerçəkləşməsi və bu prosesə qardaş Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər qardaş türk dövlətlərinin, eləcə də dost ölkələrin cəlb edilməsi Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya göstərir. Dost və qardaş ölkələr tərəfindən Azərbaycanın işğaldan azad edilmiş rayonlarında reallaşdırılan layihələr dövlətlərimiz arasında dostluq rəmzinə çevrilib. Özbəkistan və Qazaxıstan Füzulidə iki məktəbin tikintisi ilə bağlı qardaş dəstəyi göstəriblər. Ötən ay Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycanda rəsmi səfərdə olarkən məlum oldu ki, bu ölkə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində tikinti-quruculuq işlərində iştirak edəcək və qardaş Qırğızıstan Qarabağda məktəb tikintisində iştirak edən üçüncü ölkə olacaq. Bu onu göstərir ki, Qarabağ zəfəri regionda türk dövlətləri üçün həm də yeni iqtisadi imkanlar yaradıb.

Bir sözlə, görülən və görüləcək işlər kifayət qədərdir və mən növbəti dəfə vəzifələrinin icrasına başladığı andiçmə mərasimindən keçən 100 gün ərzində Prezident İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, ona Azərbaycan naminə gələcək fəaliyyətində yeni uğurlar arzulayıram.

**Arzuxan ƏLİZADƏ,**
***Azərbaycan Milli İstiqlal Partiyasının sədri***

# 100 günün inkişaf və zəfər salnaməsi





# İllərə sığacaq fəaliyyəti 100 günə gerçəkləşdirən Lider

**Azərbaycan Konstitusiyasının 8-ci maddəsinə əsasən, Prezident xalqın vahidliyini təcəssüm etdirir və dövlətçiliyin varisliyini təmin edir. Sovet Azərbaycanında Heydər Əliyevdən sonra, müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbər dövlətçiliyin varisliyini təmin edə, xalqın vahidliyinin təcəssümü ola bilməmişdi.**

**Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilk növbədə Heydər Əliyevin qurduğu Azərbaycanda dövlətçiliyin varisliyini təmin etdi. Azərbaycan xalqının yüz gün öncə müdrikcəsinə möhtərəm cənab Prezidentə növbəti dəfə yüksək etimad göstərməsi isə dövlətçiliyimizin varisliyinin işğala, təcavüzə tam şəkildə son qoyulduğu tam yeni bir mərhələdə, demokratik və hüquqi yolla davamlılığında ifadə olunan milli iradənin qətiyyətidir.**

# Zəfər yolunun uğurlu davamı

**Müasir Azərbaycan dövlətinin həyatında yeni tarixi mərhələ başlayıb. Fevralın 7-də keçirilmiş prezident seçkilərində cənab İlham Əliyev parlaq qələbə qazanmaqla ölkəmizin yeni dövr üçün hədəflərini müəyyən etdi. Xalqımızın bu seçkilərdə yüksək əhvali-ruhiyyə ilə iştirak edərək Heydər Əliyev siyasətinin davamına, Prezident İlham Əliyevin liderliyi ilə yeni qələbələrə səs verməsində məhz bu amil mühüm rol oynadı.**

Ən önəmli məqam isə seçkilərin ilk dəfə olaraq müstəqil Azərbaycanın öz ərazisi üzərində suverenliyini tam bərpa etməsi şəraitində keçirilməsi idi. Beləliklə, qalib xalq ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkənin vətəndaşı olaraq qalib Liderinə - şanlı Zəfərin müəllifinə səs verməklə Heydər Əliyev ideyalarına sədaqət, cənab İlham Əliyevə minnətdarlıq ifadə etdi.

Mayın 24-də Prezident İlham Əliyevin yeni mərhələdə dövlət başçısı səlahiyyətinin icrasına başlamasının 100-cü günü tamam olur. Yüz gün ərzində də Azərbaycan xalqı olaraq tarixi hadisələr yaşamışıq. Bu gün dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bir çox ölkə, o cümlədən qonşularla müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir.

Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi, habelə dünya ölkələrinin ən böyük beynəlxalq konfransı - COP29-un Bakıda keçirilməsi haqqında yekdil qərar qəbul edilməsi ölkəmizin dünya miqyasındakı artan nüfuzunun göstəricisidir. Qarşıdakı əsas hədəflərdən biri isə türk dövlətləri ilə birliyi daha da gücləndirməkdir. Qazanılan uğurların zirvəsini təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi, ən nəhayət, 2023-cü ilin sentyabrında Qarabağda erməni separatizminin kökünün kəsilməsi ilə suverenliyimizin təmin olunması təşkil edir. Öz lideri ətrafında "dəmir yumruq" kimi birləşən xalq gücünü və qələbə əzmini bütün dünyaya nümayiş etdirdi. Prezident, Müzəffər Ali Baş Komandan bu qələbə ilə Azərbaycanı qalib ölkəyə, xalqı qalib xalqa çevirdi. Azərbaycanın qazandığı misilsiz uğurların təməlində də məhz xalq-iqtidar birliyi dayanır. Fevralın 14-də Prezident İlham Əliyev andiçmə mərasimində çıxışı zamanı bu məqamları xüsusi vurğulayıb.

Hazırda Azərbaycan Cənubi Qafqazda sülhün təmin olunması istiqamətində təşəbbüslər göstərir. Aprelin 19-da Azərbaycanla Ermənistan arasında Qazax istiqamətində sərhədlərin delimitasiyası ilə bağlı razılığın əldə olunması cənab Prezidentin 100 gününün ən mühüm hadisələri sırasındadır. Xüsusilə Qazaxın uzun illər işğal altında olmuş dörd kəndinin dinc yolla geri qaytarılması növbəti zəfərimizdir. Dövlətimizin başçısı 100 gün ərzində milli maraqlarımıza uyğun olaraq daxili və xarici siyasət yürüdərək təhlükəsizliyimizin təmin olunması məqsədilə ordumuzun daha da gücləndirilməsi, əhalinin sosial rifahının artırılması, iqtisadiyyatın inkişafı istiqamətində mühüm addımlar atıb. Ən əsas məqamlardan biri isə işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Məlumdur ki, Ermənistan təxminən 30 il ərzində işğal altında saxladığı ərazilərimizi xarabalığa çevirib, burada qanunsuz iqtisadi fəaliyyət həyata keçirib və sərvətlərimizi talayıb. Qarşı tərəf hesab edirdi ki, Azərbaycan həmin əraziləri bərpa edib məskunlaşdırma həyata keçirə bilməyəcək və yaxud buna onilliklər lazım gələcək. Ancaq qalib Azərbaycan işğaldan azad etdiyi ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. Həmin ərazilərə Böyük qayıdışın təmin edilməsi indiki strateji mərhələdə ölkəmizin beş milli prioritetindən biri kimi müəyyənləşdirilib.

Azərbaycan dövləti azad edilmiş ərazilərin məskunlaşdırılmasını tez və layiqli şəkildə həyata keçirmək əzmini nümayiş etdirir. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları böyük tikinti meydanına çevrilib. Xarabalıqlar üzərində yeni şəhərlər, kəndlər ucaldılır. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq 6 mindən çox keçmiş məcburi köçkün doğma torpaqlarına qayıdıb.

Prezident İlham Əliyev andiçmə mərasimində də bəyan etmişdi ki, önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir: "Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir".

Dövlət başçısının yeni mərhələdə son yüzgünlük fəaliyyətində də bu amil müstəsna yer tutur. Qarabağın incisi, qədim şəhərimiz, qəhrəmanlıq rəmzi olan Şuşa şəhərinə sakinlərin qayıdışının reallaşması da son yüz günün mühüm hadisələri sırasındadır. Ümumilikdə isə dövlətimiz tərəfindən ilin sonuna qədər azad olunmuş 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünün qayıdışının təmin edilməsi nəzərdə tutulur. Bütün bunlar təsdiqləyir ki, yeni mərhələdə Azərbaycanı yeni-yeni zəfərlər gözləyir. Xalqımız Prezident İlham Əliyevin liderliyi ilə ölkəmizin bundan sonra da möhtəşəm nailiyyətlər qazanacağına əmindir!

**Pərvin KƏRİMZADƏ,**
***Milli Məclisin deputatı***

Bu il yanvarın 10-da yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bəyan etmişdi ki, seçkilər bütöv bir dövrə yekun vurur. Fevralın 14-də Milli Məclisdə baş tutmuş və Prezidentin andiçmə mərasimindəki fenomenal yaddaşa və müstəsna dövlətçilik təcrübəsinə əsaslanan çıxışı ilə cənab İlham Əliyev yeni dövr üzrə prioritetlərimizi, o cümlədən daxili və xarici siyasət kursunun sərhədlərini aydın formada müəyyən etdi. Bu mənada cənab İlham Əliyevin illərə sığa biləcək yüz günü, əslində, nə qədər çoxşaxəli fəaliyyəti əhatələsə də, bir o qədər də aydın və korrektdir. Lakin nəzərə alsaq ki, bu titanik fəaliyyət öz təməlini bu il fevralın 14-dən götürmür, bütövlükdə Ulu Öndərin siyasi kursunun özü ilə bağlıdır, bu mənada proses daha geniş, ən azı 2003-cü ildən təhlil tələb edir.

Ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində Bakıda sovet rəhbərliyi ilə nüfuz alveri edilərkən cənab İlham Əliyev Moskvada Ulu Öndərlə birlikdə 20 Yanvar hadisələrinə görə sovet rejiminə qarşı açıq etiraz edən iki nəfərdən biri idi. Ulu Öndər Bakıya qayıtdıqdan sonra məhz onun sayəsində hakimiyyət iyerarxiyasında yer tutmuş bir sıra şəxslər nankorluq edən zaman, parlamentdə Ulu Öndərə qarşı çirkab kampaniyası nümayiş etdiriləndə, danışmağa imkan verməyəndə, Bakıda təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə onun əsas silahdaşı yenə də İlham Əliyev idi. 2003-cü ilə qədərki dövlət quruculuğu prosesində Ulu Öndərlə bərabər, məhz İlham Əliyevin adı xüsusi qeyd olunmalıdır.

Sonrakı dövrdə möhtərəm Prezidentin davam edən 20 illik fəaliyyəti son 200 ilin gündəliyindən daha zəngin, daha mürəkkəb, həm də tariximizin ən uğurlu mərhələsidir. Onun şah əsəri isə, şübhəsiz ki, böyük Zəfərimizdir. Ümumiyyətlə, bəllidir ki, Qarabağ düyünü Ulu Öndərin nisgili idi, hətta özünün 2003-cü il 1 oktyabr tarixli son müraciətində də ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik". Böyük Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı".

Böyük hərbi-siyasi Zəfərə qədər cənab İlham Əliyev güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etdi. Məcburi köçkünlərin çadır şəhərciklərini ləğv edərək vətəndaşlarının rifahını yüksəltdi. 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətdi. Bu Zəfərə qədər dövlət başçısı həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, çoxəsrlik dövlətçilik ənənəsinin əhəmiyyətini dərk edən vətənpərvər gənclik yetişdirdi. Cənab İlham Əliyev bütün dünya ilə, xüsusən yanlış gözləntilərdə olan bəzi qlobal dairələrlə ideoloji savaşa girib, bu savaşdan da zəfərlə çıxaraq sübut etdi ki, Heydər Əliyev siyasi kursunun davam etdiyi bir şəraitdə Azərbaycan xalqı torpaqlarının zəbt olunması ilə barışa bilməz və bu siyasi xətt illərlə davam etmiş işğalın Azərbaycan gəncliyinə Qarabağ və Şərqi Zəngəzuru unutdurmasına imkan verməz. Məhz bu qətiyyətli mövqeni rəhbər tutmaqla, 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı.

Etiraf etməliyik ki, Azərbaycan nə ərazi ölçüsü, nə əhali sayına görə xüsusi göstəricilərə malikdir, əksinə, kiçik ölkə sayılır. Lakin məhz cənab İlham Əliyevin vizyonu sayəsində danılmaz faktdır ki, Azərbaycan müasir geosiyasi situasiyada nəinki bölgədə, bütövlükdə qlobal mənada hərbi-siyasi güc mərkəzlərindən birinə çevrilib. Təbii ki, qlobal ziddiyyətlərin gücləndiyi bir şəraitdə rəqabətqabiliyyətli güclü dövlətə çevrilmək sadə məsələ deyil. Xüsusən siyasi və iqtisadi transformasiyaların sürətlə davam etdiyi bir şəraitdə. Məlumdur ki, hazırda Azərbaycan Respublikası özünün ənənəvi enerji öhdəliklərinə sadiq qalmaqla neft hasilatından qaz istehsalına strateji keçidi təmin edir və bu, müasir mərhələdə ölkəmizin enerji siyasətinin şaxələndirilməsində çox vacib addım hesab olunmalıdır. Məhz möhtərəm Prezidentin zamanında uzaqgörənliklə reallaşdırdığı infrastrukturlar, həmçinin onun iradəsi ilə reallaşan layihələr bu gün faktiki olaraq Azərbaycanı Avropa üçün alternativsiz və çox cazibədar enerji təchizatçısına çevirib.

Vətən müharibəsində Azərbaycanın Zəfəri, habelə antiterror tədbirlərində cənab İlham Əliyevin müstəsna qələbəsi, konstitusiya quruluşunun beynəlxalq hüquqla tanınan bütün ərazilərimiz boyu bərqərar olunması regionda qeyri-dost niyyətləri olan gücləri ölkəmizə qarşı səfərbər etdi. Bu prosesdə də ənənəvi destruktiv Qərb strukturları, muzdlu media və korrupsioner siyasətçilər beynəlxalq ictimaiyyət adından ölkəmiz əleyhinə müxtəlif bəhanələrlə siyasi hücumlar təşkil etməyə, bəyanatlar verməyə başlayıblar. Özünü beynəlxalq ictimaiyyət adlandıraraq dünya birliyi adından çıxış edənlərə münasibətdə möhtərəm Prezidentin mövqeyi kifayət qədər aydın oldu, "200-dən çox ölkə var, 20-30 ölkə özünü necə beynəlxalq ictimaiyyət saya bilər?"

Xüsusən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və Qoşulmama Hərəkatının sədri qismində cənab İlham Əliyevin uğurlu fəaliyyəti, onun bəşəri miqyasda lider kimi mövqelərinin möhkəmlənməsi Azərbaycanın qələbələrinin sağlam təməllər üzrə inşasını təmin etdi. Dünya ictimaiyyəti gördü ki, pandemiya ilə mübarizədə qlobal səylərə məhz cənab İlham Əliyev liderlik etdi, eyni zamanda postpandemiya yol xəritəsinin cızılmasında o, həlledici liderlik missiyasını üzərinə götürdü. Digər tərəfdən türk dünyasının birliyi istiqamətində açar rolunu üzərinə götürməklə cənab İlham Əliyev nəinki Azərbaycanın, bütövlükdə türk dünyasının qlobal miqyasda imkanlarını genişləndirmiş oldu.

Konkret olaraq ötən yüz günə gəlincə, cənab İlham Əliyev parlamentdə tarixi çıxışında bəyan etmişdi ki, qarşıdakı dövr üzrə Azərbaycan Respublikasının bu gün ən yüksək səviyyədə təmin etdiyi təhlükəsizliyi və müdafiəsini daha da gücləndirmək naminə ordu quruculuğu və hərbi sənayenin inkişafı prosesinə xüsusi önəm verməkdə davam edəcək. Azərbaycan konstitusion səviyyədə başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Lakin sirr deyil ki, bu gün özünü beynəlxalq ictimaiyyətin təmsilçisi kimi təqdim edən, lakin beynəlxalq hüquqa hörmətlə yanaşmayan subyektlər də daxil, bir çox dövlətlər üçün bu prinsip keçərli deyil. Bu mənada güclü ordu quruculuğunun davam etdirilməsi yeni dövrdə əsas prioritetimiz olmalıdır ki, bütün mümkün təhdidləri zərərsizləşdirək. Ötən yüz gün ərzində də bu istiqamətdə proseslər sürətlə davam edib.

Eyni zamanda cənab Prezident hərbi sənayenin inkişafına yalnız hərbi gücün artması yox, həm də suverenliyin elementi kimi yanaşır və əldə edilən strateji uğurların davamlılığında qətiyyətlidir. Dövlət başçısının özünün də andiçmə mərasimində bəyan etdiyi kimi, Azərbaycan hərbi sənayenin inkişafının birinci mərhələsini artıq uğurla başa vurub. Növbəti mərhələ isə daha genişmiqyaslı olmaqla, həm də Azərbaycanın bu istiqamətdə xarici asılılığının kəskin azaldılmasına yönələcək ki, bu da siyasi və iqtisadi müstəqilliyimizin ardınca müdafiə sənayesi sahəsində də suverenliyimizə töhfə olacaq. Cənab Prezidentin inaqurasiya mərasimindəki tarixi çıxışında qeyd etdiyi kimi, "biz İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq". Məhz bu məqsədlə sərhədlərimizin təhlükəsizliyinin daha da gücləndirilməsi zərurətdir. Dövlət başçısının təbiri ilə desək, bu, Azərbaycanı xarici risklərdən də qoruyacaq.

Ümumiyyətlə, cənab İlham Əliyev üçün ideoloji bütövlük və tamlıq azərbaycançılıq ideologiyası, ailə dəyərlərinin qorunması, gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlıdır. Bu mənada əminliklə demək olar ki, yeni epoxada ailə və məktəb tərbiyəsi istiqamətində dövlət siyasəti daha çevik və effektiv metodlarla realizə olunacaq. Cənab İlham Əliyev ardıcıl qələbələri ilə Azərbaycanın ən qüdrətli dövrünü başlatmaqla elə siyasi konfiqurasiya formalaşdırıb ki, xalqımız milli birliyin əhəmiyyətini tarixin heç bir dövründə olmadığı qədər yaxşı başa düşür.

Yeni dövrdə milli prioritetlərimizdən digəri ümumbəşəri dəyərlərə və beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərə sadiq qalmaqla xarici siyasət kursunda 3 konkret istiqamətin müəyyən olunmasıdır. Birincisi, Azərbaycan artıq əvvəlki qaydalarla - ikili standartla formalaşan riyakar qlobal nizamın şərtləri ilə hesablaşmaq niyyətində deyil. Əlbəttə, bunun da kökündə cənab İlham Əliyevin Heydər Əliyev siyasi kursuna arxalanaraq nail olduğu ciddi hərbi-siyasi, sosial və iqtisadi uğurlar dayanır.

Xarici siyasət kursumuzun ikinci vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Sirr deyil ki, əvvəllər regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olsaq da, məhz mövcud siyasi iradənin qətiyyəti ilə Azərbaycan artıq həmin dövrləri geridə qoyaraq özünü qlobal oyunçu kimi təsdiq edə bilib. Bu gün isə hədəfimiz Zəfər qazanmış, reallıqlar yaratmış lider dövlətin haqlı mövqeyi üzərində bərqərar olunub və biz Ermənistanın timsalında hansısa üçüncü dünya dövləti ilə münasibətlərə vaxt ayırmaq yox, lider qlobal subyektlərdən biri kimi iqlim dəyişiklikləri, islamofobiyaya və neokolonializmə qarşı mübarizədə dünyanı narahat edən problemlərin həllində daha fəal olmaqdır. Təsadüfi deyil ki, yüz gün ərzində cənab İlham Əliyevin 80-dən çox dövlət və hökumət rəsmisi ilə birbaşa təmaslarda ifadə etdiyi qəti mövqe artıq Azərbaycanın arzuladığı obrazda özünü təsdiq edə bildiyini göstərir.

Ermənistanla münasibətlərə gəlincə, inaqurasiya prosesində yeni dövr üçün cənab İlham Əliyevin bu istiqamətdə yol xəritəsi kifayət qədər aydın idi. Azərbaycan bu məsələdə qlobal manipulyatorlara meydan verməyəcəyini bəyan etmişdi. Dövlət başçımızın təbiri ilə desək, Bakı hesab edir ki, "bu məsələnin əhəmiyyətinin süni şəkildə şişirdilməsinə lüzum yoxdur. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək".

Nəticədə Azərbaycan qeyd edilən dövr ərzində sülh prosesində özünün direktivlərini oturda bildi və bu gün Bakı və İrəvan arasında məhz cənab İlham Əliyevin tezislərinə müvafiq olaraq sülh danışıqları delimitasiya və demarkasiya prosesindən ayrıldı. Nəticədə prosesin hər iki qolu istiqamətində ümidverici məqam yarandı. O cümlədən Azərbaycan Qazaxın 4 kəndini bir güllə atmadan geri aldı. Bundan başqa, cənab İlham Əliyev separatizmlə bağlı məsələdə də son nöqtəni qoydu. Novruz tonqalını Xankəndidə qalamaqla cənab İlham Əliyev separatizmin son izini də təmizləmiş olduğunu bəyan etdi.

Ötən yüz gün ərzində əsas milli prioritetlərimizdən biri olan işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa, habelə həmin torpaqlara ləyaqətli qayıdış da yeni mərhələyə qədəm qoydu. Şuşaya, Laçının Sus kəndinə əhalinin ilk köçü baş tutdu.

Qeyd olunanlar fonunda yeni dövr üzrə müəyyənləşən hədəfləri və cəmi yüz gün ərzində görülən işləri təhlil etdikdə əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev Azərbaycanın müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş ilk inaqurasiya mərasimindən sonra səlahiyyətinin ilk yüz günündə, əslində, bir liderin 10 illər ərzində reallaşdıra biləcəyi qədər nailiyyətlər əldə edib və bunu yeni dövrə keçidi təmin edəcək mükəmməl siyasi mərhələyə çevirə bilib. Üstəlik, cənab İlham Əliyev elə konfiqurasiyaya nail ola bildi ki, hər bir Azərbaycan vətəndaşı özünü bu transformasiyanın bir hissəsi və hərəkətverici qüvvəsi hesab edə biləcək. Bu mənada dönüb ötən dövrə baxanda bir şeyə əmin oluruq, miqyası dövlətimizin miqyasından, gördüyü işlər isə real imkanlarımızdan artıq olan cənab İlham Əliyev bu dövlət və bu xalq üçün sözün əsl mənasında tarixi şansdır.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***

# 100 günün inkişaf və zəfər salnaməsi



**Fevralın 14-də dövlətə və xalqa sədaqət andı içən cənab İlham Əliyevin növbəti müddət üçün prezidentlik fəaliyyətinə başlamasından 100 gün ötür. Yeni seçilmiş prezidentin fəaliyyətinin ilk 100 gününün nəticələri isə onun dövlət rəhbəri kimi missiyasının qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu qiymətləndirmə istər dövlət, istərsə də hökumət başçısının gələcək fəaliyyətinin proqnozlaşdırılması ilə bağlı beynəlxalq praktikada öz təsdiqini tapmış mühüm politoloji yanaşma hesab olunur.**



## Möhtəşəm 100 gün

### Etimadın təcəssümü

Növbədənkənar prezident seçkiləri azad, ədalətli, şəffaf, demokratik meyarlar çərçivəsində keçirilməklə ölkəmizin tarixinə növbəti mühüm siyasi-tarixi hadisə kimi həkk olundu. Ən əsası, bu seçkidə möhtərəm İlham Əliyevin növbəti inamlı qələbəsi, ölkə üzrə səsvermədə iştirak etmiş seçicilərin 92,12 faizinin səsini qazanması Azərbaycan xalqının hazırkı siyasi kursa, böyük Heydər Əliyev yoluna etimadının və sədaqətinin növbəti təcəssümünə çevrildi.

Bu seçkilərdə Azərbaycan xalqının seçimini müəyyən edən, bu seçimin təməlində dayanan olduqca mühüm fundamental əsaslar var idi. Prezident cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin nəticəsi kimi 2003-2023-cü illərdə yaranmış bu əsaslar zəncirvari şəkildə bir-birini tamamlayaraq, Azərbaycanın öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəlməsini şərtləndirib. Bütün bu reallıqları təmin edən Prezident İlham Əliyev isə öz əməlləri ilə xalqımızın qüruruna çevrilən siyasi liderdir, böyük şəxsiyyətdir.

Azərbaycan xalqı növbədənkənar seçkilərdə bu reallıqlara istinad etdi, əldə edilən bu kimi nailiyyətlərin davamına səs verdi. Bu seçimi ilə xalqımız bir daha göstərdi ki, böyük Heydər Əliyev yoluna və İlham Əliyev siyasi kursuna heç bir alternativi qəbul etmir.

Möhtərəm İlham Əliyevin dövlətimiz və xalqımız qarşısında ən böyük tarixi xidməti isə, əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, Azərbaycan torpaqlarında XIX əsrin əvvəllərindən kök atmağa başlamış mənfur erməni separatizminə son qoyulmasıdır. Vətən müharibəsindəki Zəfərimizin, bütün ərazilərimiz üzərində milli suverenliyimizin müəllifi olan Prezident İlham Əliyev bununla Ulu Öndər Heydər Əliyevin arzularını çin etdi, ata vəsiyyətini layiqincə yerinə yetirdi.

### 20 ilin uğur hesabatı və yeni dövrün yol xəritəsi

100 gün əvvəl - fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimindən sonra isə dövlətimiz və xalqımız Prezident İlham Əliyevin qətiyyətli və müdrik rəhbərliyi ilə tarixdən süzülüb gələn dövlətçilik ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, müstəqilliyimizin bunaqədərki - böyük Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əldə edilmiş möhtəşəm nailiyyətlərə, Vətən müharibəsindəki Zəfərə və ərazilərimiz üzərində milli suverenliyimizin tam təmin olunduğu tarixi gerçəkliyə söykənərək yeni inkişaf və yüksəliş mərhələsinə daxil oldu.

Prezident İlham Əliyevin Milli Məclisdə etdiyi çıxışını televiziya ekranlarından böyük qürur və fəxarət hissilə izlədik. Cənab Prezidentin proqram xarakterli çıxışının məzmunu əhatəli idi və təsadüfi deyil ki, geniş siyasi-ictimai marağa səbəb oldu, xalqımızın tarixi baxışları, ölkəmizin bugünkü nailiyyətləri və gələcək milli hədəfləri ilə vəhdət təşkil etdi.

Ən əsası, bu çıxış Müzəffər Ali Baş Komandanın ötən 20 illik fəaliyyətinin qədirbilən xalqımızın zəfər tarixində həmişə yaşayacaq uğur hesabatı idi. Hansı ki, bu hesabat 20 illik yüksəliş və inkişaf mərhələsinin möhtəşəm nailiyyətlərini və tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın şərəf salnaməsini gözlərimiz önündə bir daha canlandırdı. Cənab İlham Əliyevin "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!" sözləri ötən 20 illik dövrün bütün uğurlarının, xalqımızın uzun illərdən bəri arzu və istəklərinin ümumiləşdirilmiş möhtəşəm ifadəsinə çevrildi.

Bu çıxış həm də Azərbaycanın daxil olduğu yeni inkişaf və yüksəliş mərhələsinin düşünülmüş və əsaslandırılmış yol xəritəsi idi. Dövlət başçısının hər bir fikri, hər bir cümləsi respublikamızın etibarlı gələcəyinə, xalqımızın firavanlığına və rifahına aydın və konkret notlar üzərində baxış idi.

Dövlətimizin başçısının çıxışını dinlədikcə görürdük ki, möhtərəm İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi dövlətimizi və xalqımızı gələcəyə də qalibiyyət ruhunda aparır. Yəni qədəm qoyduğumuz yeni dövrdə əldə edəcəyimiz hər bir uğurun təməlində, kökündə Vətən müharibəsindəki zəfərimiz, erməni separatizminə son qoymağımız dayanacaq. Prezident İlham Əliyevin qarşıya qoyduğu digər məsələlər də milli ruhla və dövlətçilik dəyərləri ilə əlaqələndirildi. Bununla da, tarixi dövlətçilik ənənələrimizdən, milli dəyərlərimizdən, döyüş və Zəfər ruhumuzdan, qurub-yaratmaq potensialımızdan ibarət yeni bir mərhələyə qədəm qoyuldu.

Böyük qürur hissilə qeyd etməliyik ki, Azərbaycan bu yeni dövrə bir zamanlar həlli hər birimizə müşkül görünən tarixi problemlərimizi milli maraqlarımız çərçivəsində yoluna qoymuş, ötən 20 ilin zəngin inkişaf və yüksəliş təcrübəsi ilə güclənmiş, milli haqqını, qürurunu, ləyaqətini təmin etmiş şəkildə başıuca daxil olur.

### Sülhməramlılar əraziləri vaxtından tez tərk etdilər

Prezident İlham Əliyevin yeni müddət üçün fəaliyyətinin ilk 100 gününün ən mühüm hadisələrindən biri Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazilərini tərk etməsidir. 10 noyabr üçtərəfli Bəyanatına əsasən, sülhməramlı kontingentin qalma müddəti 5 il idi. Amma ötən il Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərinin nəticəsində Qarabağdakı erməni separatçılarının mövcudluğuna son qoyuldu, bütün ərazilərimiz üzərində milli suverenliyimiz təmin edildi. Buna görə rus sülhməramlılarının Azərbaycan ərazilərində qalmalarına da zərurət olmadı və onlar vaxtından da tez ölkəmizi tərk etdilər. Bu, həm də qalib ölkənin vətəndaşlarının haqlı gözləntisi idi.

Rusiya sülhməramlılarının Azərbaycan ərazilərini tərk etməsi yeni tariximizin mühüm hadisələrindən biridir. Bu, Azərbaycanın milli mənafelərinin qorunması müstəvisində strateji uğurumuz olmaqla, həm də onu göstərir ki, Qarabağ problemi tam həll olunub. Sülhməramlıların Azərbaycanı vaxtından da tez tərk etməsi bir daha Prezident İlham Əliyevin qətiyyətli və strateji baxımdan dərindən düşünülmüş, olduqca uzaqgörən siyasət yürütdüyünü bir daha nümayiş etdirdi.

Bu proses həm də Ulu Öndər Heydər Əliyevin müdrikliyi nəticəsində keçmiş sovet qoşunlarının 1992-ci ildə Naxçıvanı tərk etməsini yadımıza saldı. Və bir daha əmin oluruq ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi yol, Prezident İlham Əliyevin həyata keçirdiyi alternativsiz siyasət milli maraqlarımızın ən etibarlı təminatçısıdır.

Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməsi daxildə və xaricdə olan qaragüruhçuların, sapı özümüzdən olan baltaların səsləndirdikləri cəfəng "proqnozlar"ın və iddiaların nə qədər çürük, əsassız olduğunu göstərdi, bunu səsləndirənlərin siyasi savad və dünyagörüşünün kasadlığını, qərəzliliyini bir daha sübut etdi. Çünki onlar belə bir iddia irəli sürürdülər ki, Rusiya qoşunları daxil olduğu ərazilərdən çıxmır və sülhməramlı kontingent Azərbaycan torpaqlarını heç vaxt tərk etməyəcək. Lakin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qaragüruhçuların, Qərbdə mənzillənmiş "beşinci kolon"un bütün əsassız iddialarını və arqumentlərini alt-üst etdi. Bu hadisə Qərb siyasi dairələrinin də regionla bağlı məkrli niyyətlərini gözlərində qoydu.

### 4 qeyri-anklav kənd Azərbaycana qaytarıldı

Rusiya sülhməramlı kontingentinin Azərbaycanı tərk etməyə başlamasının ardınca Azərbaycan ictimaiyyəti növbəti xoş müjdəyə sevindi. Belə ki, Azərbaycanla Ermənistan arasında aprelin 19-da keçirilən dövlət sərhədinin delimitasiyası üzrə görüşdə delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin keçmiş Sovetlər İttifaqı çərçivəsində onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq, Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı yaşayış məntəqələri arasından bilavasitə keçməsini razılaşdırdılar. Bu o demək idi ki, hazırda Ermənistanın işğalı altında olan bu 4 qeyri-anklav kənd Azərbaycana qaytarılır. Və hamı bilir ki, bu proseslər məhz qəhrəman xalqımızın dünyaya bəxş etdiyi böyük sərkərdə, dünya lideri Prezident İlham Əliyevin ölkəmizə ləyaqətlə rəhbərlik etməsi, xidmət göstərməsi sayəsində baş verir.

Prezident İlham Əliyev cari il mayın 10-da yerli televiziya kanallarına müsahibəsində bu barədə suala cavabında demişdi: "Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır". Aprel ayında həmin qeyri-anklav 4 kəndin işğaldan azad edilərək Azərbaycana qaytarılması barədə razılığın əldə olunması Prezident İlham Əliyevin həmin müsahibədə ifadə etdiyi qətiyyətli mövqeyinin öz təsdiqini tapmasıdır.

Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsi Vətən müharibəsindəki zəfərin, ərazilərimizdə erməni separatizminə son qoyulmasının məntiqi davamı kimi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində qazanılan mühüm tarixi uğurdur. Bu uğurun müəllifi də məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bu qürurverici hadisə bir daha göstərdi ki, dövlətimizin başçısı Azərbaycanın, xalqımızın milli maraqları ilə bağlı istənilən məsələdə qətiyyətli, dönməz və prinsipialdır.

### Qayıdışın ünvanları sırasına Şuşa şəhəri və Sus kəndi də əlavə olundu

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövlətinin əsas milli hədəflərindən biri Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşüdür. İşğaldan azad edilmiş ərazilərin bərpası isə hələ Vətən müharibəsinin davam etdiyi günlərdən sonra başlayıb, ötən 3 il yarım ərzində sürətlə davam etdirilib. Bu qısa dövrdə azad edilmiş ərazilərin yenidən qurulmasının miqyası, həqiqətən, heyrətamiz və qürurvericidir.

Fevralın 14-də Milli Məclisdə andiçmə mərasimində Prezident İlham Əliyev bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlərin qayıdacağını bəyan etdi: "Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq".

Ötən 100 gün göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur Prezident İlham Əliyevin böyük zəhməti, əzmi ilə sürətlə yenidən qurulur. Əgər 100 gün əvvələ qədər keçmiş məcburi köçkünlər Füzuli və Laçın şəhərlərinə, Zəngilanın Ağalı, Laçının Zabux, Tərtərin Talış kəndlərinə qayıtmışdılarlsa, artıq qayıdışın ünvanları sırasına qeyrət qalamız olan Şuşa şəhəri və doğma Laçınımızın Sus kəndi də əlavə olunub. Əgər 100 gün əvvələ qədər Qarabağ və Şərqi Zəngəzura 5,4 min nəfərə yaxın keçmiş məcburi köçkün qayıtmışdısa, bu gün doğma yurduna qayıdanların sayı 7 min nəfəri ötüb.

Mayın 18-də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Cəbrayıl rayonunun Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kəndlərinin, Zəngilanın Mincivan qəsəbəsinin təməllərinin qoyulması, "Ağalı" hotelinin, "Zəngilan" və "Şayıflı" su-elektrik stansiyalarının, Zəngilan məscidinin istifadəyə verilməsi bir daha azad edilmiş ərazilərin bərpasının yüksək sürətlə davam etdirildiyini göstərdi.

### 18 ölkənin dövlət və hökumət başçıları ilə görüş

100 günün təhlili Prezident İlham Əliyevin yürütdüyü mükəmməl xarici siyasət kursunun miqyasını da göstərir. Bu müddətdə Prezident İlham Əliyev 3 dövlətə səfər edib, 7 ölkənin prezidenti, 5 ölkənin hökumət başçıçı Azərbaycana gəlib. Ümumilikdə bu dövrdə Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə keçirilən görüşlər də daxil olmaqla, 18 ölkənin dövlət və hökumət başçıları, o cümlədən ABŞ Dövlət katibi, NATO-nun Baş katibi, ATƏT-in Baş katibi ilə görüşüb. Bu səfərlər və görüşlər ilk növbədə Azərbaycanın xarici siyasətinin məzmunundan, bu siyasətin çoxvektorlu və müstəqil olmasından xəbər verir. Ən əsası, Qərb siyasi dairələrinin respublikamıza qarşı qərəzli və məkrli siyasi fəaliyyətləri fonunda Prezident İlham Əliyev öz uğurlu xarici siyasət kursu ilə 100 gündə Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edib.

Eyni zamanda bu görüşlərin hər biri Prezident İlham Əliyevə olan qlobal ehtiramdan xəbər verir. Fevral ayında andiçmə mərasimindən sonra 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərinə səfər edən Prezident İlham Əliyevin keçirdiyi hər bir görüş göstərdi ki, dövlətimizin başçısı beynəlxalq miqyasda dərin ehtiramla qarşılanan siyasi liderdir. Münxen Təhlükəsizlik Konfransındakı görüşlərdən gəlinən başqa bir qənaət isə bu oldu ki, Azərbaycan Prezidentinin hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Eləcə də Azərbaycana səfər edən dövlət və hökumət başçılarının Prezident İlham Əliyevlə bağlı fikirlərini xüsusi qeyd etməliyik. Məsələn, Bolqarıstan Prezidenti Rumen Radevin Bakıda mətbuata ünvanladığı bəyanatda "Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm" deməsi, Slovakiyanın Baş naziri Robert Fitsonun "Sizə açıq şəkildə deyə bilərəm ki, təkbətək görüşümüzdə müzakirələrimiz ölkəniz və Sizin haqqınızda düşündüyümün təsdiqi oldu. Siz suveren xarici siyasətin tərəfdarısınız. Siz beynəlxalq hüququ müdafiə edən şəxsiyyətsiniz. Siz praqmatik şəxsiyyətsiniz" sözləri, Belarus Respublikasının Prezidenti cənab Aleksandr Lukaşenkonun "Tanrıya şükürlər olsun ki, bu mürəkkəb regionda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur" sözləri Prezident İlham Əliyevin şəxsiyyətinə, fəaliyyətinə, etibarlı tərəfdaş olmasına verilən ali qiymətlərin və onun qlobal miqyasdakı nüfuzunun növbəti təsdiqi oldu.

### Dövləti sevməyin və Vətənə xidmətin nümunəsi

Prezident İlham Əliyevin fəaliyyətinin son 100 günü Azərbaycanın tək müasir müstəqillik dövrünü deyil, bütün dövlətçilik tarixini şərəfləndirən olduqca möhtəşəm hadisələr və uğurlarla əlamətdardır. Hansı ki, bu hadisələrin hər biri dövlətimizin və xalqımızın milli maraq və mənafelərini qoruyub və qarşıya qoyulan vəzifələrin yerinə yetirildiyini təsdiq edib. 100 günü ərazi bütövlüyümüzün bərpasından sonra respublikamızın qədəm qoyduğu yeni dövrün ilk uğurlu mərhələsi də adlandıra bilərik.

Əlbəttə ki, bu mərhələdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Prezident İlham Əliyevin ən böyük siyasi silahdaşı Mehriban xanım Əliyevanın fəaliyyətini, respublikamızda əldə olunan nailiyyətlərə verdiyi dəyərli töhfələri xüsusi qeyd etməliyik. Hörmətli Mehriban xanım Əliyevanın istər Birinci vitse-prezident, istərsə də Heydər Əliyev Fondunun prezidenti kimi genişmiqyaslı siyasi-ictimai fəaliyyətinin hər bir məqamı müstəqil Azərbaycan dövlətini sevməyin və Vətənə, xalqa xidmətin ən mükəmməl nümunələridir.

İki həftə əvvəl yaranmasının 20-ci ili tamam olan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini Azərbaycan cəmiyyəti haqlı olaraq xanım Mehriban Əliyevanın vətənpərvərliyinin, öz xalqının milli-mədəni və mənəvi dəyərlərinə olan dərin bağlılığının təcəssümü kimi qəbul edir. Ulu Öndər Heydər Əliyevin ideyalarını, xeyirxah və müqəddəs əməllərini yaşatmaq üçün ötən 20 ildə fondun sosial, mədəniyyət və humanitar sahələrdə həyata keçirdiyi saysız-hesabsız layihələr Prezident İlham Əliyevin müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsində əvəzsiz rol oynayaraq, cəmiyyətimizdə yüksək əhvali-ruhiyyəni, vətəndaş məmnuniyyətini təmin edir. Mehriban xanım Əliyeva hər zaman köməyə, qayğıya ehtiyacı olanların dayağı, kimsəsizlərin, müxtəlif xəstəliklərdən əziyyət çəkənlərin ümid yeri olub. Zaman-zaman səhhətində problem yaranmış elm, mədəniyyət, incəsənət xadimlərinin ölkəmizdə və xaricdə müalicəsinin həyata keçirilməsi, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların yenidən sağlam həyata qayıdışı üçün Bakıda Psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin, Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Reabilitasiya Mərkəzinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin, Autizm Spektr Pozuntulu Uşaqlar üçün Bərpa Mərkəzinin və onlarla müxtəlif xəstəxanaların inşası, 500-dən artıq orta məktəbin, uşaq evlərinin bərpası və ya yenidən qurulması xanım Mehriban Əliyevanın elmimizin, mədəniyyətimizin, milli genefondumuzun qorunmasına və inkişafına yönəlik fəaliyyətinin və vətənpərvərliyinin ayrıca nümunəsi və nümayişidir.

Azərbaycan muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği, mədəni-tarixi abidələrimizin bərpası, milli dəyərlərimizin UNESCO-nun irs siyahısına salınması yönündə fəaliyyəti isə Mehriban Əliyevanın milli dəyərlərimizə dərin sevgisini göstərir. Mehriban Əliyeva yalnız milli mədəniyyətimizin fəal təbliğatçısı deyil, həm də onun əzmkar qoruyucusudur. Bütün bunlarla Mehriban Əliyeva maddi və mənəvi mədəni irsimizin əsl sahiblərinin məhz xalqımız olduğunu dünyaya bəyan edir.

Son onilliklərdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi məzmunlu, tutumlu tədbirlər isə erməni yalanlarının ifşa edilməsində, Xocalı soyqırımının dünyada tanıdılmasında böyük rol oynamaqla, xarici siyasətimizin daha böyük uğur qazanmasına xidmət edib. Bu işdə Birinci xanım Mehriban Əliyevanın təşəbbüsləri hər bir azərbaycanlı üçün vətəni sevməyin əsl örnəyidir.

Son 3 il yarımda isə xalqımız Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin timsalında xanım Mehriban Əliyevanın böyük ürək sahibi olmasına, intəhasız vətən sevgisinə şahidlik edir. Heydər Əliyev Fondunun təşəbbüsləri ilə azad olunmuş ərazilərimizdə, xüsusən Şuşada tarixi və dini abidələrimizin bərpası ilə bağlı həyata keçirilən layihələr Mehriban Əliyevanın həm də fəal, əsl vətəndaşlıq mövqeyinin ifadəsidir. Bu layihələr nəticə etibarilə azad olunmuş ərazilərimizin daha sürətli və keyfiyyətli bərpasına xidmət edir.

Ümumilikdə isə, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident və Heydər Əliyev Fondunun prezidenti kimi məzmunlu və çoxşaxəli fəaliyyətinin hər bir istiqaməti Ulu Öndər Heydər Əliyevin ideyalarının həyata vəsiqə almasına, möhtərəm Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin daha böyük uğurlar qazanmasına xidmət edir. Cənab İlham Əliyevin yeni müddətə prezidentliyinin ötən 100 gününün reallıqları da məhz birinci xanım Mehriban Əliyevanın Azərbaycanın dövlət siyasətinə hərtərəfli layiqli töhfələr verdiyini tam miqyası ilə təsdiq edir.

### Naxçıvanın inkişafında yeni mərhələ başlayıb

Prezident İlham Əliyevin yeni müddətə dövlət başçısı kimi fəaliyyətinin ilk 100 gününün əsas göstəricilərindən biri də respublikamızda sosial-iqtisadi inkişafın davamlı olması, makroiqtisadi göstəricilərin yüksəlməsidir. 2024-cü ilin ötən dövründə ölkədə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunması respublikanın inkişafı ilə bağlı tam aydın təsəvvür yaradır.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi sferada yeni nailiyyətlər əldə olunub, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi təmin edilib.

2024-cü ilin ötən dövründə Naxçıvanda sosial-iqtisadi sahədə əldə olunan bəzi müsbət nəticələrə diqqət yetirsək, təkcə bu ilin ilk aylarında muxtar respublikada ümumi daxili məhsul istehsalının həcminin 200 milyon 800 min 700 manat və ya ötən ilin əvvəli ilə müqayisədə 2,7 faiz çox olması islahatların uğurlu nəticələrindən biri kimi qiymətləndirilməlidir. Bu dövrdə əhalinin hər nəfərinə düşən ÜDM istehsalı 2 faiz artaraq 428,3 manata çatıb. Bundan başqa, ilin əvvəlindən muxtar respublikada 91 milyon manatdan artıq sənaye məhsulu istehsal edilib ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 27 faiz üstələyir. Bu dövrdə nəqliyyat sektorunda yük və sərnişin daşınması, pərakəndə ticarət dövriyyəsi, əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıb ki, bütün bunlar muxtar respublikanın həm də bütün digər sahələrində yeni inkişaf mərhələsinin uğurlu olduğunu göstərir.

Təbii ki, dəyişikliklər yalnız iqtisadi sahədə deyil, digər sahələrdə də özünü göstərir. Görünən həm də odur ki, Naxçıvanda bütün istiqamətlərdə başlanan yeni islahatlar praktik şəkildə özünü doğruldur və muxtar respublikanın davamlı inkişafını təmin edən düzgün yol seçilib. Ən əsası, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin rəhbərliyi ilə qısa zamanda əldə edilmiş nailiyyətlər, hər bir yüksəliş nümunəsi təsdiq edir ki, Prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıq və tövsiyələr Naxçıvanda vaxtında və layiqincə icra olunur.

### COP29 Azərbaycanın dünyaya yeni təqdimatı olacaq

Qarşıdakı dövrdə Azərbaycanı milli prioritetlərin yerinə yetirilməsi ilə bağlı mühüm vəzifələr və həm də yeni nailiyyətlər gözləyir.

Eyni zamanda onu da qeyd etməliyik ki, Azərbaycanın ötən dövrdə regionda aparıcı dövlətə, dünyada söz sahibinə çevrilməsi nəinki qlobal mövqelərimizi gücləndirib, həm də respublikamıza qarşı olan qlobal ehtiram və etimadı artırıb. Azərbaycanın 2019-2023-cü illərdə BMT-dən sonra ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrliyi də bu etimadın təzahürü idi.

Bu ilin noyabrında isə Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. COP29 sıradan bir beynəlxalq tədbir deyil və ona evsahibliyi etmək dövlətin qlobal nüfuzu və mövqeyi ilə əlaqəli olan bir məsələdir. Bu baxımdan dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu Prezident İlham Əliyevin növbəti təntənəli uğurudur. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük nailiyyətidir. Eyni zamanda bu qərar Azərbaycana qarşı çirkin kampaniya aparan siyasi dairələrə və qaragüruhçu qüvvələrə də tutarlı cavabdır.

COP29 Azərbaycanın dünyaya yeni təqdimatı baxımından mühüm siyasi hadisə olacaq. Bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin uğurlarını, inkişafını, Vətən müharibəsindəki zəfərimizi bir daha dünyaya bəyan edəcək.

Sonda qeyd etmək istərdim ki, beynəlxalq təcrübədə belə 100 günlük müddət yeni seçilmiş prezidentin həm də özünü təsdiq etməsi baxımından mühüm siyasi qymətləndirmə hesab olunur. Lakin söhbət İlham Əliyev kimi liderlərdən gedirsə, belə dövlət başçılarının özlərini təsdiq etməsinə qətiyyən ehtiyac yoxdur. Çünki cənab İlham Əliyevin ötən 20 ildəki fəaliyyətinin nəinki hər prezidentlik müddəti və ya hər ili, hər ayı, hər günü belə özünütəsdiqin ən mükəmməl nümunəsidir.

**Bəxtiyar ƏSGƏROV,**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# 100 günün inkişaf və zəfər salnaməsi






# Lider qətiyyəti

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli dövlətçilik tariximizdə yeni bir strateji mərhələnin yaradıcısıdır. Görkəmli fikir adamlarımızın xalqımızın gələcəyi ilə bağlı amalları, yüz illər ərzində müəyyənləşən məqsədlərimiz məhz dövlətimizin başçısının ölkəmizə rəhbərliyi zamanında reallaşdı. Azərbaycan Prezidenti Ulu Öndər Heydər Əliyevin qarşıya qoyduğu aydın inkişaf istiqamətləri ilə müstəqil respublikamızı tarixinin ən qüdrətli intibah dövrünə yetirdi. Bununla da təxminən iki əsrin problemini həll etməyə nail oldu. Ordumuzun gücü ilə torpaqlarımızı düşmən tapdağından azad etdi. Azərbaycan Prezidenti xalqımızı ən böyük qələbəyə yetirən qüdrətli şəxsiyyət və güclü Liderdir.**

### Müqəddəs amal

Müasir qloballaşma dövründə insanlar vədlərdən çox real işlərə inanırlar. Ona görə də əsl liderlərin hər zaman güclü strateji hədəfləri olur. Böyük məqsədlər əldə edildikdən sonra dərhal qarşıya yeni vəzifələr qoyulur, bütün səylər həmin amallara doğru səfərbər edilir. Çünki dəyişiklik, inkişaf daim davam edən prosesdir və liderlər bunu hər kəsdən yaxşı duyaraq inkişaf proseslərinin davamlılığını, dayanıqlılığını təmin etmiş olurlar. Güclü lider həm də insanların dövlətçilik arzularını milli amala çevirir. Xalqı bu amal, ümumi ideya ətrafında birləşdirir və düzgün hədəflərə çatdırır. Bu il 7 fevral prezident seçkilərində də ölkə vətəndaşları Azərbaycanı tarixinin ən güclü dövrünə yetişdirən, son 20 ildə ğörülən işlərin, əməli addımların bu günün və gələcəyin reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirən, hazırkı milli inkişafın əsaslarını təşkil edən Liderinə - cənab İlham Əliyevə səs verdi. Bu, xalqın ümummilli etimadı, ölkə vətəndaşlarının birmənalı ictimai rəyi idi.

Artıq həmin tarixi hadisədən 100 gün ötür. Bu ərəfədə ölkənin inkişafına istiqamətlənən onlarca fərman və sərəncam imzalanıb, çoxsaylı tədbirlər, görüşlər keçirilib, xarici ölkə rəhbərlərinin səfərləri baş tutub. İşğaldan azad olunmuş yurd yerlərimizdə möhtəşəm bərpa-quruculuq, abadlıq işləri aparılıb, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında xüsusi layihələr həyata keçirilib. Bir sözlə, hazırda Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla reallaşdırılır. Bu gün Zəngilanın Ağalı kəndinə, Laçına, Şuşaya, Füzuliyə köç edən sakinlər əlamətdar və xoş günlərini yaşayırlar.

Öncə xüsusi olaraq vurğulanmalıdır ki, dövlətimizin başçısı müasir dünyamızdakı qloballaşmadan, yeni geosiyasi reallıqlardan irəli gələn mənzərənin tələblərinə cavab verən siyasi xəttin daşıyıcısıdır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, "dəmir məntiq" və möhkəm iradə - bütün bunlar Prezident İlham Əliyevin siyasi obrazını tamamlayan mühüm keyfiyyətlərdir.

Milli dövlətçilik təfəkkürünə bağlı olan ölkə rəhbəri əsrlərin süzgəcindən keçərək günümüzə gəlib çatmış mənəvi-əxlaqi sərvətlərimizə müsbət anlamda mühafizəkarlıq prizmasından yanaşır. Bu mənada millilik ölkə Prezidentinin siyasi düşüncəsinin, təfəkkürünün əsas mənbəyidir. Rəhbərin öz xalqının ruhuna uyğun olan balanslaşdırılmış siyasəti Azərbaycanın əbədi və əzəli milli maraqlarına istinad edir. Dövlətimizin başçısı İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meylləri, türk mədəni-əxlaqi dəyərləri, habelə Qərb və Avropa təmayülləri sintez təşkil edir.

Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyinin qorunub saxlanması naminə nümayiş etdirdiyi prinsipiallıq, ölkəmizdə köklü islahatların həyata keçirilməsindən ötrü ortaya qoyduğu qətiyyət, cəmiyyətdə qüsurlu hallara qarşı mübarizə sahəsində tutduğu əzmkar mövqe, dünyanın siyasi arenasında baş verən gərgin və dəyişkən proseslərdə, dörd bir yandan ölkəmizə qarşı yönələn xarici təzyiqlərə münasibətdə, qlobal təşəbbüslərin irəli sürülməsi və icrasında milli maraqlarımızla bağlı nümayiş etdirdiyi yüksək iradə, siyasi səbat və təmkin cənab İlham Əliyevin öz çevik və optimal qərarları ilə istənilən çətin situasiyadan ölkəni böyük hünərlə çıxara bilmək bacarığını göstərir. Bu baxımdan ölkə Prezidenti Azərbaycanın zəngin dövlətçilik irsinin müəyyən etdiyi yüksək amalları, böyük hədəfləri faktlaşdıraraq həyat gerçəkliklərinə çevirən qüdrətli siyasi fenomendir.

Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışı zamanı Azərbaycanın artıq daxil olduğu yeni strateji dövrün ümumi mənzərəsini də canlandırdı, əsas hədəflərini də diqqətə çatdırdı. Reallıq bundan ibarətdir ki, müstəqil dövlətimiz bu yeni dövrə tarixin ağır mirasından xilas olmuş, bir zamanlar həlli müşkül görünən problemləri uğurla yoluna qoymuş şəkildə, habelə əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş halda, milli qürurunu, ləyaqətini bərpa etmiş tərzdə daxil olur.

"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub" deyən Azərbaycan Prezidenti buna böyük əminliyini ifadə etdi: "Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan bayrağı ərazimizin hər bir yerində dalğalanacaq".

### Güc, nüfuz və düşünülmüş siyasət

Nüfuzu, özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə, başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Çünki ölkəmizin rəhbəri hər zaman xalqının yanındadır. Düzgün olanı dilə gətirir, düzgün qərarlar verir və başqalarına da yolun ən düzünü göstərir. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlət başçımızın baxışlarına böyük önəm verir, onunla ciddi məsələlərdə müzakirələr, məsləhətləşmələr aparırlar.

Prezident seçkilərindən sonrakı dövr Azərbaycan dövlətinin bir çox sahədəki böyük uğurları ilə yanaşı, diplomatik əlaqələrinin güclənməsi, bu istiqamətdə əldə etdiyi nailiyyətlərlə tarixə yazılır. Prezident İlham Əliyevin xarici səfərlərini, beynəlxalq toplantılarda iştirakı və çıxışlarını nəzərdən keçirdikdə ölkəmizin xarici siyasət xəttinin nə qədər məqsədyönlü şəkildə aparıldığını və gələcəyə hesablanmış aydın hədəflərinə çatdığını görə bilərik. Prezident İlham Əliyevin Türkiyəyə, Almaniyaya, Rusiyaya rəsmi və işgüzar səfərləri Azərbaycanın dünyanın bu aparıcı dövlətləri ilə münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini, bir-birinə qarşılıqlı inam və güvənini, əməkdaşlığın inkişafında maraqlı olduğunu göstərdi.

Azərbaycan Prezidentinin 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirakı, bu tədbir çərçivəsində qarşı tərəflərin istəyi ilə keçirdiyi çoxsaylı görüşlər ölkəmizin beynəlxalq aləmdə getdikcə artan qlobal rolunun, eləcə də zəmanəmizin ən parlaq liderlərindən biri kimi cənab İlham Əliyevin özünün şəxsi nüfuzunun göstəricisi oldu. Dövlət başçısı cəmi 2 gün ərzində 24 görüş keçirdi. Daha 10 görüş üçün Azərbaycan tərəfinə müraciətlər olsa da, fiziki olaraq vaxt baxımından onları reallaşdırmaq mümkün olmadı. Belə zəngin qrafik, ölkə rəhbərimizlə görüş və müzakirələrə belə böyük marağın olması Azərbaycanın dünyada getdikcə artan rolundan irəli gəlir.

Ümumən Münxen Təhlükəsizlik Konfransının dövlətimiz üçün yaratdığı tarixi mənzərə Azərbaycanın artıq "orta güc" ölkələri sırasında olduğunu və təkcə regional miqyasda deyil, qlobal miqyasda pozitiv gündəliyin formalaşmasına mühüm töhfələr verdiyini göstərir. Eyni zamanda yaxın gələcəkdə bu rolun, töhfələrin getdikcə artacağına işarə edir.

"Azərbaycan artıq lokal səviyyədə fəaliyyət göstərən dövlət deyil, dünyanın müxtəlif bölgələrində fəal tərəfdaşlığı təşviq edən, etibarlı tərəfdaş kimi qəbul olunan, dünyada qlobal problemlərin həllində fəal iştirak edən və buna əməli töhfələr verən ölkədir". Münxen görüşləri Azərbaycan Prezidentinin andiçmə mərasimində səsləndirdiyi bu fikirlərin daha bir əyani sübutu oldu. Bu, tarixi reallıqdır.

### Müasir dünyamızın çağırışları

Bu gün Azərbaycan dünya üçün həm də mədəniyyətlər arasında dialoqun uğurlu bir modelidir. Bu model qədim ənənələrə söykənir. Planetimizin bir çox məkanında hər kəsi təhdid edən qlobal problemlərin xalqların birgə səyləri ilə aradan qaldırılmasının, dünyada sülh və əmin-amanlığın təmin olunmasının əsas yolunun mədəniyyətlər arasında qarşılıqlı dialoqdan keçdiyi dünyamızın gələcəyini düşünən hamının inandığı həqiqətdir. Bu baxımdan dövlətimiz çox böyük bir tarixi missiyanı yerinə yetirir və bu il mayın əvvəllərində keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da eyni missiyanın davamıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət ölkəmizin sivilizasiyalararası dialoqda fəal və hərtərəfli iştirakını daha da genişləndirir və bu, daha intensiv formalar kəsb edir.

"Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu son illər Azərbaycanın evsahibliyi ilə təşkil edilən ən mühüm beynəlxalq tədbirlərdən biri kimi yadda qaldı. Mühüm beynəlxalq platforma kimi qlobal çevrədə böyük nüfuz qazanmış bu forumda 110 ölkənin nümayəndəsinin iştirak etməsi tədbirin əhatə dairəsinin, təsir imkanlarının, burada aparılan müzakirələrin əhəmiyyətinin daha bir göstəricisi oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçıları və ümumən dünya ictimaiyyəti ilə bölüşdüyü fikirlər ölkəmizin liderliyi ilə Cənubi Qafqazda yeni bir gələcəyin başlandığını göstərir. Bu gələcəyin mənzərəsi sülh, rifah, dayanıqlı inkişafdır.

### Sülhə doğru

Martın 14-də açılış mərasimi olan XI Qlobal Bakı Forumu müzakirəyə çıxarılmış mövzuların aktuallığı ilə yanaşı, mövcud problemlərin aradan qaldırılması üçün irəli sürülən həllər və beynəlxalq ictimaiyyətə əhəmiyyətli çağırışlarla, bu gün və gələcək üçün faydalı nəticələri ilə tarixdə qaldı. Foruma olan beynəlxalq maraq, iştirakçı kontingenti Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçısı olduğu Bakı Qlobal Forumunun da artıq Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq tədbirlərlə bir cərgədə qərarlaşdığını göstərir. Ötən il X Qlobal Bakı Forumu dünyamızın kifayət qədər gərginliklər içində olduğu çox çətin və mürəkkəb dövrə təsadüf etmişdir. 61 ölkədən 350 nəfərdən çox iştirakçının olduğu toplantıda "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusu müzakirəyə çıxarılmışdı. Həmin tədbirdə mövcud konfliktlərin çəkişməyə deyil, məhz qarşılıqlı müzakirə məcrasına yönəldilməsi, problemlərin üzə çıxarılaraq onlara birgə optimal həllərin tapılması, diqqətin bütün insanlığı narahat edən çağırışlara verilməsi iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Bu cür qlobal platformalar başqa bir cəhəti ilə də əhəmiyyətlidir. Belə tədbirlər Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa, ümumən regionda yaşanan tarixi reallıqlar ətrafında düzgün, məqsədyönlü kommunikasiya qurmağa imkan yaradır.

Bu il isə foruma rekord sayda iştirakçı qatılmışdı: 68 ölkədən 400-dən çox qonaq iştirak edirdi. Qonaqlar arasında 40-dan çox hazırkı və sabiq dövlət, hökumət başçıları vardı. Sürətlə dəyişən dünyamızda, qeyri-sabitlik üçün yeni səbəblərin və qarşıdurma ocaqlarının meydana çıxdığı müasir şəraitdə belə müzakirə və əməkdaşlıq platformalarına çox böyük ehtiyac var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumdakı çıxışı "Parçalanmış dünyanın bərpası" kimi son dərəcə mühüm bir mövzuya həsr olunmuşdu. Dövlətimizin başçısı çıxışında bildirdi ki, bu gün regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər. Əslində isə, onların daha geniş fəsadları var. Prezident İlham Əliyev bir il əvvəlki forumdan bu yana baş verən əsas geosiyasi dəyişikliyin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpası ilə əlaqədar olduğunu diqqətə çatdırdı: "Uzun illər ərzində münaqişənin sülh yolu ilə həllini tapmaq üçün fəaliyyət göstərdik. Uzun illər ərzində, o cümlədən İkinci Qarabağ müharibəsindən əvvəl hər il ədalətsizlik, işğal, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə danışırdıq və bu barədə danışmağa davam edirdik, çünki bu məsələnin beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmasını istəyirdik".

XI Qlobal Bakı Forumunda Azərbaycan Prezidentinin bəyanatında da qeyd edildiyi kimi, Qarabağ məsələsi öz həllini tapdıqdan sonra biz sülhə çox yaxınıq və Azərbaycan sülh prosesini davam etdirməyə hazırdır. Forumda o da vurğulandı ki, ölkəmizin öz ərazi bütövlüyünü təmin etmək üçün həyata keçirdiyi antiterror əməliyyatı ilə bağlı beynəlxalq reaksiyaların əksəriyyəti də tamamilə adekvat olub. Beynəlxalq birlik, müxtəlif ölkə və təşkilatlar öz açıqlamalarında, habelə pərdəarxası təmaslarda Ermənistanın qırmızı xətləri keçdiyini etiraf edib.

Hər münaqişənin öz tarixi, öz dinamikası və sonu var. Vacib məqam odur ki, ölkələr arasında mübahisələr beynəlxalq hüquq əsasında həll olunsun, onların ərazi bütövlüyü və suverenliyi güc hesabına dəyişdirilməsin.

### Quruculuq və inkişaf dövrü

Azərbaycanın ilk addımlarını atdığı bu yeni başlanğıcın əsas tarixi vəzifələrindən biri də şanlı Qələbəmizdən sonra Qarabağın, Şərqi Zəngəzurun tam bərpası, torpaqlarımızın minalardan təmizlənməsi, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qayıdışıdır. Bu məsələlər uğurla yerinə yetirilir. Ölkəmizin iqtisadi göstəriciləri də inkişaf tempinin bərpa olunduğunu göstərir.

Bu il mayın 8-də həyatımızda daha bir mühüm tarixi hadisə baş verdi. Mədəniyyət paytaxtımız olan Şuşa şəhərinin ilk sakinləri 32 illik ayrılıqdan sonra doğma yurdlarına köçüb yeni mənzillərində yerləşdilər. Qısa müddətdə Şuşada sakinlər üçün tikilmiş, şəhərin tarixi irsinə uyğun memarlıq üslubu ilə gözoxşayan yaşayış kompleksi dövlətimizin daha bir uğur rəmzinə çevrildi. Ordumuzun gücü ilə torpaqlarımızı işğaldan azad etmiş, Azərbaycan dövlətinin ərazi bütövlüyünə, suverenliyinə nail olmuş Müzəffər Ali Baş Komandan İlham Əliyev azad yurdlarımızın dirçəldiləcəyi ilə bağlı verdiyi sözləri də tutdu və bunun üçün böyük imkanlar da yaratdı.

Azərbaycan Prezidentinin də şəhər sakinləri ilə görüşündə qeyd etdiyi kimi, bu unikal məkanda hər şey çox müfəssəl və dəqiq, ən müasir şəhərsalma qaydalarına uyğun planlar əsasında qurulur.

Azərbaycan Prezidenti bəşəriyyətin xoşbəxt gələcəyini qarşıdurmalarda, ziddiyyətlərdə deyil, məhz əməkdaşlıqda, problemlərə birgə həllər axtarmaqda görür. Vətən müharibəsi tarixi dəyişdi, həyatımızda yeni başlanğıcların əsasını qoydu, eyni zamanda düşüncələrdə də böyük dəyişikliklərə yol açdı. Bu gün tarix səhnəsində ötən əsrlərin ən böyük Zəfərini qazanmış, dövlətimizin, ordumuzun, milli vəhdətimizin verdiyi ruhla sarsılmaz gücə sahib xalqımız, qətiyyətli Liderin mətin iradəsi və tarixinin ən qüdrətli mərhələsinə yetişmiş Azərbaycan dövləti var. Prezident İlham Əliyevin yeni dövr üçün apardığı siyasətdə əsas amal, əsas niyyət Cənubi Qafqazı sülh, əməkdaşlıq, davamlı inkişaf məkanına çevirməkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Doğru seçim

**7 fevral 2024-cü il tarixi xalqımızın yaddaşında əbədi olaraq qalacaq. Çünki həmin gün müstəqillik qazandıqdan sonra xalqımız tarixində ilk dəfə olaraq ərazi bütövlüyünün tam bərpa edildiyi şəraitdə dövlət başçısını, Liderini seçdi. Həmin gün xalqımız növbəti dəfə düzgün seçimini edərək qalib xalqın qalib Lideri olan Prezident İlham Əliyevə səs verdi.**

Dövlət başçısı fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxışı zamanı görülmüş və gələcəkdə görüləcək işlərdən ətraflı danışdı. Xalqımız və ölkəmiz üçün yeni dövrün başlandığını nəzərə çatdıran Azərbaycan Prezidenti dedi: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir".

Bu gün böyük fəxr və iftixarla deyə bilərik ki, Prezident İlham Əliyev ötən 100 gün ərzində dövlət başçısı kimi fəaliyyətində Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sadiqliyini bir daha nümayiş etdirdi. Ötən qısa müddət ərzində ölkəmizin hərtərəfli inkişafında mühim uğurlar qazanılmış, bütün sahələrdə həyata keçirilən islahatlar sürətləndirilmişdir. İşğaldan azad olunmuş ərazilərdə aparılan böyük bərpa və quruculuq işləri daha geniş vüsət almışdır.

Prezident İlham Əliyevin 100 gün ərzində gördüyü böyük işlər, müxtəlif ölkələrə etdiyi səfərlər, dövlət və hökumət başçıları ilə görüşləri, yerli və xarici jurnalistlərə verdiyi müsahibələr, işğaldan azad edilmiş ərazilərdə bünövrəsini qoyduğu müxtəlif təyinatlı obyektlər bu 100 günün qısa siyahısıdır. Bu müddət ərzində Prezident Özbəkistanın, Qazaxıstanın, Qırğızıstanın və Belarusun dövlət başçıları ilə işğaldan azad edlmiş ərazilərə səfərlər etmişdir. Bu səfərlər zamanı dövlətimizin başçısı şəhər və kəndlərimizdə görülən işlər barədə dost ölkələrin rəhbərlərini ətraflı məlumatlandırmış, görülmüş və görüləcək işlərdən danışmışdır. Bu səfərlər zamanı neçə-neçə yaşayış məntəqəsinin, təhsil ocağının və başqa həyat əhəmiyyətli müəssisələrin bünövrəsi qoyulmuşdur.

Azərbaycanın və onun xalqının taleyinə görə məsuliyyət cənab İlham Əliyevin üzərinə cavan yaşlarından düşmüşdür. İlk dəfə Azərbaycan xalqının yekdil dəstəyi ilə Prezident seçiləndə onun 42 yaşı vardı. Müasir dünya tarixində araşdırılma aparsaq, bu yaşda olan dövlət başçısına nadir hallarda rast gəlmək mümkündür. Prezident İlham Əliyev əsas vəzifəsini doğma xalqına, Vətəninə xidmətdə görür və bütün məmurlardan da təkidlə bunu tələb edir. Dövlət başçısının yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onu narahat edən qayğılar dayanır. Prezidenti də xalqa ən çox sevdirən, ən çox rəğbət qazandıran amillərdən biri və birincisi də budur. Elə buna görə də xalq öz Liderinə bütün zamanlarda böyük dəstək göstərib və göstərməkdə də davam edir.

Uzun illərin aparılan hərtərəfli müşahidələri onu göstərir ki, Prezident İlham Əliyev şəxsi xidmətlərini qabartmağı xoşlamır. Azərbaycan xalqı 2003-cü ildə çox müdrik seçim edərək, gələcək taleyini Ulu Öndərin siyasi varisi İlham Əliyevə etibar etdi. Sözsüz ki, bu seçim Heydər Əliyev kursunun uğuru ilə yanaşı, onun varisinə olan yüksək inam və etimaddan qaynaqlanırdı. Arxada qalmış zaman bir daha sübut etdi ki, Azərbaycan xalqı bu seçimi ilə çox müdrik addım atıb.

Prezident İlham Əliyev bu gün yüksək tribunalardan ikili standartları çəkinmədən tənqid edir, Azərbaycan xalqının milli maraqlarını qətiyyət və cəsarətlə qoruyur. Məhz qalib xalqın qalib Liderinin qətiyyətinin, iradəsinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan heç kimin qarşısında baş əymir, sözünü cəsarətlə deyir. Buna görə də Azərbaycan dünyada söz sahibinə çevrilib. Prezident İlham Əliyev qətiyyəti və sarsılmaz iradəsi ilə həssas regionda yerləşən Azərbaycanı təhlükəsizlik adası, müasir iqtisadiyyata malik ölkə səviyyəsinə qaldırıb. Onun həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə sabitlik hökm sürür.

İnamla deyə bilərik ki, bu gün Azərbaycan xalqı tarixinin ən şərəfli və qürurverici günlərini yaşayır. İftixarla deyə bilərik ki, biz qalib xalqın övladlarıyıq. Qalib xalqın övladı olmaq isə şərəfdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# 100 günün inkişaf və zəfər salnaməsi



**Bu il aprelin 16-da "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun ərazisində quraşdırılmış yeni platformadan ilk neft əldə edildi. Bu hadisə AÇG sazişinin 2050-ci ilin əvvəlinədək uzadılmasını təcəssüm etdirən "Azəri Mərkəzi Şərqi"(ACE) layihəsi çərçivəsində baş verdi.**

Başqa sözlə, bu, "Əsrin müqaviləsi"nin ömrünün uzanması deməkdir. "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının təməli, başlanğıcı idi. Bu qlobal saziş çərçivəsində yeni-yeni uğurların qazanılması isə Prezident İlham Əliyevin enerji strategiyasının bəhrəsidir. O cümlədən "Yeni əsrin müqaviləsi" adlandırılan ACE layihəsinin reallaşması da.

Yeni saziş 2017-ci ilin sentyabrında imzalanmışdı və həmin vaxtdan aparılan işlər keçən ilin sonunda ACE platformasından ilk quyunun qazılması ilə davam etdi. Hasilatın isə bu ilin ilk aylarında əldə olunacağı proqnozlaşdırılırdı.



# COP29-un ev sahibi

## Yeni ACE neft platforması hasilata başladı

Fevralın 7-də Azərbaycan xalqı İlham Əliyevi yenidən yekdilliklə özünə rəhbər seçdi. Müdrik Prezidentimizin göstərdiyi yol aydın, strategiyası uzaqgörən, xeyir-duası ilə başlanan hər bir iş uğurludur. ACE layihəsinin müvəffəqiyyətlə işlənməsi və eyniadlı platformanın istismara daxil olması İlham Əliyevin düzgün enerji siyasətinin nəticəsində gerçəkləşdi. ACE-dən ilk neft hasil olundu və həmin hadisə Prezident seçkilərindən ötən 100 günün daxilində baş verdi. Bu, nə təsadüf idi, nə də ilk neftin alınması üçün dəqiq bir vaxt təyin edilmişdi. Bu, bir qanunauyğunluqdur, görülən böyük işlərin xoş bir zamanda inikasıdır. Bəlkə də təbiətin çəkilən zəhmətlərə görə məhz bu məqamda ürəkaçan bir mükafatıdır.

ACE texnoloji və rəqəmsal baxımdan AÇG layihəsinin əməliyyatçısı olan BP-nin dünyada ən qabaqcıl, həmçinin qurudan idarə etdiyi ilk platformadır. O, nəhəng "Azəri-Çıraq-Günəşli" yataqlarında quraşdırılmış hasilat platformaları sırasında yeddincidir. AÇG-dən ilk hasilat 1997-ci ildə başlanıb və həmin vaxtdan indiyədək yataqdan 4,3 milyard bareldən çox neft hasil edilib. Yeni ACE platforması və qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil ediləcəyi proqnozlaşdırılır. 2024-cü il ərzində platformadan daha iki quyunun qazılıb istismara verilməsi planlaşdırılır. Bununla da ACE-dən hasilatın tədricən artaraq ilin sonuna gündə təxminən 24 min barelə çatacağı gözlənilir.

Bundan əlavə, Xəzər dənizində BP-nin əməliyyatçısı olduğu "Şahdəniz" qaz yatağında daha iki platforma istismardadır. Yeri gəlmişkən: "Şahdəniz"i haqlı olaraq İlham Əliyevin enerji siyasətinin şah əsəri adlandırırlar. 1997-2001-ci illərdə "Şahdəniz" strukturunda qazılmış kəşfiyyat və qiymətləndirmə quyuları onun dünya səviyyəli qaz-kondensat yatağı olduğunu təsdiq edib. Bu, həmin dövr idi ki, İlham Əliyev SOCAR-da çalışırdı. (1994-2003-cü illərdə şirkətin əvvəlcə vitse-prezidenti, sonra birinci vitse-prezidenti vəzifəsində işləyirdi). Prezidentimizin həmin vəzifələrdə işləyərkən "Şahdəniz"in kəşf edilməsində və işlənilməsində böyük rolu olub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz son 21 ildə enerji sahəsində də bir sıra qlobal və strateji layihələr reallaşdırıb. Elə bir layihələr ki, onlar Avropanın enerji xəritəsini dəyişdirib. Azərbaycan artıq dünyada qaz ixracatçısı kimi də tanınır. "Şahdəniz"dən çıxarılan mavi yanacaq 2006-cı ilin sonundan Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana, 2007-ci ilin ortalarından isə Bakı-Tbilisi-Ərzurum kəməri ilə Türkiyəyə ixrac edilir. 2018-ci ildə Azərbaycanın təşəbbüsü və liderliyi ilə çəkilən "Cənub qaz dəhlizi"nın rəsmi açılışı oldu. Bu gün Azərbaycan Avropanın qaz təchizatında mühüm rol oynayır. Belə ki, ölkəmiz qoca qitənin enerji təminatında strateji və etibarlı tərəfdaşa çevrilib. İndi Azərbaycan Gürcüstan və Türkiyədən başqa 6 Avropa ölkəsinə - Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Serbiya və Macarıstana qaz ixrac edir və bu, son hədd deyil.

Prezident İlham Əliyev ötən illər ərzində mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. İndi ölkəmiz qlobal enerji keçidi çağırışlarına uyğun olaraq, xarici investorlarla əməkdaşlıq çərçivəsində bərpaolunan enerji mənbələrinin səmərəli istehsalını təşkil edir.

Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərimizi və Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonası elan edib. Ölkənin ayrı-ayrı yerlərində artıq bir sıra layihələr uğurla icra olunub, bir çoxu gerçəkləşməsinin müxtəlif mərhələlərindədir. "Yaşıl enerji"nin də dünya bazarlarına çıxışı hazırda Azərbaycanın enerji siyasətinin prioritetlərindəndir.

2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. COP29-a evsahibliyi etməyimizin kökü də İlham Əliyevin bünövrəsi möhkəm olan, gələcəyi isə daha da şaxələnmiş olacaq enerji strategiyasından qaynaqlanır.

"COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq" deyib Prezident İlham Əliyev. Dediyi isə, həmişəki kimi, yenə də olacaq!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Yeni tarixi dövrün strateji mərhələsi

## İlham Əliyevin prezidentliyinin ilk 100 günündə dövlətin və xalqın mühüm tarixi hədəfləri reallaşdı

**7 fevral 2024-cü ildə keçirilmiş prezident seçkiləri ölkəmizin müstəqillik tarixinə Zəfər seçkisi kimi daxil oldu. Prezident İlham Əliyevin böyük səs çoxluğu ilə qazandığı parlaq Qələbə iyirmiillik prezidentlik fəaliyyətinin dövlət və xalq qarşısında mükəmməl hesabatına, yeni tarixi dövrün başlanğıcına çevrildi.**

### Böyük siyasi iradənin təcəssümü

Məhz bu müddət ərzində Azərbaycanda bütün sahələrdə dayanıqlı və davamlı inkişafa nail olunmuş, xalqımızın rifah halı yaxşılaşmış, ölkəmizin beynəlxalq arenada nüfuzu və mövqeyi yüksəlmişdir. Bu səbəbdəndir ki, müdrik Azərbaycan xalqı böyük qürur və qətiyyətlə Prezident İlham Əliyevə səs verməklə, yeni zəfərlərə doğru gələcəyinə, tərəqqi və rifah dolu parlaq sabahlarına yol açmış oldu. Məhz bunun real göstəricisidir ki, böyük siyasi-tarixi önəmə sahib 7 fevral 2024-cü il tarixli prezident seçkisi ölkəmizdə yeni dövrün, yeni inkişaf mərhələsinin başlanğıcı olmaqla yanaşı, ilk dəfə idi ki, suveren Azərbaycan Respublikasının bütün ərazisində keçirilirdi.

Boş vədlərə deyil, real siyasətə, əmələ inanan müdrik xalqımız güclü birlik nümayiş etdirərək, sevinc əhvali-ruhiyyəsi ilə seçkidə aktiv iştirak edib layiqli namizədə səs verməklə ölkəmizə qarşı qərəzli mövqe sərgiləyən, demokratiya pərdəsi altında öz çirkin niyyətlərini yürütməyə çalışan bütün mənfi qüvvələrə əsl demokratiya və bərabərlik dərsi keçdi. Bir sözlə, sonuncu prezident seçkisi 20 illik müqəddəs missiyanın yekunu, ölkəmizdə inkişafdan intibaha yol açan yeni ideallar və milli hədəflərə söykənən böyük səadət dövrünün carçısı oldu.

Vətən müharibəsinin başa çatmasından ötən qısa müddətdə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün təsdiqidir. Tarixi Zəfərimizdən sonra milli-strateji vəzifə kimi qarşımızda duran ən mühüm məsələlərdən biri xalqımızın üzün illərdir gözlədiyi Böyük qayıdışın reallaşdırılmasıdır. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrası uğurla həyata keçirilir. Azərbaycan işğaldan azad edilmiş ərazilərə üç onillik ərzində ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın Böyük qayıdışını yüksək səviyyədə təmin etməkdədir.

Zəngilanın Ağalı kəndi Böyük qayıdışın ilk müjdəsi idisə, bu ilin 10 may - əlamətdar tarixi gündə ilk mərhələdə Şuşa şəhərinə 20 ailə - 88 nəfərin və Laçın rayonunun Sus kəndinə isə 20 ailə - 75 nəfərin köçürülməsi bu proqramın necə dəqiqliklə hazırlandığını, sürətlə və ardıcıl şəkildə gerçəkləşdiyini göstərdi. Eyni zamanda qısa müddətdə nəhəng infrastruktur layihələrinin icrasının başa çatdırılması torpaqlarımızın xilaskarı Müzəffər Ali Baş Komandanın böyük siyasi iradəsinin təcəssümüdür.

### Yeni geosiyasi və tarixi reallıq

Cənubi Qafqazın dünya siyasi və iqtisadi məkanına inteqrasiya prosesində artıq söz Azərbaycanındır. Bu, ədalətli və qətiyyətli mövqeyi, birmənalı olaraq ölkə Prezidentinin qlobal miqyasda nüfuzlu Lider olmasının nəticəsidir. Bunu son proseslər də bir daha bütün dünyaya bəyan etdi. İstər 5 aprel 2024-cü ildə Brüssel görüşünün təşkilatçıları olan ABŞ Dövlət katibi Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen görüşdən əvvəl Prezident İlham Əliyevə zəng edərək üçtərəfli görüşün təfərrüatlarını müzakirə etməsi, istərsə də Qarabağdan vaxtından əvvəl sülhməramlıların çıxarılması, 4 qeyri-anklav kəndin bir güllə atılmadan, qan tökülmədən ölkəmizə qaytarılması Azərbaycanın şanlı tarixi və bu tarixin müəllifi Prezident İlham Əliyevin dünyada artan nüfuzunun və siyasi lider kimi qəbul olunmasının göstəricisidir.

Rusiya sülhməramlılarının Qarabağı vaxtından əvvəl tərk etməsi Azərbaycan Prezidenti İlham Əliyevin apardığı uzaqgörən, uğurlu xarici və daxili siyasətin nəticəsidir. Artıq Azərbaycan özünün qurduğu düzgün, şəffaf və qətiyyətli xarici siyasəti ilə bütün sahələrdə uğurlar qazanır. Məsələnin uğurlu və operativ şəkildə həlli ilk növbədə Azərbaycan diplomatiyasının uğuru və ən başlıcası isə Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Bu faktın özü bir daha sübut etdi ki, Azərbaycan liderinin "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fikri təsadüfi deyil. Azərbaycan Prezidentinin atdığı addımlar, həyata keçirdiyi tədbirlər publikaya yox, milli və dövlət maraqlarına xidmət edir. Belə vəziyyətdə isə bəzən zamana ehtiyac duyulur. Düşünülmüş, müstəqil və uzaqgörən siyasət hər zaman uğur gətirir. Azərbaycan tərəfi dəfələrlə sülhməramlı qüvvələrin ərazidə qalma müddətini uzatmayacağını qeyd edirdi. Belə də oldu. Rusiya sülhməramlılarının ölkəmizi tərk etməyə başlaması İkinci Qarabağ müharibəsindən, o cümlədən Qarabağda separatizmə son qoyulduqdan sonra növbəti uğurumuz və qələbəmiz oldu.

Cənab Ali Baş Komandan Yaxın Şərqin və postsovet ölkələrinin siyasi tarixində son 200 ilə yaxın bir dövrdə görünməmiş bir hadisəni reallığa çevirdi. Azərbaycan bütün dünyada ilk dəfə olaraq sülh yolu ilə sülhməramlıları öz ölkəsinə göndərdi.

### Xalqa növbəti ərməğan

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi Komissiyasının 8-ci görüşünün yekunlarına dair açıqlama 4 qeyri-anklav kəndin qaytarılması, 200 ildən artıq bir dövrdə itirilən Azərbaycan torpaqlarını addım-addım toplayan cənab İlham Əliyevin xalqa növbəti hədiyyəsi və ərməğanı oldu.

Qeyri-anklav kəndlərin qaytarılması məsələsini 2020-ci ilin noyabrında üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra Prezident İlham Əliyev qaldırmışdı və bu müddət ərzində mövzu daim gündəlikdə saxlanıldı, bu istiqamətdə ardıcıl iş aparıldı. Bütün ali tribunalardan ölkəmiz birmənalı şəkildə bəyan və xəbərdarlıq edirdi ki, Ermənistan davamlı sülh istəyirsə, öz gələcəyini düşünürsə, bəzi dövlətlərin köləsi olaraq yaşamaq istəmirsə, işğal etdiyi ərazilərdən qeyd-şərtsiz çıxmalıdır, Azərbaycan torpaqlarının bir qarışının belə işğal altında qalmasına imkan verməyəcək. Və belə də oldu, ölkəmizin ermənipərəst dairələrin məkrli niyyətlərinə rəğmən həyata keçirdiyi ardıcıl və düşünülmüş siyasət əlamətdar tarixi günləri yaşamağı bizə nəsib etdi. Beləliklə, 44 günlük müharibədə qələbədən, 2023-cü ilin sentyabrında suverenliyin tam bərpasından, rusiyalı sülhməramlıların bölgədən çıxmasından sonra Azərbaycan Lideri bu dəfə də bir güllə belə atmadan 4 qeyri-anklav kəndi işğaldan azad etdi. Nəticədə əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addım oldu. Delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə baş verdi.

Bütün deyilənlərin fonunda belə bir həqiqət də öz təsdiqini tapır ki, güclü və müdrik lideri olan dövlət qarşısında duran bütün məqsədlərə nail ola bilir. Bu baxımdan Vətən müharibəsindən sonrakı bütün proseslərə, ən son 4 qeyri-anklav kəndin qaytarılmasına da nəzər salsaq, Prezident İlham Əliyevin siyasi-diplomatik müstəvidə birmənalı olaraq ən önəmli LİDER olduğu bir daha aydın görünür.

### Regional güc mərkəzi

Bu gün Azərbaycanın yüksəksəviyyəli mötəbər tədbirlərə uğurla evsahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Azərbaycan mühüm beynəlxalq qurumlarda sadəcə üzv kimi təmsil olunmur, həm də bir çox qərarın qəbulunda və icrasında yaxından iştirak edir.

23 aprel 2024-cü il tarixdə keçirilən "COP 29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda ölkə Prezidenti cənab İlham Əliyevin çıxışı dünya dövlətlərinə ölkəmizin nə qədər təhlükəsiz, bölgədə sülh və davamlı inkişafın təminatçısı olduğunu bir daha nümayiş etdirdi. Üçüncü Dünya müharibəsinin izlərinin göründüyü, müxtəlif qütblərdə xaos və anarxiyanın tüğyan etdiyi bir zamanda ölkəmiz sabit, təhlükəsiz bir bölgəyə çevrilib. Təbii ki, bütün bu nailiyyətlərin, uğurların müəllifi siyasi lider cənab İlham Əliyevdir. Onun yaratdığı reallıqlardır.

"COP 29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum dünya dövlətlərinə bir daha nümayiş etdirdi ki, Azərbaycanın gücü bütün komponentlərin paralel və balanslı inkişafında, daxili sabitliyin təminatında, ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsində, onun regional güc mərkəzinə çevrilməsindədir.

Dünyada qeyri-sabitlik və qarşıdurma ocaqlarının artdığı və Avrasiya miqyaslı geosiyasi dəyişikliklərin baş verdiyi bir zamanda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi də deyilənlərin real təsdiqidir. Qlobal əhəmiyyət kəsb edən beynəlxalq məsələlərin həlli üçün Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən forum Azərbaycanın bəşəri problemlərə biganə olmadığını və qloballaşan dünyada həm də Cənubi Qafqazda baş verən hadisələrə yeni bir baxış bucağı sərgilədiyini nümayiş etdirdi.

2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başladılmış, mədəniyyətlərarası dialoq sahəsində yeganə qlobal platforma olan "Bakı Prosesi" mənəvi-mədəni dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təşəbbüsü ilə müxtəlif mədəniyyətlər və dinlər arasında səmərəli dialoqun qurulması məqsədilə irəli sürülmüş və qlobal hərəkata çevrilmiş "Bakı Prosesi" çərçivəsində müntəzəm olaraq Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, eləcə də Dünya Dini Liderlərinin Sammiti və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumu təşkil edilir. Mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verən və artıq Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilən bu cür tədbirlər ölkəmizin tolerantlıq mühitinin təbliği baxımından da son dərəcə önəmlidir.

2011-ci ildən bu günə qədər keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında aparıcı rolunun bir daha bütün dünyaya sübutu olmaqla yanaşı, həm də ciddi bir beynəlxalq platformaya çevrildiyini göstərdi.

### Yeni reallıq yaradan Lider

Cənab İlham Əliyevin prezident fəaliyyətinin ötən 100 gününün uğurları, tarixə yazdığı möhtəşəm qələbələri deməyə əsas verir ki, dövlətimizin başçısının qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaq üçün istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə düşünülmüş və məqsədyönlü siyasəti, uzaqgörən qərarları tarixinin ən qüdrətli Azərbaycanını daha möhtəşəm gələcəyə aparır. Prezident İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi qarşıya qoyan və bütün qüvvəsini bu vəzifələrin reallaşmasına səfərbər edən, milyonların sevgisini qazanan LİDERdir.

Avropa ölkələrinin liderləri də cənab İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi qəbul edirlər.

Bütün deyilənlərin fonunda belə bir həqiqət də öz təsdiqini tapır ki, güclü və müdrik lideri olan dövlət qarşısında duran bütün məqsədlərə nail ola bilir. Bu baxımdan tariximizə qızıl hərflərlə həkk olunan ötən 100 gün Prezident İlham Əliyevin siyasi-diplomatik müstəvidə birmənalı olaraq ən önəmli LİDER olduğunu bir daha təsdiqləyir.

*Arzu ABDULLAYEV,*
*Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

# 100 günün inkişaf və zəfər salnaməsi







**"Mən də bilirdim, mən də inanırdım və Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim".**

# 17 köç, 445 ailə, 1699 nəfər...

## 100 günün qayıdışı









Düz 32 illik yurd həsrətindən sonra Şuşaya qovuşan ilk sakinlərlə mayın 10-da - Ulu Öndər Heydər Əliyevin 101-ci doğum günündə görüşü zamanı qalib lider İlham Əliyevin milli qürur, fəxr və xoşbəxtlik hissləri ilə dilə gətirdiyi kimi, ötən 20 illik Prezidentliyi dövründə siyasətinin prioritetini torpaqlarımızın işğaldan azad edilməsi və keçmiş məcburi köçkünlərimizin dədə-baba torpaqlarına qayıdışı təşkil edib.

Azərbaycan xalqı İlham Əliyevin bir dövlət başçısı, vətənpərvər şəxsiyyət kimi qarşısına qoyduğu bu milli hədəfə doğru əzm, iradə, qətiyyət, ən əsası inamla addımlayaraq zirvəyə yetirməsinə 2020-ci ilin Şuşa, 2023-cü ilin Xankəndi qələbələri ilə şahid oldu.

İndi xalqımız Prezident İlham Əliyevin şəxsi diqqəti ilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq zəfərinə, qayıdış köçləri ilə öz yurdlarına qovuşdurulan keçmiş məcburi köçkünlərin sevinclərinə şahidlik edir.

### Müjdə

Əslində, tarixi torpaqlarımızın azadlığından cəmi ilyarım sonra Zəngilanın Ağalı kəndinin sakinlərinin vətənlərinə qayıdışlarına start verilməsi ilə bütün keçmiş məcburi köçkünlərimizin tezliklə yurdlarına qovuşdurulacağının müjdəsi verilmişdi.

2022-ci il iyulun 19-da gerçəkləşən həmin tarixi köçdən sonra isə Qarabağa və Şərqi Zəngəzura üz tutan qayıdış karvanlarının, doğma sakinlərinə qovuşan ərazilərimizin sayı gündən-günə artmağa başladı. Bu gün həmin cərgədə Füzuli, Şuşa, Laçın şəhərlərinin, Zabux, Sus, Talış kəndlərinin adlarını görməyimiz ürəklərimizdə təsvirəgəlməz sevinc hissi yaradır. Hər birimizin könlü şadlanır ki, tezliklə Kəlbəcər də, Ağdam da, Cəbrayıl da, Qubadlı da, Xocalı, da Xankəndi də... qayıdış karvanlarına "xoş gəldin" deyən bəxtəvər diyarlara çevriləcəklər.

Azərbaycan dövlətinin cəmi 4-5 il əvvələ qədər bir həyat nişanəsi belə tapılmayan Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi dünyada misli bərabərinə rastlanmayan tikinti və quruculuq işləri isə o günlərin çox da uzaqda olmadığının xoş sorağını yetirir.

Məhz sadalanan bu tarixi hadisələrin nəticəsidir ki, 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində xalqımızın əksər üzvü kimi, keçmiş məcburi köçkünlər də Qarabağ və Şərqi Zəngəzuru azad edən, ölkəmizin suverenliyini bərpa edən, Vətəni bütövləşdirən layiqli Prezidentinə səs vermək üçün seçki məntəqələrinə axın etdi. Bir nəfər kimi onları vətəndə qəribçilikdən qurtararaq yurdlarına qovuşduran qalib liderə səs verdi, bununla xilaskarı saydığı insana minnətdarlığını bildirdi, mənəvi borcunu ödədi.

Çünki bütün keçmiş məcburi köçkünlər də bilirdi ki, İlham Əliyev onların yurd həsrətinin sona yetməsi üçün gecə-gündüz necə çalışır, təkcə torpaqlarımızı işğal edən düşmənlə deyil, ona dəstək verən böyük güclərlə çarpışır.

Hətta Vətən müharibəsindən sonrakı müsahibələrinin birində "...Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!" deyən Prezident İlham Əliyevin ötən müddətdə gündəliyində duran ilk məsələ yurdundan didərgin salınmış vətəndaşlarımızın torpaqlarına qovuşdurulması idi.

Eyni zamanda 2024-cü il mayın 10-da Laçının Sus kəndinin doğma sakinləri ilə görüşü zamanı da İlham Əliyev ürək ağrısı ilə bu insanlarımızın illər boyu çəkdikləri əzab-əziyyətləri bir daha yada salmışdı: "Xalqımızın tarixi həm şərəflidir, həm kədərlidir. Ancaq bizim tariximizdə keçmiş köçkünlər qədər əziyyət çəkən insanlar olmayıb. Həm mənəvi əzab, həm fiziki əziyyət, həm torpaqların itirilməsi, öz yaxınlarının məzarlarını ziyarət edə bilməməyiniz - bu dərdin misli-bərabəri yoxdur".

### Möhtəşəm qayıdışın rəqəmlərdə əksi

Məhz keçmiş məcburi köçkün vətəndaşlarımıza olan həssas münasibətin təzahürüdür ki, İlham Əliyev 2024-cü ildə prezident səlahiyyətlərinin icrasına başladığı müddətdən ötən yüz gün ərzində də Qarabağ və Şərqi Zəngəzura dəfələrlə qayıdış köçü həyata keçirilib, yüzlərlə ailə öz isti od-ocağında xoşbəxt yaşamağa başlayıb.

Ötən 100 günün qayıdış statistikasına nəzər salanda da bunu aydın görmək mümkündür.

Qeyd edək ki, bu tarixlər arasındakı dövrdə Laçın şəhərinə 62 ailə - 211 nəfər, Laçın rayonunun Zabux kəndinə 10 ailə - 26 nəfər, Sus kəndinə 20 ailə - 75 nəfər, Füzuli şəhərinə 295 ailə - 1163 nəfər, Şuşa şəhərinə 58 ailə - 224 nəfər qayıdıb.

Sözügedən tarixlərdə bu şəhər və kəndlərimizə 17 köç, 445 ailə, 1699 nəfər qayıdıb.

Ümumiyyətlə, Böyük qayıdış proqramının uğurlu icrasının sayəsində keçmiş məcburi köçkünlər mərhələ-mərhələ dədə-baba torpaqlarına qovuşurlar. 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qaytarılması ilə start verilən Böyük qayıdış ötən il də davam etdirilib. Belə ki, 2023-cü ilin mart ayında Tərtərin Talış kəndinin, may ayında Laçın şəhərinin, avqust ayında Füzuli şəhərinin və Laçın rayonunun yenidən salınan Zabux kəndinin sakinləri yurdlarına qovuşublar. Ötən il ərzində fərqli tarixlərdə sadalanan ərazilərə xeyli qayıdış həyata keçirilib.

2024-cü ilin ilk ayında da işğaldan azad edilən yurdlarımıza dəfələrlə qayıdış köçü olub. Yanvarın 18-dən etibarən müxtəlif tarixlərdə beş köç karvanı Füzuli, biri isə Laçın şəhərinə yola salınıb. Ümumiyyətlə, bu ilin fevral ayına qədər təxminən 5400 keçmiş məcburi köçkün öz doğma yurd-yuvasında xoşbəxt yaşama başlayıb.

Bu möhtəşəm statistikanın özü də göstərir ki, Prezident İlham Əliyevin qarşıdakı mühüm hədəflərindən biri Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi və qayıdışın həyata keçirilməsidir.

### Əbədi qayıdış

2024-cü il fevralın 14-də andiçmə mərasimində İlham Əliyev bildirdi ki, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlər qayıdacaq: "Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır".

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib. Hazırda bu proqram müvəffəqiyyətlə icra olunur və azad edilmiş torpaqlarda vüsət alan genişmiqyaslı quruculuq işləri dövlətimizin öz hesabına həyata keçirilir. Buna görədir ki, dövlət büdcəmizin əsas prioritetlərindən biri milli hədəfimizə - Böyük qayıdışa nail olunması istiqamətindədir.

2020-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə əlaqədar dövlət büdcəsindən təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramının icrası üçün 5,3 milyard manat yönəldilib. Bu ilin büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

Azad olunan ərazilərdə sosial infrastruktur qurulur, xəstəxanalar, məktəblər, idman obyektləri tikilir, yollar, tunel və körpülər inşa edilir, dəmir yolları çəkilir. Müasir "ağıllı kənd və şəhərlər" salınır. Çox qısa zaman ərzində Qarabağ və Şərqi Zəngəzurda iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan hava limanları tikilərək istifadəyə verilib. Üçüncü beynəlxalq hava limanı isə Laçında sürətlə inşa edilir.

Qarabağ və Şərqi Zəngəzura səfər etməyi ənənəyə çevirən Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə tez-tez o ərazilərə yollanaraq hər dəfəsində yeni yaşayış məntəqələrinin təməlini qoyur, açılışlar edir, əzəli yurdlarına qayıdan sakinlərə evlərinin açarlarını təqdim edir, onları öz mənzillərində ziyarət edir, qayıdış sevinclərini onlarla birgə yaşayır.

Bu il mayın 18-də qurucu lider İlham Əliyev yolunu yenidən Şərqi Zəngəzurdan salaraq Zəngilan və Cəbrayıl rayonlarında yeni təməllər atdı, bünövrələr qoydu, açılışlar etdi.

Həmin tarixdə birinci xanım Mehriban Əliyevanın "İnstaqram" sosial şəbəkəsindəki hesabında Zəngilan səfəri ilə bağlı etdiyi paylaşım isə Prezident İlham Əliyevin quruculuq missiyasının xoş mənzərəsini özündə əks etdirdi. Xilaskar İlham Əliyevin yamyaşıl meşənin, zümzüməli çayın fonundakı səmimi fotoları xalqımızın böyük maraq və rəğbətinə səbəb olmaqla yanaşı, bu torpaqların əzəli sahiblərinin öz yurdlarına əbədi qayıdışına rəmzi işarə oldu.

Onilliklər boyu erməni vandallığına tuş gələn tarixi, dini, mədəni abidələrimiz Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən yüksək zövqlə bərpa olunur.

Belə müqəddəs məkanlarımızdan biri Şərqi Zəngəzura sözügedən səfəri zamanı Prezident İlham Əliyev tərəfindən açılışı həyata keçirilən Zəngilan məscidi oldu. Düşmənin dağıtdığı və təhqir etdiyi müqəddəs məscidimizin yenidən inşa edilərək xalqımıza təqdim olunması, buradan ucalan azan sədası ilə bu torpaqların milli ruhunun dirçəlişi duyulurdu.

### Xoşbəxtliyin özü

Bəli, ta 2003-cü ilin oktyabr ayından 2024-cü ilin may ayına qədər olan 20 il yarımlıq zaman kəsiyində fəaliyyətinə nəzər salmaq belə kifayət edir ki, Prezident İlham Əliyevin bu illər ərzində gündəliyindəki əsas məsələ torpaqlarımızın işğaldan azad edilməsi və yüzminlərlə vətəndaşımızın didərgin salındığı yurduna qaytarılması olub.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin zəfərlə bitən Vətən müharibəsindən dərhal sonra məcburi köçkünlərə "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz..." deyə gözaydınlığı verməsi də təsadüfi deyildi.

Vurğulayaq ki, ötən dövrdə də keçmiş məcburi köçkünlərin mənzil və həyat şəraitlərinin yaxşılaşdırılması daim Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Bu soydaşlarımız çadırlardan, yataqxanalardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülüb, yaşayış şəraitləri yaxşılaşdırılıb, sosial rifahları yüksəldilib.

2020-ci il mayın 28-i Müstəqillik Günündə isə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Bakının Qaradağ rayonunda 1336 məcburi köçkün ailəsi üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışı oldu. Bu həm də məcburi köçkünlər üçün salınmış sonuncu müvəqqəti yaşayış kompleksi kimi yaddaşlarda qaldı. Çünki həmin tarixdən cəmi iki il sonra dövlətimiz artıq Zəngilanın Ağalı kəndinin sakinlərinin timsalında Şərqi Zəngəzura əbədi həyatı qaytardı və bu xoşbəxtlik qısa zaman sonra Qarabağa da nəsib oldu, bu ulu diyarımıza da qayıdış köçləri yola salındı.

Sözü imzası qədər kəsərli olan Prezident İlham Əliyevin siyasi qətiyyəti, gücü, iradəsi, ən əsası vətənpərvərliyi sayəsində keçmiş məcburi köçkünlər yurdlarına dönərək yenidən o doğma torpaqlarda yaşayır, qurub-yaradırlar. İllərdir ev-eşiyindən pərən-pərən düşərək ölkəmizin dörd bir yanına səpələnmiş vətəndaşlarımız indi birgə xoş günlərə pərvazlanıblar. Artıq Şərqi Zəngəzurdan, Qarabağdan top-tüfəng səsi yox, yeni doğulan körpələrin sədası dünyaya yayılır.

Bütün bunlar ömrünü Azərbaycan xalqının yolunda şam kimi əridən Ulu Öndər Heydər Əliyevin vaxtilə Füzulinin Horadiz qəsəbəsi ilə təməlini qoyduğu Böyük qayıdışın Prezident İlham Əliyev tərəfindən məntiqi sonluğuna yetirilməsinin göstəricisidir.

Və bütün bunlar həm də Azərbaycan xalqı üçün xoşbəxtliyin özü deməkdir.

Necə ki bu barədə qalib lider İlham Əliyev 2021-ci il dekabrın 24-də - öz ad günündə zəfər qalamız Şuşadan bəyan edib: "Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# 100 günün inkişaf və zəfər salnaməsi



# Xalq 100 günü necə qiymətləndirir?



**Bu il fevralın 7-də ilk dəfə bütöv Azərbaycanda keçirilən Zəfər seçkilərində xalq demokratik sabitliyin, yüksəlişin, sosial-iqtisadi, mədəni-mənəvi tərəqqinin və dayanıqlı inkişafın müəllifi İlham Əliyevi yenidən Prezident seçdi.**

**Vətən müharibəsindən sonra keçirilən bu seçki hər bir vətənsevər azərbaycanlı üçün son 200 illik tariximizdə mühüm dövlətçilik imtahanı oldu. Seçkilərin nəticələri göstərdi ki, vətəndaşlarımız öz xoşbəxt gələcəyini, firavan həyatını, dövlətimizin daha da inkişafını, eləcə də dövlətçiliyimizin qorunmasını, müstəqilliyimizin möhkəmlənməsini İlham Heydər oğlu Əliyevin ölkəyə rəhbərlik etməsində görür. Xalq bu seçkidə təkcə ölkənin birinci şəxsini seçmədi, həm də qalib Azərbaycanın xoş gələcəyinə səs verdi!**

**Bu gün İlham Əliyevin prezidentlik fəaliyyətinə başlamasının 100 günü tamam olur. Həmin ərəfədə əməkdaşlarımız paytaxt sakinləri ilə görüşüb Prezidentin 100 günlük fəaliyyətinə münasibətlərini öyrəniblər.**

**Aslan ƏZİMZADƏ,** *İqtisad Universitetinin müəllimi, iqtisadçı ekspert:*



- Cənab İlham Əliyevin beşinci dəfə prezident seçilməsinin 100 gününü əvvəlki illərdə respublikamıza rəhbərlik etdiyi illərin daha uğurlu davamı hesab edirəm. Bu gün istər ölkə, istərsə də dünya iqtisadiyyatında formalaşmaqda olan yeni çağırışlar Cənubi Qafqaz üçün də önəmli amilləri şərtləndirir. Bu çərçivədə Azərbaycanın Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi bir rəhbərinin olması xalqımız üçün şansdır. İlham Əliyevin apardığı istər iqtisadi, istərsə də sosial islahatlar xalqımız tərəfindən yüksək dəyərləndirilir. Xüsusən mən Prezidentin sosialyönümlü siyasətini qeyd etmək istəyirəm. Son illər qəbul olunmuş 4 sosial paket əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edir. Araşdırsaq görərik ki, heç bir postmüharibə ölkəsində Azərbaycandakı kimi dayanıqlı və müsbət trendlər müşahidə edilmir. Çünki bu cür konstruktiv və sistemli sosial-iqtisadi siyasətin müəllifi cənab İlham Əliyevdir. Bu səbəbdən xalqımız seçdiyi Prezidentinə inanır. Ona görə də Azərbaycanda xalq və Prezidentin sarsılmaz birliyi mövcuddur.

**Təranə ASLANOVA,** *AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru:*



- Mən əslən Şuşalıyam. Bu günlər 32 ildən sonra doğma Şuşaya getmişdim. Yolboyu ermənilərin işğal dövründə torpaqlarımızda törətdikləri vandalizmin qalıqlarını gördükcə dəhşətə gəlməmək mümkün deyildi. Şuşada aparılan abadlıq, quruculuq, bərpa işlərini görəndə isə gözlərimə inanmadım. Şuşa böyük bir tikinti meydançasını xatırladırdı. 32 ildən sonra doğma yurduna qayıdıb evlə təmin olunan insanların sevincini sözlə ifadə etmək mümkün deyil.

Yenidən qurulan Laçın şəhərində də olduq. Dağların qoynunda əsl cənnət yaradılır. Laçını gözəllikdə Avropa şəhərləri ilə də müqayisə etmək olar. Prezidentimizin dediyi kimi, Laçın cənnətin özüdür. Bunu görüb, dövlətimin gücü, qüdrəti ilə qürur duydum, Azərbaycanla fəxr etdim. Bizə bu xoşbəxtliyi İlham Əliyev gərgin əməyi, yuxusuz gecələri, ardıcıl fəaliyyəti ilə yaşadır. Çox səmimi şəkildə deyirəm ki, İlham Əliyev kimi Prezidentimiz olduğuna görə fəxr edirəm. Xalqımızın bəxti onda gətirib ki, İlham Əliyev kimi lideri var.

**Oqtay AĞAYEV,** *Mitel Enerji İnşaat şirkətinin əməkdaşı:*



- Prezident İlham Əliyev Qarabağın xilaskarı və qurucusudur. Mən inşaat şirkətinin əməkdaşı kimi Qarabağda və Şərqi Zəngəzurda aparılan tikinti-quruculuq işlərində iştirak edirəm. Əminliklə deyə bilərəm ki, bu işlər cənab İlham Əliyevin rəhbərliyi ilə onun nəzarəti altında həyata keçirilir. Son günlər işğaldan azad olunmuş ərazilərdə aparılan işlərin panoramasına diqqət etsək görərik ki, bu 100 gündə Qarabağda 100 ayın işi görülüb. Prezident İlham Əliyev qurduğu ordu ilə 200 illik Qarabağ problemini cəmi 44 günə birdəfəlik həll edən tarixi şəxsiyyətdir. Belə bir liderin ölkəmizə rəhbərlik etdiyi hər gün xalqımızın tarixinə yazılan şərəfli bir səhifədir. Cənab İlham Əliyev müqayisəolunmaz fəaliyyəti ilə Azərbaycan tarixinin ən şanlı səhifələrini yazan bir liderdir, Prezidentimlə qürur duyuram. Qalib Azərbaycan İlham Əliyevin yazdığı çox möhtəşəm əsərdir.

**Mahmud QƏHRƏMANOV,** *təqaüdçü:*



- Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanı müstəqilliyinə qovuşduran, ərazi bütövlüyümüzü bərpa edən, çoxəsrlik Qarabağ problemini birdəfəlik həll edən tarixi şəxsiyyət kimi adını xalqın qəlbinə yazan bir liderdir. Prezidentimiz hakimiyyətə gəldiyi ilk gündən ona inanaraq siyasətini dəstəkləmişik. Azərbaycanda görülən işlər, insanların yaşayışında baş verən müsbət dəyişikliklər bir vətəndaş kimi məni qürurlandırır. Cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində mənim ölkəm bu gün dünyada söz, nüfuz sahibi olub. İndi Azərbaycan dünyanın ən mötəbər tədbirlərinin keçirildiyi məkana çevrilib. Qarabağın düşmən işğalından tam azad olunmasını, iki ölkə arasında sərhədlərin müəyyən edilib sərhəd dirəklərinin basdırılmasını xəyalımızdan belə keçirə bilmirdik. Prezident bizim xəyallarımızı gerçəkləşdirdi. Bizi inanılmaz görünən arzularımıza çatdırdı.

**İdris ABBASOV,** *AMEA-nın Dilçilik İnstitutunun şöbə müdiri, professor:*



- Prezident İlham Əliyev ölkədə daxili sabitliyi qoruyub saxlayan bir liderdir. Xalqımızın gələcəyi, dövlətimizin qüdrətlənməsi üçün gördüyü işlər müqayisəolunmazdır. Etiraf edim ki, özümüz vətəndaş olaraq Azərbaycan üçün Prezidentin etdiyinin cüzi bir hissəsini etmirik. Təkcə dövlətimizin başçısının Qarabağ zəfəri haqqında cild-cild kitab yazılsa, yenə azdır.

Azərbaycan coğrafi mövqeyinə görə elə bir məkanda yerləşir ki, Avropanın və Asiyanın nəzəri bura yönəlib. Cənab İlham Əliyevin apardığı siyasət nəticəsində biz bütün bəlalardan xilas ola bilirik. Eyni zamanda dünyanın əksər dövlətləri bizimlə iqtisadi, siyasi əməkdaşlığa can atır. Praqmatik siyasətin nəticəsi olaraq bu gün Azərbaycan dünyanın ən sabit ölkəsinə çevrilib.

**Günay VERDİYEVA,** *AMEA-nın Şərqşünaslıq İnstitutunun elmi işçisi, dosent:*



- Prezidentimizin fəaliyyəti, gördüyü işlər gözümüzün önündədir. Şəxsən mən ərazi bütövlüyümüzü tam bərpa etdiyi, Azərbaycanı yalnız regionun deyil, dünyanın hesablaşdığı dövlətlər səviyyəsinə yüksəltdiyi üçün cənab İlham Əliyevlə qürur duyuram.

Bir neçə gün əvvəl Prezidentimizin Zəngilan səfərini izləmişik. Dövlət başçısı vətəndaşla öz arasında səmimi körpü yaratmağı bacaran bir rəhbərdir. Onun xalqla təmas yaratma xüsusiyyəti, insanlarla səmimi davranışı, qayğısı, sadə vətəndaşlara göstərdiyi doğma münasibət xoş təəssürat yaradır.

Cənab Prezidentin ilk dəfə hakimiyyətə gələndə dediyi bir fikri yaxşı xatırlayıram: "Mən hər bir azərbaycanlının Prezidenti olacağam". O, söylədiyi fikrə sadiq qalaraq verdiyi bütün sözləri tutdu. Həm də bütün xalqımızın sevimlisi olmağı bacardı.

**Günel QULİYEVA,** *İ.M.Seçenov adına Moskva Dövlət Universitetinin Bakı filialının müəllimi:*



- Mən siyasətçi olmasam da, dünyada baş verən siyasi proseslərdən xəbərsiz deyiləm. Prezidentimizin qətiyyəti, apardığı müstəqil siyasət, uzaqgörənliyi nəticəsində ölkəmiz dünyanın ən sakit bir guşəsinə çevrilib. Ölkəmiz elə coğrafi məkanda yerləşir ki, istəsək də, istəməsək də, dünyanın diqqətini çəkir. Sirr deyil ki, dünyada bu gün güc, nüfuz davası, sürətli qütbləşmə gedir. Böyük dövlətlər Cənubi Qafqaz regionu uğrunda əsl savaş aparırlar. Belə bir vəziyyətdə yalnız müdrik insanlar düzgün seçim edib rəhbərlik etdiyi dövləti qoruya, xalqının təhlükəsizliyini təmin edə bilər. Cənab İlham Əliyev məhz belə liderdir.

**Asim CƏNNƏTOV,** *"ASAN xidmət" Agentliyinin mütəxəssisi:*



- Prezident İlham Əliyev xalqımızın qəhrəmanlıq tarixini yazan, çoxəsrlik Qarabağ problemini həll edən qüdrətli şəxsiyyətdir. Xalqımızın bəxti onda gətirib ki, bizim cənab İlham Əliyev kimi uzaqgörən, qətiyyətli, nəyi nə zaman etməyi dəqiq bilən və dediklərini də hər zaman həyata keçirən bir lideri var.

Azərbaycan gəncliyi xoşbəxtdir ki, İlham Əliyevin rəhbərlik etdiyi, sakit, inkişaf edən, gənclər üçün hər cür şərait yaradılan və ümidli gələcək vəd edən bir ölkədə yaşayır. Prezidentimiz uğurlu xarici siyasəti, uzaqgörənliyi, siyasi və elmi potensialı ilə vətənimizə və dövlətimizə dil uzadan bütün qüvvələri yerində oturtmağı bacarır. Bununla qürur duymamaq mümkün deyil.

Eləcə də gəncliyin xoşbəxt həyatı, insanların firavanlığı, rahat yaşamaları üçün aparılan islahatlar, həyata keçirilən sosial layihələr biz gəncləri çox sevindirir. Bu gün gənclərimizin oxuması, işləməsi, bilik və bacarıqlarını nümayiş etdirib özlərini təsdiq etməsi üçün hər cür şərait yaradılıb.

**Mədət ƏLİYEV,** *Azərbaycan Texniki Universitetinin tələbəsi:*



- Prezident İlham Əliyevin rəhbərlik etdiyi bir ölkənin vətəndaşı olduğum üçün qürur duyuram. Cənab İlham Əliyevin adı çəkiləndə gözlərim önünə bütöv Azərbaycanın möhtəşəm xəritəsi, Xankəndidə və Şuşada dalğalanan Zəfər bayrağımız gəlir. Belə bir Prezidentin rəhbərlik etdiyi ölkədə yaşadığım, oxuduğum üçün xoşbəxtəm. Cənab İlham Əliyevin prezidentliyi gələcəyimizin xoşbəxt təminatı deməkdir.

**Leyla İMANOVA,** *Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsi:*



- Cənab İlham Əliyevin Azərbaycan gəncliyinin lideri olmasından qürur duyuram. Vətən müharibəsi zamanı Prezidentimizin dünyanın müxtəlif yerlərindən üstümüzə məqsədli şəkildə göndərilən qərəzli "jurnalist"lərə verdiyi cavablar ordumuzun düşmən üzərində çaldığı qələbə qədər bizi qürurlandırırdı. Dövlət başçısı vətənimizin bütövlüyünün, dövlətimizin müstəqilliyinin, Qarabağın azadlığının rəmzidir.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# 100 günün inkişaf və zəfər salnaməsi





# Tarix yazan Prezident

*Prezident İlham Əliyev fevralın 14-də Milli Məclisdə andiçmə mərasimində nitqində görüləcək mühüm işlərdən danışarkən bildirdi ki, növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir:*

"Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir". Dövlət başçısı bildirdi ki, geniş quruculuq işləri görüləcək, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin siması bərpa ediləcək. Prezident İlham Əliyev qürurla dedi: "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək".

Prezident İlham Əliyevin 100 gün əvvəl, andiçmə mərasimində görüləcəyini söylədiyi və artıq həyata keçirilməkdə olan işlər dövlət başçısının son illərdə böyük qətiyyətlə, əzmlə reallaşdırılmış qlobal layihələrin, sadəcə, davamı deyil. Onların hər biri həm də yeni uğurdur.

Ermənistanın işğal altında saxladığı, 30 ilə yaxın müddətdə dağıtdığı, viran qoyduğu, xarabaya çevirdiyi Azərbaycanın əzəli yurd yerlərindən olan Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur. O yerlər doğma insanları ilə bərabər, qədim adət-ənənələrinə, mədəniyyətinə, incəsənətinə qovuşur. Xalqımızın əsrlərdir ki, böyük sevgi və xüsusi təntənə ilə keçirdiyi Novruz bayramı bu il suverenliyi tam bərpa edilmiş bütün Azərbaycanda qeyd edildi. Növbəti dəfə Prezident seçildikdən sonra - martın 18-də İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırdı. Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edən dövlət başçısı böyük fəxr hissilə dedi: "Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir".

Azərbaycan Ordusunun lokal xarakterli antiterror əməliyyatları nəticəsində uzun illər separatçıların quldur yuvası dağıdıldıqdan sonra rahat nəfəs alan Xankəndinin baş meydanına dövlət başçısı "Zəfər meydanı" adını verdiyini elə həmin meydandan bəyan etdi: "Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı Memorial Kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq aparılan tikinti-bərpa, yenidənqurma işləri nəticəsində son aylar daha neçə-neçə keçmiş məcburi köçkün öz yurduna qovuşdu. Bu ilin may ayı qədim qala şəhərimiz üçün də düşərli oldu. 1992-ci ilin bu ayında Şuşa tarixində ən ağır günləri ni yaşamış, təcavüzkar ermənilər tərəfindən işğal olunmuşdu və 30 ilə yaxın düşmən tapdağı altında qalmışdı.

2024-cü ilin mayında bu şəhərin tarixində yeni mərhələ başladı. Şuşa uzun illər sonra ilk sakinlərini qarşıladı. Mayın 11-də isə Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - islam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirildi. Dövlət başçısı tədbirdəki çıxışında vurğuladı ki, Şuşasız yaşadığımız 28 ili həm şuşalılar, həm bütün Azərbaycan xalqı mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atıldığını - ilk sakinlərin uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşdıqlarını qeyd edən Prezident İlham Əliyev Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər getdiyini dedi. Dövlət başçısının bildirdiyi kimi, Şuşa, sözün əsl mənasında, dirçəlir. İşğal dövründə işğalçılar tərəfindən tamamilə dağıdılmış bir çox tarixi və dini abidələr bərpa olunur, yeni yaşayış binaları, hotellər tikilir, müasir infrastruktur qurulur. Artıq dörd məscid yenidən qurulub, digər məscidlərdə isə təmir-bərpa işləri aparılır. Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa olunub və ötən ilin mayında istifadəyə verilib. Bu il mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mamayı məscidinin bərpadan sonra açılışında iştirak etdilər. Dövlət başçısına və birinci xanıma məsciddə görülən işlər barədə məlumat verildi. Bildirildi ki, bərpa zamanı bütün işlər tarixi görkəm nəzərə alınmaqla aparılıb. Qeyd edək ki, şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilmiş Mamayı məscidi də Şuşanın əksər abidələri, dini ocaqları kimi erməni işğalçılarının vandalizminə məruz qalmışdı.

Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində də iştirak etdilər. Məlumat verildi ki, Şuşa şəhərində üçüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 17 yaşayış binasının inşası nəzərdə tutulub. Kompleks ümumilikdə 487 mənzildən ibarət olacaq. Hazırda binanın layihələndirmə işləri başa çatdırılıb. Tikinti işlərinə bu ilin yayında başlanılması planlaşdırılır.

Mayın 18-də dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan məscidinin açılışında iştirak etdilər. Diqqətə çatdıraq ki, 30 ilə yaxın işğal altında qalan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Zəngilanda yeni məscidin təməli 2021-ci il aprelin 26-da Prezident İlham Əliyev tərəfindən qoyulmuşdu. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# 44 gün... 23 saatın davamı 100 gün

*"100 günün hesabatı" ənənəsi ABŞ-nin 32-ci prezidenti Franklin Ruzvelt tərəfindən qoyulub. Ruzveltə qədər ABŞ ciddi iqtisadi depressiyalara məruz qalmışdı. Ona görə də prezident və onun administrasiyası 100 gün ərzində ölkənin iqtisadi həyatını sağlamlaşdırmaq üçün nəzərəçarpacaq tədbirlər həyata keçirmək imkanı qazanmışdı.*

Bu imkandan istifadə edən Ruzvelt 100 gün ərzində bir sıra tədbirləri həyata keçirərək hesabat vermişdi. O zamandan indiyədək, demək olar ki, dünyanın əksər ölkələrində dövlət başçılarının 100 günlük fəaliyyətləri ilə bağlı hesabatlar verilir, müəyyən təhlillər aparılır və gələcək üçün proqnozlar irəli sürülür.

Təcrübə göstərir ki, siyasi, iqtisadi, sosial böhrana, depressiyalara məruz qalmış ölkələrdə hakimiyyətə gəlmiş yeni dövlət başçısı 100 gün ərzində həyatın əsas sahələrinə kifayət qədər təsir etməyə çalışır. Stabil inkişaf və daxili sabitliyi təmin olunmuş, xarici siyasəti formalaşdırılmış dövlətlərdə isə bu, bir növ ənənəyə əməl etmək təsiri bağışlayır. Prezident İlham Əliyev ikinci qəbildən olan dövlətlərin başçıları sırasındadır. 2003-cü ildə Prezident seçiləndə önündə Ulu Öndər Heydər Əliyev tərəfindən daxili ictimai-siyasi sabitliyi təmin olunmuş, xarici siyasəti və strategiyası formalaşdırılmış, iqtisadiyyatı intensiv surətdə inkişaf məcrasına yönəldilmiş bir ölkə var idi. Və belə bir dövləti idarə etməyi Azərbaycan seçicisi məhz Ulu Öndərin layiqli davamçısına etibar etmişdi. Hər kəs gördü ki, Prezident həmin etimadı doğrultdu, "hər bir azərbaycanlının Prezidenti olacağam" vədinə əməl etdi. Yeni əsrin yeni liderinin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi.

Ötən iki onillikdə Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursuna daim sadiq qalacağını dəfələrlə bəyan edib. Dönüb 20 illik bir fəaliyyət müstəvisinə baxanda aydın görmək olur ki, dövlət başçısı bu vədinə də əməl edib və bu gün də dəyişməz olaraq qalır. Azərbaycanda bütün sahələrdə baş verən quruculuq, inkişaf və islahatlar həmin bəyanatın göstəricisidir. Arxada qalan illərdə dövlət başçısı həm beynəlxalq, həm regional səviyyədə, həm də ölkə daxilində o qədər parlaq uğurlara imza atıb ki, onun qatı əleyhdarları belə Azərbaycan liderinin qələbəsini qəbul etməyə məcbur olublar. Bu, həm də bütövlükdə Azərbaycana, Azərbaycan xalqına, dünyanın başqa yerlərində yaşayan soydaşlarımıza bəxş edilən qələbədir. Bu qələbənin müəllifi, altından imzasını qoyan isə, sözsüz ki, qurucu və qalib lider, Ali Baş Komandan İlham Əliyevdir. Prezident müasir dünyada gedən siyasi və iqtisadi proseslərə dərindən bələddir, qloballaşma və inteqrasiya nəticəsində dünya meydanında baş verə biləcək bütün siyasi kataklizmləri irəlicədən görür və Azərbaycanı dağıntıları qarşılamaq üçün öncədən hazırlayır. Bu, müdriklik, liderlik və uzaqgörənlikdir.

2020-ci ilin 8 Noyabr Zəfər Günündən bu günə qədər dörd ilə yaxın bir vaxtı əhatə edən yolda liderin qurub yaratdıqları, təbii ki, 100 günlük hesabatdan öncəki dövrün göstəricisidir. İşğal illərində dağıdılmış, viran qalmış Qarabağın yenidən qurulması, bərpası, əvvəlki görkəmindən də üstün olması, "ağıllı kənd"lərin, şəhərlərin tikilməsi, sənaye parklarının salınması, "yaşıl zona"ya çevrilməsi, qısa müddətdə keçmiş köçkünlərin doğma yurda dönüşünün təmin olunması 100 günlük hesabata gələn yolda qazanılan uğurların hər birində Prezident İlham Əliyevin imzası və izi var. 100 gün həm çoxdur, həm də az. Bəlkə də kimin üçünsə hay-küylü dəyişiklik etmək, özünüreklam naminə ucuz gedişlər üçün 100 günü gözləmək lazım deyil, 30-40 gün kifayət edir. Amma dövlət işində, siyasət aləmində bərkimiş, oturuşmuş və təmkindən, düşüncədən, ölkə və dünya təcrübəsindən güc alan bir dövlət və siyasət adamı üçün 100 gün təhlil və hazırlıq dövrüdür.

Əslində, ciddi siyasətçidən bu dövrü gözləmək də lazım deyil. 44 günlük bir dövrü xatırlayaq. Bir ay 15 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın müstəsna sərkərdəlik qabiliyyəti, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və ordu-xalq-iqtidar birliyi ölkənin gələcəyini təmin edən ən mühüm amil oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq tarixini yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Hərbi əməliyyatların aparılması xarakterinə və icrasına, döyüşçülərimizin şücaətinə görə Azərbaycan tarixində misli görünməmiş Zəfərdir. Əlbəttə ki, cəmi 44 günə başa gəlmiş Zəfərin baş memarı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Və həmin 44 günün möhtəşəmliyi 100 gün əvvəl İlham Əliyevin təkrar dövlət başçısı seçilməsinin bayraqdarı oldu. Baxmayaraq ki, 100 günü qurucu lider üçün hesabat dövrü adlandırmaq olar. Amma möhtəşəm 44 gün əsrə bərabər bir gündü. Ona görə də Prezidentin hazırkı 100 günü 44 günün möhtəşəmlik fövqündən yuxarıda dayana bilməz. Bununla belə ötən 100 gün haqqında Prezident və onun administrasiyası hesabat vermək üçün xalqın qarşısına dolu qovluqla çıxa bilər. Jurnalistlər, politoloqlar, ekspertlər və siyasətçilər üçün isə danışmağa, yazmağa kifayət qədər sanballı mövzu və material var.

Prezidentin 100 gününün mahir biliciəri adətən öz mövqelərini bir mühüm məsələ ətrafında şərh edirlər: hakimiyyətə gələn yeni prezident ötən 100 gün ərzində seçkidə qazandığı səslərin üzərinə əlavələr edib, yoxsa seçicilərin bir qismi daha ona etimad göstərmir? Təbii ki, bu, ümumi qəbul edilmiş kriteriyadır. Çünki bütün digər məsələlərin həlli bu və ya başqa mənada xalqın öz rəhbərinə göstərdiyi etibar və etimada bağlıdır. Məlumdur ki, İlham Əliyev seçicilərin 92,12 faizinin səsini qazanaraq digər iddiaçılar üzərində labüd olan və gözlənilən qələbəni qazanıb. Bununla da Azərbaycan xalqının dövlət başçısına olan etimad və etibarı təsdiqlənib.

Ötən 3 ay 10 gün ərzində Azərbaycan xalqı İlham Əliyevin Prezidentliyi, rəhbərliyi altında daha 100 gün yaşadı. Bu qısa vaxt ərzində açıq-aydın görünən, hiss olunan 100 yenilik yazmaq olar, amma hər kəsin və bütün dünyanın gözü önündə baş verən uğurları təkrar yazmağa ehtiyac yoxdur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# 2023-cü ildə Azərbaycanda makroiqtisadi sabitlik təmin edilib

**Mayın 23-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, 2023-cü il əldə edilən tarixi uğurlarla yadda qalıb. Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı keçirilən tədbirlərdə Ümummilli Liderin xatirəsi dərin ehtiramla yad edilib. Ötən il Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Qeyd edilib ki, qazanılan qələbələrin təmin olunmasında iqtisadi və maliyyə çevikliyi müstəsna rol oynayıb.

Tahir Mirkişili diqqətə çatdırıb ki, 2023-cü ildə Azərbaycanda dövlət büdcəsinin icra edildiyi makroiqtisadi mühit qənaətbəxş olub, iqtisadiyyatda artım izlənilib və bu, tamamilə qeyri-neft-qaz sektorunun hesabına təmin edilib. Ölkədə Ümumi Daxili Məhsul (ÜDM) 123 milyard manat təşkil edib. Adambaşına ÜDM real ifadədə 0,5 faiz artaraq 12,1 min manat olub. Qeyri-neft-qaz sektoru üzrə real artım tempi 3,7 faiz, neft-qaz sektoru üzrə real artım tempi 1,7 faiz müşahidə olunub. Neftin qiyməti 2023-cü ilin büdcə zərfində 60 dollardan götürülsə də, "Azerilight" neftinin bir barelinin orta illik qiyməti 86,1 dollar olub. Əhalinin nominal gəlirləri 12,8 faiz artaraq 78,1 milyard manat təşkil edib. Hesabat ilində ixrac 27,6 milyard dollar, idxal 17,3 milyard dollar, müsbət saldo 10,3 milyard dollar olub. Məcmu valyuta ehtiyatları 17,1 faiz artaraq 68,5 milyard dollara çatıb.

Komitə sədri qeyd edib ki, 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 35236,4 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 4,0 faiz çox, dövlət büdcəsinin xərcləri 36457,9 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 0,5 faiz az və müvafiq olaraq dövlət büdcəsinin kəsiri 1221,5 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 55,3 faiz az olub. Hesablama Palatası tərəfindən dövlət büdcəsi gəlirlərnin 97,8 faizini, xərclərinin isə 85,5 faizini əhatə edən vəsaitlərin qurumlar tərəfindən təqdim edilən hesabatlarla üzləşməsi aparılıb. İşğaldan azad edilmiş ərazilər üçün ayrılan 4,8 milyard manat vəsait tam icra edilib.

Sonra maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatı təqdim edib.

Nazir bildirib ki, 2023-cü ildə Azərbaycanda makroiqtisadi sabitlik və fiskal dayanıqlıq təmin edilib, hökumət və Mərkəzi Bank tərəfindən atılan addımlar inflyasiyanın birrəqəmli səviyyəyə enməsini şərtləndirib. 2023-cü il ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft-qaz məhsullarının ixracının genişləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilib. Ötən il ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri olan işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, Böyük qayıdışın təşkili istiqamətində işlərin sürətlə davam etdirilməsi, dövlətin milli təhlükəsizliyinin və müdafiəsinin möhkəmləndirilməsi, təhsil, səhiyyə, mədəniyyət, idman, infrastruktur layihələrinin reallaşması, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi, kənd təsərrüfatının stimullaşdırılması, dövlət borcuna xidmət edilməsi, beynəlxalq təşkilatlara üzvlük haqqının ödənilməsi və digər zəruri dövlət vəzifələrinin icrası üçün tələb olunan məbləğdə maliyyə təminatı yaradılaraq bu tədbirlərin həyata keçirilməsi təmin edilib.

Dövlət büdcəsinin icrasına dair məlumatda nəzərə çatdırılıb ki, 2023-cü ildə büdcə qaydasının əsas göstəriciləri hədəflənən yuxarı hədləri çərçivəsində olub, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 22,5 faiz olub. Dövlət borcunun ÜDM-ə nisbəti isə 21,8 faiz və ya ortamüddətli dövr üçün müəyyən edilmiş hədəf göstəricisindən 8,2 faiz-bəndi aşağı olub. Ümumilikdə büdcə qaydası fiskal dayanıqlığın və maliyyə intizamının gücləndirilməsinə töhfə verməklə yanaşı, Dövlət Neft Fondunun aktivlərinin hədəflənən səviyyələrdə qorunmasına da imkan yaradıb.

Bildirilib ki, 2023-cü il dövlət büdcəsinin gəlirləri 33890,5 milyon manat proqnoza qarşı 35236,4 milyon manat və ya 1345,9 milyon manat, 2022-ci illə müqayisədə isə 4556,8 milyon manat və ya 14,9 faiz çox icra olunub. Dövlət büdcəsinin gəlirlərinin ÜDM-də xüsusi çəkisi 28,6 faiz təşkil edib ki, bu da 2022-ci illə müqayisədə 5,7 faiz-bənd çoxdur. Dövlət büdcəsinin gəlirlərinin 16126,7 milyon manatı və ya 45,8 faizi vergi orqanlarının xətti ilə, 6337,8 milyon manatı və ya 18,0 faizi gömrük orqanlarının xətti ilə daxilolmaların, 11737,6 milyon manatı və ya 33,3 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 1034,3 milyon manatı və ya 2,9 faizi digər gəlirlər üzrə daxilolmaların payına düşür.

Ötən il gəlirlərin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 17080,0 milyon manat təşkil edib ki, bu da proqnozla müqayisədə 1129,2 milyon manat və ya 7,1 faiz, 2022-ci illə müqayisədə isə 1730,0 milyon manat və ya 11,3 faiz çoxdur.

2023-cü il dövlət büdcəsinin 36624,8 milyon manat məbləğində təsdiq olunmuş xərcləri 99,5 faiz və ya 36457,9 milyon manat məbləğində icra olunub ki, bu da 2022-ci illə müqayisədə 4393,3 milyon manat və ya 13,7 faiz çoxdur. Hesabat ilində dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 29,6 faiz təşkil edib ki, bu da 2022-ci illə müqayisədə 5,6 faiz-bənd çoxdur. Son 5 ildə, yəni 2019-cu illə müqayisədə 2023-cü ildə dövlət büdcəsinin xərcləri 12032,0 milyon manat və ya 49,3 faiz artıb. İqtisadi təsnifata uyğun olaraq dövlət büdcəsinin xərcləri üzrə qeyri-maliyyə aktivlərinin alınmasına (işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, dövlət əsaslı vəsait qoyuluşu xərcləri, sosial, mədəni və məişət təyinatlı obyektlərinin əsaslı təmiri və s.) 12688,6 milyon manat, əməyin ödənişinə 8130,1 milyon manat, malların satın alınmasına 7472,7 milyon manat, sosial ödənişlərə 4396,4 milyon manat, subsidiyalara 1461,5 milyon manat, faizlər üzrə ödənişlərə 868,0 milyon manat, maliyyə aktivləri üzrə əməliyyatlara 687,1 milyon manat, öhdəliklər üzrə əməliyyatlara 313,6 milyon manat vəsait sərf edilib.

2023-cü ildə dövlət əsaslı vəsait qoyuluşu xərclərindən ayrılmış 338,9 milyon manat məbləğində vəsait də nəzərə alınmaqla elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə dövlət büdcəsi xərclərinin 30,5 faizi həcmində və ya 11124,2 milyon manat məbləğində vəsait sərf olunub ki, bu da 2022-ci illə müqayisədə 1499,0 milyon manat və ya 15,6 faiz çoxdur.

Diqqətə çatdırılıb ki, ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş dövlət əsaslı vəsait qoyuluşu xərclərindən, ehtiyat fondlarından və digər ehtiyat vəsaitlərdən ayrılmış 1392,1 milyon manat məbləğində vəsait də nəzərə alınmaqla, 2023-cü ildə müdafiə və milli təhlükəsizlik sahəsinə dövlət büdcəsi xərclərinin 19,9 faizi həcmində və ya 7246,9 milyon manat məbləğində vəsait yönəldilib ki, bu da 2022-ci illə müqayisədə 1560,5 milyon manat və ya 27,4 faiz çoxdur.

Kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə aidiyyəti sifarişçi təşkilatların xərc sifarişlərinə uyğun olaraq bütövlükdə dövlət büdcəsi xərclərinin 4,5 faizi həcmində və ya 1638,6 milyon manat məbləğində vəsait ayrılıb.

2023-cü ildə iqtisadi fəaliyyətlə bağlı xərclər üçün dövlət büdcəsindən ayrılmış 9325,5 milyon manat məbləğində vəsaitin aidiyyəti sifarişçi təşkilatların xərc sifarişlərinə uyğun olaraq 9320,3 milyon manatı və ya 99,9 faizi istifadə olunub. Hesabat ilində iqtisadi fəaliyyətlə bağlı xərclər ÜDM-in 7,6 faizini, dövlət büdcəsi xərclərinin isə 25,6 faizini təşkil edib.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən cəm olaraq 5581,6 milyon manat vəsait ayrılıb. Bu vəsaitin 4800,0 milyon manatı və ya 86,0 faizi işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı nəzərdə tutulmuş məqsədli xərclərin, 145,4 milyon manatı və ya 2,6 faizi Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun, 138,9 milyon manatı və ya 2,5 faizi dövlət büdcəsinin ehtiyat fondunun, 32,5 milyon manatı və ya 0,6 faizi dövlət əsaslı vəsait qoyuluşu xərclərinin, 464,8 milyon manatı və ya 8,3 faizi dövlət büdcəsində nəzərdə tutulmuş məqsədli xərclər hesabına ayrılmış vəsaitlərin payına düşür.

Beynəlxalq münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirak, Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması, beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər, beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər, Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər, xarici yardımlar, Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payının maliyyələşdirilməsi və Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması ilə bağlı xərclər üzrə 2023-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş 784,0 milyon manat vəsaitin 783,9 milyon manatı istifadə olunub.

2023-cü ildə dövlət proqramlarının və məqsədli tədbirlərin maliyyə təminatı üçün dövlət büdcəsinin faktiki xərclərinin 48,0 faizi həcmində və ya 17483,8 milyon manat məbləğində vəsait yönəldilib, Həmin vəsaitin 8941,3 milyon manatı və ya 51,1 faizi məqsədli dövlət proqramlarının, 8542,5 milyon manatı və ya 48,9 faizi məqsədli təyinatlı tədbirlərin icrasına sərf edilib. Hesabat ilində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası üçün 7095,6 milyon manat vəsait yönəldilib.

Bildirilib ki, 2023-cü il dövlət büdcəsi kəsirinin yuxarı həddi 2734,3 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1221,5 milyon manat təşkil edib (proqnoza nisbətən 1512,8 milyon manat və ya 55,3 faiz az). Dövlət büdcəsinin kəsiri 2023-cü ilin faktiki ÜDM-in 1,0 faizini təşkil etməklə, proqnozlaşdırılmış həddən 1,5 faiz-bənd azdır.

Samir Şərifov çıxışında həmçinin 2023-cü il icmal büdcəsinin gəlir və xərclərinin əsas istiqamətləri üzrə icrası barədə də məlumat verib. Qeyd olunub ki, ötən il icmal büdcənin gəlirləri 43060,1 milyon manat proqnoza qarşı 6988,9 milyon manat və ya 16,2 faiz çox icra edilməklə, 50049,0 milyon manat təşkil edib. İcmal büdcənin xərcləri 41269,8 milyon manat proqnoza qarşı 921,7 milyon manat və ya 2,2 faiz az icra edilsə də, 2022-ci illə müqayisədə isə 5274,5 milyon manat və ya 15,0 faiz çoxdur.

İcmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri fondun 6268,0 milyon manat məbləğində təsdiq olunmuş göstəricisinə qarşı 6675,2 milyon manat və ya 407,2 milyon manat (6,5 faiz) çox, yəni 106,5 faiz icra olunub. Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri təsdiq olunmuş 6268,0 milyon manata qarşı 6080,7 milyon manat (187,3 milyon manat az) və ya 97,0 faiz icra olunub.

İşsizlikdən sığorta fondunun büdcəsinin gəlirləri təsdiq olunmuş 217,7 milyon manat proqnoz göstəricisinə qarşı 259,4 milyon manat və ya 19,2 faiz çox icra olunub. İşsizlikdən sığorta fondunun büdcəsinin xərcləri təsdiq olunmuş 217,7 milyon manat proqnoz göstəricisinə qarşı 207,6 milyon manat və ya 95,4 faiz icra edilib.

İcbari tibbi sığorta fondunun büdcəsinin gəlirləri 2236,9 milyon manat, xərcləri 2393,2 milyon manata qarşı 1819,2 milyon manat və ya 76,0 faiz icra edilib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin gəlirləri təsdiq olunmuş 16337,5 milyon manat proqnoz göstəricisinə qarşı 21661,9 milyon manat və ya 32,6 faiz çox, xərcləri isə 11799,9 milyon manat icra edilib.

İcmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 605,0 milyon manat proqnoza qarşı 500,7 milyon manat və ya 104,3 milyon manat az icra olunub. Muxtar respublikanın büdcəsinin xərcləri 605,0 milyon manat proqnoza qarşı faktiki icra 504,3 milyon manat və ya 100,7 milyon manat az olub.

Bildirilib ki, 2023-cü ilin icmal büdcəsi 1790,3 milyon manat büdcə artıqlığı ilə (profisitlə) proqnozlaşdırılsa da, faktiki olaraq 9700,9 milyon manat büdcə artıqlığı (profisit) yaranıb.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının rəyini təqdim edib.

Palata sədri dövlət büdcəsinin icra edildiyi makroiqtisadi mühitin təhlili, büdcə hesabatlılığının hüquqi aktlara və strateji sənədlərə uyğunluğu, büdcə vəsaitlərinin idarə edilməsinin qiymətləndirilməsi barədə söhbət açıb. Bununla yanaşı, Vüqar Gülməmmədov dövlət büdcəsi gəlirlərinin əsas mənbələr və sektorlar üzrə icra vəziyyəti, inzibatçılığın qiymətləndirilməsi, gəlirlərin tədiyələr üzrə icra vəziyyətinin təhlili barədə, habelə 2023-cü il ərzində dövlət büdcəsinin xərclərinin icrası prosesində həyata keçirilmiş dəyişikliklər, funksional, iqtisadi və inzibati təsnifat üzrə xərclərin icra vəziyyəti, ehtiyat fondlarının icrası, məqsədli büdcə fondlarının icrası, dövlət əsaslı vəsait qoyuluşu icrası, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin icrası, iqtisadi təsnifat üzrə xərclərin icra vəziyyəti, dövlət büdcəsi xərclərinin ayrı-ayrı qurumlar tərəfindən icrası vəziyyəti, dövlət proqramlarının icrasının təhlili ilə əlaqədar məlumatları, bəzi tövsiyələrini diqqətə çatdırıb.

Məsələ ətrafında aparılan müzakirələrdə çıxış edən parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, komitənin sədr müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Mahir Abbaszadə, Ziyad Səmədzadə, Vüqar Bayramov, Elnur Allahverdiyev, Rüfət Quliyev, Aydın Hüseynov, Məzahir Əfəndiyev 2023-cü ilin dövlət büdcəsinin icrasını məqbul hesab ediblər, Hesablama Palatasının rəyini müsbət qiymtləndiriblər. Millət vəkilləri bəzi qeydlərini və suallarını da səsləndiriblər.

Maliyyə naziri Samir Şərifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, iqtisadiyyat nazirinin müşaviri Xaqani Abdullayev, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev qaldırılan məsələlərə münasibət bildiriblər.

İclasın sonunda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Men-Azərbaycan Cəmiyyətinin nümayəndə heyəti regiondakı yeni reallıqlar barədə məlumatlandırılıb

**Mayın 23-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-ABŞ Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov ABŞ-nin Men ştatında fəaliyyət göstərən Men-Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları səmimi salamlayan Səməd Seyidov Azərbaycan-ABŞ münasibətləri barədə danışıb, ikitərəfli gündəliyin müxtəlif aspektləri barədə fikirlərini səsləndirib.

Görüşdə dünyada cərəyan edən proseslər fonunda regionda yaranmış yeni reallıqlar barədə məlumat verilib. Qeyd olunub ki, münaqişə sona yetdikdən sonra Azərbaycan sülhə sadiqliyini nümayiş etdirib. Bildirilib ki, bu gün sülh gündəliyinin irəli aparılması üçün yaxşı imkanlar mövcuddur.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra ölkəmizin işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərindən, həmçinin bu ərazilərdə keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılması prosesindən danışılıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Men-Azərbaycan Cəmiyyətinin rəhbəri Tərlan Əhmədov, rəhbərlik etdiyi cəmiyyətin Men ştatındakı fəaliyyəti barədə ətraflı məlumat verib. Səfərin məqsədləri, keçirilən görüşlər barədə danışan qonaq, bu səfərin Azərbaycan həqiqətlərinin çatdırılması baxımından mühüm əhəmiyyətini qeyd edib.

Görüşdə iştirak edən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva, deputatlar Asim Mollazadə, Nigar Arpadarai, Sevil Mikayılova, Erkin Qədirli, Tural Gəncəliyev, Məzahir Əfəndiyev, Men ştatı Senatının üzvü Cil Dyuson, Men Nümayəndələr Palatasının üzvləri Deqa Dalak və Mana Abdi, hakim Pol Aranson, Böyük Portlend İmmiqrant Qarşılama Mərkəzinin icraçı direktoru Rza Cəlali, "Gateway Community Services" miqrantlarla iş üzrə qeyri-kommersiya təşkilatının icraçı direktoru Abdulla Əli, "Chance to Advance" miqrantlarla iş üzrə qeyri-kommersiya təşkilatının rəhbəri Exlas Əhməd Azərbaycan-ABŞ münasibətlərinin inkişaf perspektivlərinə dair fikirlərini səsləndiriblər, qarşılıqlı görüşlərin, müntəzəm təmasların əhəmiyyətini qeyd ediblər.

Çıxış edən qonaqlar Azərbaycana səfərləri çərçivəsində Şuşa və Laçın şəhərləri ilə tanışlıq zamanı onlarda yaranan təəssüratları bölüşüblər. Münaqişədən sonra Azərbaycan hökumətinin regionda apardığı irimiqyaslı yenidənqurma işlərindən, 30 ildən sonra məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmasından məmnunluq ifadə olunub. Səfərin Azərbaycan həqiqətləri barədə məlumat almaq baxımından əhəmiyyətli olduğu qeyd olunub.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri TBMM-in nümayəndə heyəti ilə görüşüblər

**Mayın 23-də Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmut Özerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Mədəniyyət komitəsinin sədri Fazil Mustafa qonaqları salamlayaraq dövlətlərimiz arasındakı əlaqələrin möhkəmlənməsində qarşılıqlı səfərlərin rolundan danışıb. O, təhsil, elm, mədəniyyət sahələrində əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətindən, Azərbaycan-Türkiyə Universitetinin açılmasının təhsil sahəsində əməkdaşlığın inkişafına yeni töhfə olmasından, TÜRKPA çərçivəsində əməkdaşlığın türk dövlətlərinin ümumi maraqlarının müdafiəsinə xidmət etməsindən söhbət açıb.

Səmimi görüş üçün təşəkkürünü ifadə edən TBMM-in Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmut Özer başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı keçirdiyi görüşlər barədə xoş təəssüratlarını bölüşüb.

Qonaq Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" şüarına əsasən inkişaf edən qarşılıqlı münasibətlərimizdə mədəni əlaqələrin rolundan danışıb, Bakıda keçirilmiş VI Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edib.

Söhbət zamanı iki ölkənin qanunvericilik orqanlarında fəaliyyət göstərən dostluq qruplarının parlamentlərarası əməkdaşlığın güclənməsində rolundan danışılıb, Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyənin göstərdiyi mənəvi-siyasi dəstəkdən söhbət açılıb, dövlətlərimizin hər zaman bir-birinin yanında olduğu qeyd edilib.

***"Azərbaycan"***

# Milli Məclisin və TBMM-in parlament aparatları arasında təcrübə mübadiləsi müzakirə edilib

**Mayın 23-də Milli Məclisin Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisi (TBMM) Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" prinsipləri əsasında yüksələn xətt üzrə inkişaf edən ikitərəfli münasibətlərin dərinləşdirilməsində dövlət başçılarının xüsusi rolu qeyd olunub.

Prezident İlham Əliyevin cari il fevralın 14-də keçirilən andiçmə mərasimində söylədiyi nitqində ölkəmizin xarici siyasət kursu ilə bağlı strateji seçiminə bir daha diqqət çəkilib, dövlət başçısının "Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" fikrinin yeni tarixi mərhələyə keçiddə strateji məqsəd və vəzifələri müəyyən etdiyi qeyd olunub. Söhbətdə ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, həmçinin ölkələrin parlament aparatları arasında əməkdaşlığın, qarşılıqlı təcrübə mübadiləsinin və mütəmadi səfərlərin əhəmiyyəti vurğulanıb.

Türkiyə Böyük Millət Məclisinin Baş katibinin müavini Naim Çoban isə öz növbəsində bildirib ki, ikitərəfli əlaqələrin dərinləşməsində parlamentlərarası münasibətlərin rolu böyükdür. İşçi qrupların təmaslarının, qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd edən qonaq iki ölkənin parlament aparatlarının arasında həyata keçirilən sıx təcrübə mübadilələri və qarşılıqlı səfərlərdən danışıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı, deputat Naqif Həmzəyev və TBMM-in nümayəndə heyətinin üzvləri çıxış edərək iki ölkə arasındakı dostluq və qardaşlıq əlaqələri barədə fikirlərini bölüşüb, parlamentlərarası münasibətlərin dərinləşdirilməsi, həmçinin parlament aparatları arasında təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyini qeyd ediblər.

# Şimali Kiprdən olan şəhid ailələri Şuşa, Xocalı və Ağdama səfər ediblər








Şimali Kipr Türk Respublikasından (ŞKTR) şəhid ailələrindən və ictimai xadimlərdən ibarət nümayəndə heyəti Şuşa şəhərinə səfər edib. İyirmi nəfərlik heyətin 12 nəfəri şəhid ailələrinin üzvləri olub. Onları Azərbaycandan olan şəhid ailələrinin üzvləri müşayiət ediblər.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın zəngin tarixi, mədəni irsi, şəhərdə aparılan tikinti-quruculuq işləri və təbiəti ilə tanış olublar. Onlar Cıdır düzünə gedib, Üzeyir bəy Hacıbəyli, Bülbül və Xurşidbanu Natəvanın güllələnmiş büstlərini, Xan qızı bulağını, Şuşa qalasını ziyarət ediblər.

Qeyd edək ki, səfər "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin icra etdiyi "Türk dünyasının şəhid ailələri arasında əlaqələrin inkişafı" layihəsi çərçivəsində təşkil olunub. Layihənin donoru Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyidir.

Şimali Kipr Türk Respublikasından və Azərbaycandan olan şəhid ailələri QHT-lər xətti ilə qarşılıqlı səfərlərə başlayıb. Qarabağ uğrunda şəhid olmuş 30 şəhidin övladı bu ilin iyul ayında Şimali Kiprə yollanacaq və orada yay düşərgəsində iştirak edəcək.

❖ ❖ ❖

Qarabağa səfər edən Şimali Kipr Türk Respublikasından (ŞKTR) olan şəhid ailələrindən və ictimai xadimlərdən ibarət nümayəndə heyəti Şuşadan sonra Xocalı və Ağdama gəliblər.

Xocalıda şəhid məzarlarını ziyarət edən nümayəndə heyəti ermənilər tərəfindən törədilən vəhşiliklər, şəhərin 30 ildən artıq müddətdə işğal altında qalması, 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkənin suverenliyinin təmin olunması barədə məlumatlandırılıb.

Nümayəndə heyəti sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olublar. Bildirilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Nümayəndə heyəti daha sonra Prezidentin xüsusi nümayəndəliyinin Ağdamdakı düşərgəsinə gəlib. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov onlara Ağdamın tarixi, indiki vəziyyəti, Ağdam şəhərinin baş planına uyğun olaraq həyata keçirilən və planlaşdırılan layihələr barədə ətraflı məlumat verib.

# Şəhid Cavid Ələkbərovun nəşi 30 ildən sonra Sumqayıtda torpağa tapşırılıb



Bu gün Sumqayıtdakı Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə Murovdağ yüksəkliyində itkin düşmüş, hazırda nəşi tapılan Qubadlı rayon Novlu kənd sakini şəhid Ələkbərov Cavid Fazil oğlu ilə vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə şəhidin ailə üzvləri, Milli Məclisin deputatları, YAP Qubadlı rayon təşkilatı, hüquq-mühafizə orqanları, Qubadlı Rayon İcra Hakimiyyəti, Sumqayıt Şəhər İcra Hakimiyyətinin və ictimaiyyətin nümayəndələri, həmçinin şəhid ailələri, müharibə veteranları iştirak edirdilər.

Bütün şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Dövlət Himni səsləndirilib.

Mərasimdə bildirilib ki, 1992-ci ildə rayonun ilk şəhidlərindən olan Ələkbərov Cavid Fazil oğlu 1975-ci il aprelin 25-də Zəngəzur mahalı Qubadlı rayonunun Novlu kəndində anadan olub, Novlu kənd orta məktəbini bitirib. 1993-cü ildə ordu sıralarında həqiqi hərbi xidmətdə olub, Kəlbəcərdə, Murovdağ və ətraf yüksəkliklər uğrunda erməni işğalçılarına qarşı gedən şiddətli döyüşlərdə əsl igidlik və fədakarlıq nümunəsi göstərərək düşmənə sarsıdıcı zərbələr vurub. Son döyüşü 1994-cü il fevralın 16-da Murovdağ yüksəkliyində olub.

Qeyd edilib ki, həmin gün Murovdağın ətəklərində və yüksəkliklərində şiddətli döyüşlər gedib, qəhrəman əsgərlərimiz düşmənə sarsıdıcı zərbələr endiriblər. Xalqımızın igid oğlu Cavid Ələkbərov da həmin döyüşdə itkin düşüb.

Çıxışlarda bildirilib ki, şəhidin ailə üzvlərindən də Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn olunanlar var. Belə ki, Birinci Qarabağ müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni quldurlarına qarşı gedən döyüşlərdə həyatını itirən Cavidin əmisi Ələkbərov Rafiq Qaçay oğlu və əmisi oğlu Ələkbərov Füzuli Hidayət oğlu da burada uyuyurlar. O cümlədən şəhidin adını daşıyan Birinci Qarabağ müharibəsi veteranı Aqil Ələkbərovun oğlu Cavid Ələkbərov 44 günlük Vətən müharibəsində Hadrut istiqamətində gedən döyüşlərdə ağır yaralanıb, müharibə veteranıdır. O, Prezident İlham Əliyevin sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Daha sonra Ələkbərov Cavid Fazil oğlunun nəşi torpağa tapşırılıb. Ruhuna dualar oxunub.

# Milli Məclisdə görüşlər

Mayın 23-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisi (TBMM) Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə Milli Məclisdə Parlament Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr və Redaksiya və nəşr işləri şöbələrinin əməkdaşları arasında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşü açan Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov qonaqların Parlament Aparatı şöbələrinin əməkdaşları ilə görüşlərinin davam etdiyini diqqətə çatdırıb.

Sonra Parlament Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibov rəhbərlik etdiyi şöbənin Milli Məclisin işinin mediada və sosial şəbəkələrdə işıqlandırılması sahəsində fəaliyyəti, media nümayəndələrinin akkreditasiyası və onlarla əməkdaşlıq, görülmüş işlər və tətbiq olunan yeniliklər barədə qonaqlara məlumat verib, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Milli Məclis Aparatının Redaksiya və nəşr işləri şöbəsinin müdiri Hafiz Babayev rəhbərlik etdiyi şöbənin fəaliyyət istiqamətləri, stenoqramların və Milli Məclisin digər nəşrlərinin hazırlanması prosesi barədə məlumat verib, bu sahədə TBMM-in fəaliyyəti ilə maraqlanıb.

Tədbirdə Redaksiya və nəşr işləri şöbəsi müdirinin müavini Ülviyyə Abdullayeva şöbə tərəfindən hazırlanan "Milli Məclis" jurnalı haqqında məlumat verib, Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi müdirinin müavini Ruslan İsmayılov görüşün əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı qonaqları maraqlandıran suallar cavablandırılıb.



❖ ❖ ❖

Sonra TBMM Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri və Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbələrinin əməkdaşları arasında görüş keçirilib.

Görüşü açan Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov şöbələri qonaqlara təqdim edib, onların ümumi strukturu və əməkdaşları barədə danışıb. O, Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin əməkdaşları arasında Vətən müharibəsi qaziləri olan Nicat Abdurrahmanov və İzzət Balacayevin olduğunu qeyd edib. Aparat rəhbərinin müavini vurğulayıb ki, Milli Məclis şəhid ailələri, qazilər və müharibə iştirakçılarının qayğıları ilə daim maraqlanır, onların işlə təmin olunmasını xüsusi diqqətdə saxlayır.

Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri Emil Tağıyev və şöbənin əməkdaşı Mirəvəz Abbasov şöbənin gördüyü işlər, vətəndaşların qəbulu və müraciətlərinə baxılması qaydaları barədə ətraflı məlumat veriblər.

Parlament Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsi müdirinin müavini Şahin Quliyev şöbənin funksiyaları, iş prinsipləri, kadrlarla işin qurulması və digər fəaliyyət istiqamətləri barədə ətraflı məruzə ilə çıxış edib.

Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində keçib.

❖ ❖ ❖

TBMM Baş katibinin müavini Naim Çobanın başçılıq etdiyi nümayəndə heyəti ilə Milli Məclis Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsinin əməkdaşları arasında da görüş keçirilib.

Görüşü açan Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov şöbəni qonaqlara təqdim edib, onun formalaşması, həyata keçirdiyi layihələr barədə ümumi məlumat verib.

İnformasiya resursları və texnologiyaları şöbəsinin müdiri Şahin Həsənov rəhbərlik etdiyi şöbənin fəaliyyət istiqamətləri, gördüyü işlər, tətbiq etdikləri texnoloji yeniliklər və yaradılan elektron sistemləri barədə təqdimat edib.

Söhbət zamanı qonaqların sualları cavablandırılıb, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirə yekun vuran Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov ölkələrimizin parlament aparatlarının strukturları arasında əməkdaşlığın, əlaqələrin dərinləşməsinin və təcrübə mübadiləsinin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

*"Azərbaycan"*

# Otuz il əvvəl şəhidlik zirvəsinə ucalan üç döyüşçü Şabranda dəfn olunub

**Birinci Qarabağ müharibəsinin şəhidləri Mirzəyev Rahib Ağaseyid oğlu, Şaxayev Cəlil İsa oğlu və Əmrullayev Rza Qəzənfər oğlunun cəsədlərinin qalıqları mayın 23-də Şabrandakı Şəhidlər xiyabanında dəfn olunub.**





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 1994-cü ildə şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçülər ölümlərindən 30 il sonra doğma yurdlarında torpağa tapşırılıblar.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Şabran Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şabran rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və sakinlər iştirak ediblər.

Dəfn mərasimində şəhidlərimizin ruhuna dualar oxunub, xalqımıza və dövlətimizə sülh və əmin-amanlıq arzulanıb, şəhidlərin məzarına tər güllər düzülüb, əklil qoyulub.

Şəhid Mirzəyev Rahib Ağaseyid oğlu 1971-ci ildə Şabranda anadan olub. 1989-1991-ci illərdə sovet ordusunda hərbi xidmət keçib. Birinci Qarabağ müharibəsinə könüllü yollanıb. 1992-ci il sentyabr ayının 4-də Ağdərə uğrunda gedən döyüşlərdə yaralanıb. Sonuncu dəfə Murovdağ uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü il fevralın 11-də itkin düşdüyü barədə məlumat verilib. Ailəsi 30 il ərzində Rahibdən xəbər ala bilməyib.

Şəhid Şaxayev Cəlil İsa oğlu 1973-cü ildə Şabranda anadan olub. Orta məktəbi bitirdikdən sonra peşə məktəbində təhsil alıb. 1994-cü ildə hərbi xidmətə yollanıb və Qarabağ uğrunda gedən döyüşlərə qatılıb. 1994-cü ildə Murovdağın ətəyində gedən döyüşlərdə itkin düşüb.

Şəhid Əmrullayev Rza Qəzənfər oğlu 1961-ci ildə Şabranda dünyaya göz açıb. Hərbi xidmətini 1980-1982-ci illərdə Əfqanıstanda keçib. 1994-cü ildə könüllü olaraq Qarabağ müharibəsinə yollanıb. Elə həmin il Kəlbəcər uğrunda gedən döyüşlərdə itkin düşüb.

Aparılan araşdırmalardan sonra hər üç döyüşçünün Gəncə şəhərindəki Şəhidlər xiyabanında naməlum şəhid kimi basdırıldığı müəyyənləşib.

# Abdullah UÇAN: "Azərbaycan-Türkiyə gənclərinin işbirliyi qardaşlıq prinsipinə əsaslanır"

Mayın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Gənclər Birliyinin üzvləri ilə ölkəmizdə səfərdə olan Türkiyənin Anadolu Aslanları İş Adamları Dərnəyi Gənclər Təşkilatının nümayəndə heyəti arasında görüş keçirilib.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Azərbaycanla Türkiyənin "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin zirvədə olduğunu bildirib. O, iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini, milli maraqlarımızın uğurla təmin olunduğunu diqqətə çatdırıb. YAP Gənclər Birliyinin sədri bu amilin iki ölkə gənclərinin də sıx təmasları və əməkdaşlığı üçün möhkəm bünövrə yaratdığını diqqətə çatdırıb.

İki qardaş ölkənin hakim partiyaları arasında əlaqələrin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına önəmli töhfələr verdiyini vurğulayan B.İslamov 2021-ci ilin iyununda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Ankaraya səfəri zamanı YAP ilə AK Parti arasında Əməkdaşlıq Protokolunun imzalanmasının əhəmiyyətini diqqətə çatdırıb. O, hər iki partiyanın gəncləri arasında fəal əməkdaşlığın mövcud olduğunu söyləyib.

Görüşdə Türkiyənin Anadolu Aslanları İş Adamları Dərnəyi Gənclər Təşkilatının rəhbəri Abdullah Uçan ölkəmizə səfərdən məmnunluğunu bildirib. Səfər çərçivəsində keçirilən görüşlərin əhəmiyyətindən bəhs edən A.Uçan rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib və təşkilatın öz sıralarında gənc iş adamlarını birləşdirdiyini qeyd edib. O, bir millətin iki dövləti olan Azərbaycan ilə Türkiyənin gəncləri arasında dostluq və qardaşlıq prinsipinə əsaslanan işbirliyinin parlaq perspektivlərə malik olduğunu bildirib.

Görüş iştirakçıları iki qardaş ölkənin gənclərinin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına layiqli töhfə vermək əzmində olduqlarını vurğulayıblar.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.

# TBMM-in nümayəndə heyəti Qərbi Azərbaycan İcmasında olub

Qərbi Azərbaycan İcmasında Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının sədri Mahmud Özerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

İcmadan AZƏRTAC-a bildiriblər ki, görüşdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qardaş ölkənin nümayəndə heyətinə ortaq olaraq bilinən tarixdən - son 200 ildə azərbaycanlıların başlarına gətirilən müsibətlərdən danışıb. O, ötən əsrdə soydaşlarımızın 4 dəfə Qərbi Azərbaycandakı ata-baba torpaqlarından deportasiya olmaları barədə ürəkağrısı ilə bəhs edib. Deyib ki, sonuncu - 1987-1991-ci il deportasiyası zamanı 300 mindən artıq azərbaycanlı el-obasından zorla çıxarılıb və bu gün onlar öz doğma torpaqlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri dönüş üçün Qərbi Azərbaycan İcmasında birləşiblər.

Türkiyə Böyük Millət Məclisinin komissiya sədri Mahmud Özer ölkələrimiz arasında qardaşlıq bağlarından danışaraq tarix boyunca kədərimizdə və sevincimizdə bir-birimizin yanında olduğumuzu bir daha vurğulayıb. Əlaqələrimizin Şuşa Bəyannaməsi ilə daha da gücləndiyini vurğulayan M.Özer TBMM-dəki həmkarları ilə Qərbi Azərbaycan məsələsinə daha yaxından dəstək ola bilmək üçün müzakirələr aparacağını, bundan əlavə, Qərbi Azərbaycanla bağlı Azərbaycan, türk və ingilis dillərində ortaq bir kitab hazırlamaq təklifini irəli sürüb.

Digər çıxışçılar da Oğuz-türk ellərini birləşdirən Qərbi Azərbaycanla bağlı ortaq fikirlərini, xatirələrini bölüşüblər.

Sonda qonaqlara bir neçə dildə dərc edilmiş Qayıdış Konsepsiyası hədiyyə olunub və xatirə şəkli çəkdirilib.

# Şəhid Elməddin Abbasov Sumqayıtda dəfn olunub



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Abbasov Elməddin Şirxan oğlunun meyitinin qalıqları Sumqayıta gətirilib. O, Gəncə şəhərində Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn olunmuşdu.

AZƏRTAC xəbər verir ki, Sumqayıtda keçirilən dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Cəbrayıl Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər iştirak ediblər. Cənazə namazından sonra şəhid Elməddin Abbasov torpağa tapşırılıb, ruhuna dualar oxunub.

Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət Himni səsləndirilib. Əsgərlər şəhidin xatirəsinə yaylım atəşi açıblar.

Qeyd edək ki, 1975-ci ildə Cəbrayıl rayonunda anadan olan Abbasov Elməddin Şirxan oğlu 1994-cü ildə Murovdağ istiqamətində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

# Yekaterina NADOLSKAYA: "Bakıda gördüklərimdən heyrətlənmişəm"








**Bakıda "Fintex Sammit 2024" (Maliyyə və Texnologiyalar Expo) sammiti başa çatıb. Forum Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Maliyyə Monitorinqi Xidməti, Azərbaycan Fintex Assosiasiyasının dəstəyi ilə keçirilib. Sammit bütün maraqlı tərəflərin bir araya gələrək yeni fikirlər, təcrübələr bölüşdüyü, öz məhsullarını təqdim etdiyi, işgüzar əlaqələr qurduğu və maliyyə texnologiyaları, rəqəmsallaşma, ödəniş ekosisteminin dərin mövzularının birlikdə müzakirə olunduğu bir platforma olaraq özünü təsdiqləyib. "Fintex Sammit" Azərbaycandakı bütün bank rəhbərlərinin iştirak etdiyi yeganə maliyyə-bank tədbiridir.**

Forum "Bank və maliyyə ekosistemində yeni trendlər: İnnovativ həllər, finteks və təhlükəsizlik" mövzusunu əhatə edib.Tədbirdə müzakirələr 8 panel çərçivəsində aparılıb. Müxtəlif ölkələrdən 45 məruzəçi, 300-ə yaxın tərəfdaş və iştirakçı şirkət, 1500 yerli və xarici iştirakçı sammitə qatılıb.

Forumun iştirakçısı olmuş qonaqlardan biri, Rusiya Federasiyasının tanınmış jurnalisti, "Russian News" portalının təsisçisi və baş redaktoru Yekaterina Nadolskaya redaksiyamızda olub, sammitlə bağlı təəssüratlarını bölüşüb: "Mən ilk dəfə idi Azərbaycan paytaxtını ziyarət edirdim və açığını desəm, gördüklərimdən heyrətlənmişəm. Öncə qey etməliyəm ki, "Fintex Sammiti 2024" çox yüksək səviyyədə təşkil olunmuşdu. Mən ikinci dəfə idi bu forumda iştirak edirdim. İlk dəfə ötən il Türkiyədə "Fintex Sammiti"ndə iştirakçı olmuşam. Azərbaycan Bankları Assosiasiyasının (ABA) bu forumun keçirilməsi ilə bağlı gördüyü işlər həqiqətən təqdirəlayiqdir və bütün iştirakçılarda çox xoş təəssüratlar yaratmışdır. Bununla bağlı ABA-nın icraçı direktoru Yunus Abdulova dərin minnətdarlığımı bildirmək istərdim.

Onu da qeyd etməliyəm ki, sammitdə həm rusiyalı, həm də ukraynalı qonaqların birgə iştirakı sevindirici hal idi. Belə ki, bütün toplantı dövründə bu iki ölkənin nümayəndə heyətləri arasında heç bir insident və mübahisə baş vermədi. Hər şey dostluq və mehribançılıq şəraitində keçdi".

Rusiyalı jurnalist Bakı haqqında böyük məhəbbətlə danışır: "Bakı məni yaxşı mənada heyrətləndirdi. İlk növbədə diqqətimi cəlb edən şəhərin bənzərsiz memarlıq ansamblı oldu. Müxtəliflik, qədimliklə müasirliyin vəhdəti, dar döngələr və geniş prospektlər, parklar, Xəzər dənizi, milli mətbəxiniz bizdə böyük təəssürat yaratdı. Küçələrin təmizliyi, sakit ab-hava göstərirdi ki, şəhərin sakinləri və rəhbərləri Bakını çox sevirlər və ona böyük diqqət yetirirlər.

Mən İşərişəhərdə qalırdım və oradakı tarixi atmosfer, insanların mehriban və mədəni davranışı mənə xeyli müsbət emosiyalar verdi. Eyvanlardan və açıq pəncərələrdən gələn qızılgül qoxusu isə başqa bir aləm idi...

Onu da qeyd edim ki, bizim qubernatorumuz Aleksandr Beqlov da əslən Bakıdandır. Sank-Peterburqda Azərbaycan diasporuna çox böyük hörmətlə yanaşırlar. Mən bakılıları və bütün azərbaycanlıları Peterburqa dəvət edirəm. İndi bizim şəhərimizdə turizm mövsümünün qızğın çağı başlayır və bütün turizm şirkətləri Sankt-Peterburqun çox maraqlı, unikal görməli və gəzməli yerlərinə turlar təşkil edirlər. Park və müzeylərimiz, çay və göllərimiz, digər istirahət etməli məkanlarımız var. Onu da qeyd edim ki, iyunun 11-dən iyulun 2-dək həm də Peterburqda bəyaz gecələr mövsümüdür. Bu mövsümdə şəhərimizdə çoxlu beynəlxalq tədbirlər keçirilir. Bir neçə gündən sonra isə 27-ci Beynəlxalq İqtisadi Forum öz işinə başlayacaq. Bundan əlavə hər il Sankt-Peterburqda qeyd edilən orta məktəb məzunlarının bayramı - "Qırmızı yelkənlər" şousu keçiriləcək. Bu tədbirə tamaşa etmək üçün bütün dünyadan qonaqlar gəlir. Bəyaz gecələri isə, fikrimcə, hər bir insan heç olmasa həyatında bir dəfə görməlidir".

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin
tabeliyində "ASCO Nəqliyyat" MMC-yə tələb olunan avtomobillərin illik texniki xidmətin satın alınması məqsədilə ikimərhələli
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 5 iyun 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176**

***Tender komissiyası***

# İqlim dəyişiklikləri insan orqanizminə təsirsiz ötüşmür

**Hazırda dünyanın qlobal problemlərindən biri iqlim dəyişiklikləridir. Bu problem ekstremal hava hadisələri, quraqlıq, su ehtiyatlarının və biomüxtəlifliyin azalması kimi fəlakətlərin artması ilə daha da güclənib.**

Hesabatlara görə, son yüz ildə Yer kürəsində orta temperatur 0.8, Azərbaycanda isə 0.4-1.3 dərəcəyə qədər yüksəlib. Okeanların səthi min metr dərinliyə qədər isinirdisə, artıq bu göstərici iki min metr dərinliyə qədər çatır. Bu da dünya əhalisinin sağlamlığına və biomüxtəlifliyə təsirsiz ötüşmür. Bir müddət öncə mütəxəssislər tərəfindən aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdu ki, təbiətdə baş verən ekoloji problemlər insanların psixologiyasına mənfi təsir göstərir, bu fonda baş verən hormonal və bioritmik dəyişikliklər emosional, həssas insanların şikayətlərini artırır. Bu hal qəfil dəyişikliklərə tez uyğunlaşa bilməyən insanlarda daha çox müşahidə edilir.

İndi isə alimlər iqlim dəyişikliyinin bəzi beyin xəstəliklərinin artmasına səbəb olduğu qənaətinə gəliblər. ABŞ-nin Kaliforniya Universitetinin tədqiqatçıları qlobal istiləşmənin narahatlıq, depressiya və şizofreniya da daxil olmaqla, bir sıra zehni xəstəliklərə təsirini təhlil ediblər. Mütəxəssislər qrupu insult, miqren, meningit, epilepsiya, şizofreniya, altsheymer və parkinson kimi xəstəliklərin simptomlarının temperaturun artması ilə daha da şiddətləndiyini vurğulayıblar. Eyni zamanda bildiriblər ki, iqlim dəyişikliyi qan dövranını pozaraq, işemiya riskini artırır. Havanın temperaturu yüksəldikcə xəstəxanaya yerləşdirmə və ölüm hallarının sayının artdığı müşahidə edilir.

Tədqiqatda iştirak edən mütəxəssislər onu da bildiriblər ki, demensiya diaqnozu qoyulan insanlara ekstremal temperatur və hava dəyişiklikləri daha tez təsir edir. Belə ki, idrak pozğunluğu davranışı ətraf mühitdəki dəyişikliklərə uyğunlaşdırmaq qabiliyyətini məhdudlaşdırır. Normadan artıq temperaturda baş verən ölümlərin 20 faizinin məhz beyin xəstəliklərindən qaynaqlandığı sübut edilib.

İqlim dəyişikliyi insanlarda başağrısı, yuxusuzluq, başgicəllənmə, hərəkət pozulmaları, həyəcan, əl və qol nahiyələrində keyimə hissini artırır. Bəzən də gücsüzlük və müvazinətin pozulması kimi şikayətlər qeydə alınır. Mütəxəssislərin qənaətinə görə, gecə saatlarında havanın temperaturunun yüksək olması yuxunu pozmaqla insanın beyin sisteminə mənfi təsir göstərir.

İqlim dəyişikliklərinin yaratdığı problemlərin insan sağlamlığına fəsadlarını minimuma endirmək, sağlam mühitdə yaşamaq üçün hər kəs üzərinə düşən məsuliyyəti yerinə yetirməli və gələcək nəsillərin ekoloji problemsiz dünyada yaşamaları üçün əlindən gələni etməlidir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Makron Yeni Kaledoniyada ciddi etirazla qarşılandı

## Yerli siyasətçilər onun videobağlantı vasitəsilə danışmaq təklifini qəti şəkildə rədd etdilər

**Fransa Prezidenti Emmanuel Makron bu ölkənin müstəmləkəsi hesab olunan Yeni Kaledoniyaya səfər edib. Bu səfər son 40 ildə baş verən ən pis iğtişaşlar fonunda reallaşıb.**





Mayın 23-də Yeni Kaledoniyanın paytaxtı Numea şəhərindəki hava limanında mətbuata açıqlama verən Makron deyib ki, buraya sakitliyin bərpa olunması üçün gəlib: "Hər şeyi etmək əzmində gəldim - hörmətlə, təvazökarlıqla və qurbanları xatırlayaraq. Məqsədim nazirlər və bütün hökumətlə birlikdə xalqı dəstəkləmək və Yeni Kaledoniyanın gələcəyini bütün qruplarla müzakirə etməkdir".

Makronun dediyinə görə, lazımi qərarlar qəbul ediləcək və elanlar veriləcək. Amma Prezidentin ətrafındakılar Makronun dəqiq planının olmadığını və böyük siyasi qərarların gözlənilmədiyini bildirirlər.

Prezidenti Fransanın daxili işlər və müdafiə nazirləri Jerald Darmanen və Sebastyen Lekornü və digər rəsmi şəxslər müşayiət ediblər.

Yeni Kaledoniyada son bir həftə ərzində seçki sistemində islahatlara qarşı keçirilən kütləvi etirazlar zamanı artıq 6 nəfər ölüb, 300 adam yaralanıb, 200 nəfərdən çox etirazçı həbs olunub. Buna baxmayaraq, qarşıdurma, avtomobillərin yandırılması davam edir. Paris Yeni Kaledoniyaya əlavə üç min polis göndərib.

Emmanuel Makron vurğulayıb ki, Yeni Kaledoniya polisi lazım olduğu müddət ərzində gücləndirilmiş rejim vəziyyətində qalacaq. Yaxın günlərdə lazım gələrsə, asayişi tam bərpa etmək üçün yeni irimiqyaslı tədbirlər həyata keçiriləcək, çünki başqa seçim yoxdur.

Hazırda Yeni Kaledoniyada iğtişaşlar səbəbindən minlərlə turist qapalı məkanda qalıb. Fransa, Avstraliya və Yeni Zelandiya öz vətəndaşlarının təcili təxliyəsini təşkil ediblər. Almaniya Xarici İşlər Nazirliyi zərurət olmadığı halda Yeni Kaledoniyaya səfər etməməyi tövsiyə edib.

Nümayişçilər düşünürlər ki, uzaq Parisdə həyata keçirilən seçki islahatı Yeni Kaledoniyanın 270 minlik əhalisinin 40 faizdən çoxunu təşkil edən kanak aborigenlərinin təsirini azaldacaq. Çünki ən azı on ildir adada yaşayan fransalılar səs vermək hüququna sahib olmağa ümid edirlər.

Paris 1853-cü ildə Yeni Kaledoniya üzərində nəzarət qurub və 1946-cı ildə bu koloniyaya Fransanın xaricdəki mülkü statusunu verib.

Yeni Kaledoniya dünyanın üçüncü ən böyük nikel istehsalçısıdır, lakin hazırda istehsal böhran içindədir və ərazinin hər beş sakinindən biri yoxsulluq həddindədir.

10 gündür ki, adada iğtişaşlar, yanğınlar və qətllər baş verir. Təkcə son 24 saat ərzində silah anbarlarını qarətçilərdən qoruyarkən üç polis əməkdaşı ağır yaralanıb. 300 avtomobilə od vurulub. Məktəblər və barrikadalar yanır. Hava limanı bağlıdır.

Bunun səbəbkarı isə rəsmi Parisdir. Orada arxipelaqda azı 10 il yaşayan insanlara səsvermə hüququ vermək qərarına gəliblər.

Son məlumata görə, yeni kaledoniyalı siyasətçilər Makronla videobağlantı vasitəsilə danışmaqdan qəti şəkildə imtina ediblər və onunla şəxsi görüşə nail olublar.

Yeni Kaledoniyada iğtişaşlar böyük ziyana səbəb olub və Fransa hakimiyyəti onu kompensasiya etmək üçün yardım fondu yaratmaq niyyətindədir. Bunu Fransa prezidenti Emmanuel Makron müstəmləkəyə səfərinin yekunlarına dair mətbuat konfransında deyib. O, asayişi bərpa etməyə çağırıb və bildirib ki, bundan sonra ərazinin gələcəyi ilə bağlı siyasi dialoqa başlanacaq.

Bu barədə BFMTV telekanalı xəbər verir.

Makron vurğulayıb ki, Yeni Kaledoniyanın gələcəyi ilə bağlı siyasi danışıqların bərpasının şərti iğtişaşlara son qoyulması və yollardakı istehkamların aradan qaldırılmasıdır: "İndi bizim ikili məqsədimiz var - zorakılığa təslim olmamaq və barışıq yolu tapmaq".

O, dəymiş maddi ziyanı pisləyib, asayişi bərpa etməyə çağırıb və əmin edib ki, Fransa hüquq-mühafizə orqanları addım-addım "hər blok, hər qovşaq və hər barrikadaya" nəzarət edəcək.

Prezidentin sözlərinə görə, Yeni Kaledoniyada müxtəlif strukturlardan 3000-ə yaxın təhlükəsizlik qüvvəsi var və yaxın saatlarda ora əlavə zirehli texnika və helikopterlər göndəriləcək.

Makron qiyamçıların istehkamlarının yaxın vaxtlarda sökülməyəcəyi təqdirdə, fövqəladə vəziyyəti ləğv etməyəcəyini bildirib və adada həm Parisə sadiq, həm də müstəqilliyi dəstəkləyən bütün siyasi qüvvələri barışığa töhfə verməyə çağırıb.

O, nizam-intizamın bərpasının siyasi danışıqların bərpası istiqamətində ilk addım olacağını qeyd edib və iğtişaşlara səbəb olan seçki islahatına "məcbur etməməyə" söz verib, habelə ərazinin institusional statusu ilə bağlı ümumi siyasi razılıq əldə olunarsa, ərazi sakinlərinin səsvermədə iştirak edə biləcəklərini söyləyib.

Makron tərəflərə danışıqlar aparmaq üçün bir neçə həftə vaxt verəcəyini bildirib və bir ay ərzində ərazinin institusional gələcəyi ilə bağlı yeniliklər vəd edib: "Bu yenidənqurma missiyasının vəzifələrindən biri öz miqyasına görə çox böyük olan zərərin qiymətləndirilməsidir. Prioritet təcili yardım göstərmək, maaşların ödənilməsi və maliyyə vəziyyətinin yüngülləşdirilməsi olacaq".

Ekspertlərin fikrincə, bu səfər və onun nəticələri Fransanın növbəti diplomatik uğursuzluğunu nümayiş etdirib və hazırkı şəraitdə Makron Yeni Kaledoniyanın yerli əhalisi olan kanakları konstitusiya islahatına razılıq verməyə inandıra bilməyəcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərlə iş şöbəsinin müdiri Vüsal Hətəmova anası

**MUŞARAD XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4385**
**Sifariş 1121**

**Qiyməti 60 qəpik**